5.Нечипоренко А.П., Плотникова Л.В., Везо О.С. и др. Метод Фурье ИК-спектроскопии в исследовании аномерной чистоты α- и β-форм кристаллической D(+)-глюкопиранозы // Научный журнал НИУ ИТМО. Серия «Процессы и аппараты пищевых производств», 2024. № 1 (59), с.25-34.

6.Сапон, Е.С. Применение ИК-фурье спектроскопии для количественного анализа в фармацевтической промышленности / Е.С. Сапон, В. Г. Лугин // Вестник фармации, 2017. №1 (75), с. 82-92

7.Qafarov İ.A. Biostatistika. Bakı. 2021. 238 s.

Резюме

Сравнительная характеристика диагностической ценности метода молекулярной диагностики при хронических воспалительных заболеваниях женских половых органов

У.Г. Алиева

Учитывая широкое применение ИК-спектрографии в медицинских обследованиях, ее использование как безопасного и эффективного метода у больных DCOXIX, сравнительный анализ полученных результатов рассматривается как актуальная задача. В исследование за 2017-2021 годы были включены 130 женщин, проходивших лечение в Клинике учебной хирургии Азербайджанского медицинского университета, кафедра акушерства и гинекологии. Эти женщины были разделены на две группы: в основную I группу вошли 60 женщин с хроническим эндометритом, во II основную группу - 40 женщин с хроническим сальпингофоритом. Все женщины были в возрасте от 21 до 45 лет, средний возрастной предел составил 32,5±1,3 года. Маркерами с высокой диагностической ценностью при хроническом эндометрите были амид II, растяжение N-H и растяжение OH. Это свидетельствует о достоверности спектрофотометрического значения этих веществ для данной воспалительной нозологии. Значения маркеров Амид I и CH_2-CH_3 оказались очень высокими с точки зрения более высокой диагностической специфичности, чувствительности и эффективности при хроническом сальпингоофорите.

Summary

Comparative characteristics of the diagnostic value of the method of molecular diagnostics in chronic inflammatory diseases of the female genital organs

U.H. Aliyeva

Taking into account the wide application of IR-spectrography in medical examinations, its use as a safe and effective method in patients with DCOXIX, the comparative analysis of the obtained results is considered as an urgent task. 130 women were included in the study for 2017-2021, who underwent treatment at the Clinic of Teaching Surgery of Azerbaijan Medical University, Department of Obstetrics and Gynecology. These women were divided into two groups: the first group included 60 women with chronic endometritoma, and the second main group included 40 women with chronic salpingophoritis. All women were aged 21 to 45 years, the average age was 32,5±1,3 years. Markers with high diagnostic value in chronic endometritis were amide II, stretch N-H and stretch OH. This testifies to the reliability of the spectrophotometric value of these substances for this inflammatory nosology. The values of the markers Amide I and CH_2-CH_3 turned out to be very high from the point of view of higher diagnostic specificity, sensitivity and efficiency in chronic salpingo-oophoritis.

Daxil olub: 08.07.2024

UOT: 616.127-005.8-085-035-053.9

Arterial hipertoniya, ürəyin işemik xəstəliyi və şəkərli diabeti olan pasiyentlərdə antropometrik, exokardioqrafik və biokimyəvi göstəricilərin ürək ritminin variabelliyinin zaman və spektral sahələri ilə korrelyasiyası

A.V.Mustafayeva
C.Abdullayev ad. Elmi-Tədqiqat Kardiologiya İnstitutu

Müəllifin elektron poçt ünvanı: mustafayevaayten333@gmail.com

Açar sözlər: ürək ritminin variabelliyi, arterial hipertenziya, ürəyin işemik xəstəliyi, simpatik və parasimpatik tonus, simpatiko-parasimpatik balans.
Ключевые слова: вариабельность ритма сердца, артериальная гипертензия, ишемическая болезнь сердца, симпатический и парасимпатический тонус
Key words: heart rate variability, arterial hypertension, coronary heart disease, sympathetic and parasympathetic tone

Yer kürəsi əhalisində AH 25% təşkil edir, 65 yaşdan yuxarı şəxslər arasında isə bu göstərici 50%-dir. Yaş əsas risk faktorlarından biri hesab olunur. Məlumdur ki, yaş artdıqca təzyiq də artır. Belə ki, orta yaşlı insanlar üçün norma 140/90 mm.c.süt.-dur. Statistikaya əsasən 20-29 yaşlı kişilərin 9.4%-də, 40-49 yaş həddində 35%-də hipertoniya inkişaf edir. Bir sira müəlliflərə görə qadınlar arasında 59 yaşa qədər arterial hipertoniya kişilərə nisbətən az rast gəlinir; 59 yaşdan sonra isə bu rəqəm qadınlar arasında artır. Belə ki, qadınların 60%-i əsasən klimaks dövründə hipertoniyadan əziyyət çəkirlər. Bu hormonal tarazlığın pozulması və sinir sisteminin reaksiyasının kəskinləşməsi ilə bağlıdır. SHEP tədqiqatına görə 60-69 yaşda izoləolunmuş arterial hipertoniya 8%, 70-79 yaşda 11% və 80 yaşdan yuxarı isə 22% hallarda rast gəlinir. MRFIT tədqiqatının nəticələrində göstərilmişdir ki, ÜİX-nin əmələ gəlmə riski AT-in səviyyəsindən asılıdır. AT-i 120/80 mm.c.süt. olan şəxslərə nisbətən arterial hipertoniyalı xəstələrdə ürək-damar sisteminin ağırlaşma riski daha böyükdür. Fremingem tədqiqatında isə göstərilmişdir ki, AT-in qalxması ÜİX-i zamanı letallıq riskinin artmasına səbəb olur, xüsusilə də sübut olunmuşdur ki, burada ən çox sistolik arterial təzyiq böyük rol oynayır.

Məlumdur ki, simpatik sinir sisteminin aktivliyi həyat tərzindən və stress faktorlardan asılıdır. Vegetativ sinir sisteminin pozulması simpatik sinir sisteminin aktivliyində əsas rol oynayır. VSS-nin simpatik sahəsinin hiperaktivliyi ürək ritminin pozulmasına gətirib çıxarır [1,2,3,4].

Şəkərli diabet (ŞD) ürəyin işemik xəstəliyi üçün ciddi risk faktorudur və ən geniş yayılmış endokrin xəstəlikdir. Bunun inkişafı yaşla əlaqədar olaraq artır və ŞD – in olması ürək – damar sistemi xəstəliklərinin inkişafı üçün ciddi risk faktorudur, bundan başqa şəkərli diabet birinci növbədə ürəyin işemik xəstəliyi, həmçinin çox tez-tez hipertoniya xəstəliyi ilə birlikdə müşahidə olunur [5]. Son zamanlar əldə olunan ədəbiyyat məlumatlarına əsasən ŞD və arterial hipertoniya arasında qarşılıqlı əlaqə müşahidə olunur.

ÜRV ürəyə vegetativ sinir sisteminin təsiri ilə müəyyənləşdirilir, hansı ki, bu mediatorlar miokardın hüceyrələrinin elektrolit münasıbətini dəyişir. Sakitlik zamanı vegetativ sinir sisteminin parasimpatik sahəsinin tonusu üstünlük təşkil edir, ÜRV-i daha çox vaqus təsirlə müəyyənləşdirilir. Sinus düyünündə asetilxolinesterazanın kifayət qədər konsentrasiyası zamanı azan sinirin hər bir impulsunda asetilxolin hüceyrəyə daxil olur, tez inaktivləşir, bu da ürək ritminin variabelliyi ilə parasimpatik təsirin davamlılıgını göstərir. Vegetativ sinir sisteminin simpatik sahəsi stress zamanı

aktivləşir, bu zaman mediatorların təsiri daha da uzunmüddətli olur. RR intervalının qeyri düzgün davamlılığı VSS - nin müxtəlif bölmələrinin aktivliyinə təsir edir [6].

Son illər müəyyən olunmuşdur ki, ürəyin işemik xəstəliyinin (ÜİX) patogenezi miokardın koronar yataqlarının və neyro-humoral tənzimlənməsinin vəziyyətinin zədələnməsi ilə müəyyənləşdirilir [7]. ÜRV-nin öyrənilməsi göstərmişdir ki, neyro-humoral tənzimlənmə ritm dəyişiklinin statistik xarakteristikasını müəyyənləşdirir. VSS-nin parasimpatik sahəsi ürək ritminin yüksək tezlik diapazonu göstəricilərinə dolayı yolla təsir edir. Aşagı tezlik diapazonu isə daha çox simpatik tonus və humoral təsirlə xarakterizə olunur [8]. Ədəbiyyatlardan göründüyü kimi ürək ritmi ürəyin işemik xəstəliyi olan xəstələrdə miokardial statusun həssas indikatorudur [1?9]. Ümümdünya Səhiyyə Təşkilatının (ÜST) ekspertlərinə görə hazırda dünyada 100 ml. Insan II tip şəkərli diabetdən (ŞD) əziyyət çəkir. İnkişaf etmiş ölkələrdə ŞD getdikcə daha çox yayılır, ən çox da tip 2 ŞD hesabına. Tip 2 şəkərli diabet üçün hədəf orqanlarının zədələnməsi ilə arterial təzyiq (AT) inkişaf etdikdə VSS-nin pozulması xarakterikdir. Bu da ürək-damar sistemində vegetativ regulyasiyanın pozulmasına gətirib çıxarır və ürəyin diabetik avtonom neyropatiyası adlanır.

Tədqiqatın məqsədi Arterial hipertoniya, ürəyin işemik xəstəliyi və şəkərli diabeti olan pasiyentlərdə antropometrik, exokardioqrafik və biokimyəvi göstəricilərin ürək ritminin variabelliyinin zaman və spektral sahələri ilə korrelyasiyasından ibarətdir.

Tədqiqatın material və metodlatı. Tədqiqata 82 xəstə (34 qadın və 48 kişi, orta yaş həddi 56.7±1.6) daxil edilmişdir. Bunlardan 24 nəfər yalnız arterial hipertoniyalı xəstələr (I və II dərəcə AH [Hipertoniya üzrə Avropa Cəmiyyətinin və Avropa Kardioloqları Cəmiyyətinin 2007-ci il tövsiyələrinə əsasən], I qrup), 43 nəfər arterial hipertoniya və ürəyin işemik xəstəliyi (AH+ÜİX [I və II fs gərginlik stenokardiyalı, o cümlədən kəskin koronar sindromlu (KKS), I və II fs ürək çatmamazlıgı (ÜÇ) (NYHA tədqiqatına əsasən) olan xəstələr, ÜST 1999], II qrup), 15 nəfər arterial hipertoniya və ürəyin işemik xəstəliyi ilə yanaşı şəkərli diabeti olan xəstələr (AH+ÜİX+II tip ŞD, III qrup) olmuşdur.

Nəticə və müzakirələr. Cədvəl 1 və 2 -dən göründüyü kimi yaş və bədən çəki indeksinin (BÇİ) ürək ritminin variabelliyinin zaman sahəsi ilə korrelyasiyası mənfidir. Belə ki, yaş artdıqca zaman sahəsinin simpatik aktivlik göstəricilərindən NN intervalının standart dəyişməsi olan və dəyişikliyi bütövlükdə xarakterizə edən SDNN – 0.50 dürüst olaraq az olmuşdur ($p<0.001$). Bundan başqa normal intervalların orta göstəricilərinin standart dəyişməsini xarakterizə edən iSDANN - 0.54, iSDNN – 0.52, həmçinin spektral sahədən isə ürəyə simpatik təsirləri göstərən aşağı tezlik diapazonu olan LF – 0.42 ($p<0.001$) və simpatiko – parasimpatik balansı göstərən LF/HF 0.38 ($p<0.01$); eyni zamanda bədən çəki indeksi artdıqca zaman göstərcilərindən ürək ritminin variabelliyinin cəmini göstərən SDNN – 0.27 dürüst olaraq az olmuşdur ($p<0,05$). Eyni zamanda digər zaman göstəricilərindən ürəyə simpatik təsiri xarakterizə edən iSDANN - 026, iSDNN - 0.28 və spektral göstəricilərdən aşağı tezlik diapazonu göstəricisi olan LF – 0.27 dürüstlüklə azalmışdır ($p<0,05$).

Cədvəl 1
Antropometrik göstəricilərin ürək ritminin variabelliyinin zaman sahəsi ilə korrelyasiyası göstəricisi

Göstəricilər	SDNN	iSDANN	iSDNN	rMSSD	pNN50, %
Yaş	-0.50***	-0.54***	-0.52***	-0.42***	-0.40***
BÇİ	-0.27*****	-0.26*****	-0.28*****	-0.18	-0.27*****

Qeyd: P – fərqin dürüstlük dərəcəsi,*** – $p<0.001$; ** – $p<0.01$; * – $p<0,05$ fərq dürüstdür

Cədvəl 2

Antropometrik göstəricilərin ürək ritminin variabelliyinin spektral sahəsi ilə korrelyasiyası

Göstəricilər	TP, ms^2	VLF, ms^2	LF, ms^2	HF, ms^2	LF/HF
Yaş	0.06	0.20	-0.42***	-0.41***	0.38**
BÇİ	0.02	0.11	-0.27*	-0.20	0.21

Qeyd: p – fərqin dürüstlük dərəcəsi, *** – p<0.001; ** – p<0.01; * – p<0,05 fərq dürüstdür

Parasimpatik göstəricilərlə korrelyasiya zamanı yaş artdıqca zaman göstəricilərindən olan RR intervalları arasındakı kvadratların orta cəminin kvadrat kökünü xarakterizə edən rMSSD - 0.42, müşayiət olunan intervalların faizi 50 ms aşanlar arasındakı fərqi göstərən pNN50 - 0.40, həmçinin spektral sahədən əsasən tənəffüs hərəkətləri ilə əlaqədar olan yüksək tezlikli diapazon göstəricisi HF - 0.41 (p<0.001) və BÇİ artdıqda ürəyə parasimpatik təsiri xarakterizə edən pNN50 - 0.27 dürüst olaraq dəyişmişdir (p<0,05). Bir çox dərc olunmuş məqalələrdə də sağlam və ürəyin işemik xəstəliyi olan şəxslərdə ürək ritminin variabelliyinin yaşdan asılı olaraq dəyişməsi, eyni zamanda yaşın artması ilə əlaqədar simpato – vaqal göstəricilərin azalması haqqında məlumatlar dərc olunmuşdur [9].

Cədvəl 3
Lipid və biokimyəvi göstəricilərin ürək ritminin variabelliyinin zaman sahəsi ilə korrelyasiyası

Göstəricilər	SDNN	iSDANN	iSDNN	rMSSD	pNN50, %
Şəkər	-0.29*	-0.23*	-0.30**	-0.31**	-0.31**
ÜX	-0.37**	-0.34**	-0.46***	-0.31**	-0.27*
TQ	-0.44***	-0.42***	-0.46***	-0.32**	-0.30*
YSLPX	0.49***	0.47***	0.51***	0.46***	0.41***
ASLPX	-0.34**	-0.33**	-0.41***	-0.27*	-0.23
ÇASLPX	-0.44***	-0.42***	-0.46***	-0.32**	-0.30*
Aİ	-0.50***	-0.46***	-0.59***	-0.47***	-0.42***
Kreatinin	-0.31**	-0.24*	-0.28*	-0.17	-0.13
Sidikcövhəri	-0.34**	-0.26*	-0.32**	-0.29*	-0.26*
Qalıqazot	-0.42***	-0.31**	-0.39***	-0.30*	-0.24*

Qeyd: p – fərqin dürüstlük dərəcəsi, *** – p<0.001; ** – p<0.01; * – p<0,05 fərq dürüstdür

Lipid və biokimyəvi göstəricələrə gəldikdə isə cədvəldən də göründüyü kimi şəkər artdıqca zaman sahəsindən ürək ritminin variabelliyini bütövlükdə xarakterizə edən SDNN - 0.29 dürüst olaraq azalmışdır (p<0,05). Həmçinin ürəyə simpatik təsiri xarakterizə edən iSDANN - 0.23 (p<0,05), iSDNN - 0.30, bundan başqa ürəyə parasimpatik təsiri xarakterizə edən MSSD -0.31 və pNN50 – 0.31 dürüstlüklə azalmışdır (p<0.01). ÜİX artdıqda isə zaman sahəsinin simpatik göstəricilərindən NN intervalının standart dəyişməsi olan SDNN – 0.37, normal intervalların orta göstəricilərinin standart dəyişməsi olan iSDANN - 0.23, iSDNN – 0.46 (p<0,001), parasimpatik göstəricilərindən isə rMSSD – 0.31 (p<0.01), müşayiət olunan intervalların faizi 50 ms aşanlar arasındakı fərqi xarakterizə edən pNN50 – 0.27 (p<0,05) dürüst olaraq azalmışdır. TQ artdıqda isə zaman göstəricilərindən NN intervalının standart dəyişməsi olan SDNN – 0.44 dürüst olaraq az olmuşdur (P<0.001).

Eyni zamanda normal intervalların orta göstəricilərinin standart dəyişməsi olan və ürəyə simpatik təsiri xarakterizə edən iSDANN – 0.42, iSDNN – 0.46 (p<0.001), parasimpatik təsiti xarakterizə edən rMSSD - 0.32 (p<0,01) və pNN50 – 0.30 dürüst olaraq azalmışdır (p<0,05). ASLPX artan zaman isə bütövlükdə variabelliyi xarakterizə edən SDNN - 0.34, digər simpatik aktivlik

göstəricilərindən iSDANN – 0.33 (p<0.01), iSDNN – 0.41 (p<0.001) və parasimpatik aktivlik göstəricilərindən olan rMSSD – 0.27 dürüstlüklə azalmışdır (p<0,05). ÇASLPX artdıqda zaman göstəricilərindən NN intervalının standart dəyişməsi olan SDNN -0.44, iSDANN -0.42, iSDNN - 0.46 (p<0.001), parasimpatik göstəricilərdən isə rMSSD - 0.32 (p<0.01), pNN50 - 0.30 (p<0,05) və eyni zamanda Aİ yüksələndə simpatik göstəricilərdən SDNN - 0.50, iSDANN - 0.46, iSDNN - 0.59, parasimpatiklərdən isə rMSSD - 0.47, pNN50 - 0.42 dürüst olaraq aşagı düşmüşdür (p<0.001).

Cədvəl 4
Biokimyəvi göstəricilərin ürək ritminin variabelliyinin spektral sahəsi ilə korrelyasiyası

Göstəricilər	TP, ms^2	VLF, ms^2	LF, ms^2	HF, ms^2	LF/HF
Şəkər	-0.01	0.08	-0.19	-0.27*	0.32**
Kreatinin	0.46***	0.50***	-0.22	-0.14	0.03
Sidikcövhəri	0.25*	0.30*	-0.18	-0.16	0,05
Qalıq azot	0.41***	0.49***	-0.28*	-0.24*	0.18

Qeyd: P – fərqin dürüstlük dərəcəsi, *** – P<0.001; ** – P<0.01; * – P<0,05 fərq dürüstdür

Digər lipid və biokimyəvi göstəricilərdən Kreat. artdıqda ürək ritminin variabelliyinin cəmini xarakterizə edən və ürəyə simpatik təsir göstərən SDNN - 0.31 (P<0.01), normal intervalların orta göstəricilərinin standart dəyişməsi olan iSDANN - 0.24, iSDNN - 0.28; SC yüksəldikdə SDNN - 0.34, iSDNN - 0.32, iSDANN, parasimpatik aktivlik göstəricilərindən olan pNN50 - 0.26, rMSSD - 0.29 (p<0,05) dürüst olaraq dəyişmişdir (p<0.01). QA da ÜRV-nin zaman göstəriciləri ilə korrelyasiyası dürüstlüklə mənfidir.

Cədvəl 5
Lipid spektrinin ürək ritminin variabelliyinin spektral sahəsi ilə korrelyasiyası

Göstəricilər	TP, ms^2	VLF, ms^2	LF, ms^2	HF, ms^2	LF/HF
ÜX	0.13	0.18	-0.21	-0.17	0.28*
TQ	0.15	0.25*	-0.32**	-0.31**	0.39***
YSLPX	-0.19	-0.29*	0.26*	0.27*	-0.44***
ASLPX	0.13	0.18	-0.19	-0.10	0.20
ÇASLPX	0.15	0.25*	-0.32**	-0.31**	0.39***
Aİ	0.20	0.30*	-0.30*	-0.28*	0.46***

Qeyd: p – fərqin dürüstlük dərəcəsi, *** – p<0.001; ** – p<0.01; * – p<0,05 fərq dürüstdür

Nəticə: Hipertoniya xəstəliyi, ürəyin işemik xəstəliyi və yanaşı olaraq 2 tip şəkərli diabeti olan xəstələrdə ürək ritminin variabellik göstəricilərinin həm arterial hipertoniyalı, həm də arterial hipertoniya və ürəyin işemik xəstəliyi olan pasiyentlərlə müqayisədə daha da pisləşməsi müşahidə edilmişdir. Arterial hipertoniya, ürəyin işemik xəstəliyi və yanaşı olaraq 2 tip şəkərli diabeti olan xəstələrdə ürək ritminin variabelliyinin cəminin (SDNN) yalnız arterial hipertoniyalı xəstələrlə müqayisədə 1.63 dəfə, arterial hipertoniya və ürəyin işemik xəstəliyi olan pasiyentlərlə müqayisədə isə 1.13 dəfə kiçilməsi müşahidə edilmişdir. Həmçinin arterial hipertoniya, ürəyin işemik xəstəliyi və yanaşı olaraq 2 tip şəkərli diabeti olan xəstələrdə simpatik-parasimpatik balansın arterial hipertoniyalı xəstələrlə müqayisədə 2.14 dəfə yüksəlməsi baş vermişdir.

ƏDƏBİYYAT

1. Xəlilov A.N. Miokard infarktı xronik ürək çatmamazlıgı olan xəstələrdə spironolaktonun istifadə edilməsinin əlavə üstünlükləri // Azərbaycan tibb jurnalı, 2009, №3, s.55-57.

2. İmaməliyev Q.M., Əzizov V.Ə. Arterial hipertenziya fonunda sol mədəciyin hipertrofiyasının klinik əhəmiyyəti, diaqnostikası və korreksiyası // Saglamlıq, 2006, №4, s.150-152.

3. Кахраманова С.М., Мамедли Н.М., Зульфигарова А.В., Насруллаев Н.С. Изучение особенностей изменения вариабельности сердечного ритма и эффективность лечения ß – адреноблокатором бисопрололом у больных с метаболическим синдромом. // Научных публикации аспирантов и докторантовm 2009, №10, с. 93-96.

4. Кузнецов В.А., Шебеко П.В., Енина Т.Н. и др. Влияние сердечной ресинхронизирующей терапии на вегетативную регуляцию сердечного ритма у больных с хронической сердечной недостаточностью // Российский кардиологический жур., 2014, №10

5. Алиева Т.Т. Сахарный диабет и сердечно – сосудистая патология в Азербайджанской Республике // Биомедицина, 2008, №3, с. 36-37

6. Абдуллаев Р.Ф., Исаева М.Ф., Влияние триметазидина на эктопическую активность миокарда у больных со стабильной стенокардией напряжения и феноменом ишемического прекондиционирования // Экспер. и клин. Медицина, 2009, № 4, с. 58-61.

7. Əzizov V.Ə. Azərbaycan populyasiyasında ürəyin işemik xəstəliyi fonunda fövqəladə təhlükə amillərinin xüsusiyyətləri // Saglamlıq jurnalı, 2008, №10, s. 97-101

8. Mustafaoglu F. Klinik kardiologiya. Bakı, 2001, s 54

9. 5. İsayev İ.İ., Fətəliyeva M.M., Mustafayeva A.İ. Ürək ritminin variabelliyi və onun uşaqlarda müxtəlif patologiyalarda öyrənilməsinin rolu // Saglamlıq 2009. №9, s.12-16.

Резюме

Корреляция антропометрических, эхокардиографических и биохимических показателей с временными и спектральными частями вариабельности сердечного ритма у больных артериальной гипертонией, ишемической болезнью сердца и сахарным диабетом

А.В. Мустафаева

Цель исследования - соотнести антропометрические, эхокардиографические и биохимические показатели с временными и спектральными полями вариабельности сердечного ритма у больных артериальной гипертонией, ишемической болезнью сердца и сахарным диабетом. В исследование включены 82 пациента (34 женщины и 48 мужчин, средний возраст 56,7±1,6 года). У больных артериальной гипертонией, ишемической болезнью сердца и сахарным диабетом 2 типа наблюдалось ухудшение показателей вариабельности сердечного ритма по сравнению как с больными артериальной гипертонией, так и с больными артериальной гипертензией и ишемической болезнью сердца.

Summary

Correlation of anthropometric, echocardiographic and biochemical parameters with time and spectral parts of heart rate variability in patients with arterial hypertension, ischemic heart disease and diabetes mellitus

A.V. Mustafayeva

The aim of the study is to correlate anthropometric, echocardiographic and biochemical parameters with time and spectral fields of heart rate variability in patients with arterial hypertension, ischemic heart disease and diabetes mellitus. The study included 82 patients (34 women and 48 men, average age 56,7±1,6 years). In patients with arterial hypertension, ischemic heart disease and type 2 diabetes mellitus, worsening of heart rate variability parameters was observed compared with both patients with arterial hypertension and patients with arterial hypertension and ischemic heart disease.

Daxil olub: 22.07.2024

UOT: 616.34-002-053

Vaxtından əvvəl doğulanlarda nekrotik enterokolit: diaqnostik və proqnostik prediktorlar

İ.İ. Hüseynova, R.O.Bəylərov
Azərbaycan Tibb Universiteti, I Uşaq xəstəlikləri kafedrası

Müəllifin elektron poçt ünvanı: dr.ilaha83@gmail.com

Açar sözlər: vaxtından əvvəl doğulanlar, nekrotik enterokoit, NIRS, klaudin-3, laktat
Ключевые слова: НЭК, недоношенные дети, NIRS, клаудин-3, лактат
Key words: NEC, preterm infants, NİRS, claudin-3, lactat

Son illərdə az və ekstremal az çəkili vaxtından əvvəl doğulanların sağqalma göstəriciləri artdığından nekrotik enterokolitin də rastgəlmə tezliyinin artması izlənməkdədir. Nekrotik enterokolit zamanı letallıq yüksək olması onun patogenezinin öyrənilməsinə səbəb olmuşdur. Müxtəlif müəlliflər tərəfindən sübut edilmişdir ki, bağırsaqda qan dövranının pozulması, infeksiya və süd qarışıqları ilə enteral yüklənmə xəstəliyin yaranması üçün əsas risk faktorları hesab edilir [1]. Ədəbiyyat məlumatlarına əsasən, nekrotik enterokolitin dəqiq müəyyən edilmiş yeganə səbəbi yoxdur, xəstəliyin inkişaf ehtimalını artırdığı ehtimal edilən 20-yə qədər risk faktoru vardır [2]. Vaxtından əvvəl doğulan uşaqlar yetişməmiş bağırsaq və tam formalaşmamış qastrointestinal müdafiyə mexanizmlərinə görə nekrotik enterokolitə daha meylli olurlar [3]. Bu zaman xəstəliyin əmələ gəlməsi üçün bağırsaqlarda şərait onun morfoloji yetkin olmaması və selikli qişa və onun altındakı qatlarda qanla zəif təchizat nəticəsində işemik sahələrin əmələ gəlməsidir [4]. Son illərin ədəbiyyat məlumatlarına əsasən müəyyən olunmuşdur ki, bağırsaq selikli qişasının yetişməzliyi və intestinal baryerin funksiyasının pozulması bakteriaların damar yatağına keçidinə səbəb olmaqla iltihabi kaskad reaksiyalarını oyadaraq selikli qişada iltihabi infiltrasiya törədir və nəticədə NEK-in inkişafına səbəb olduğu hesab edilir [5,6].

Xəstə uşaqların vəziyyəti saatlar içində ağırlaşa bildiyindən NEK ilə xəstə uşaqlarda nəticənin yaxşılaşdırılması məqsədilə yeni müalicə metodlarının və prediktiv biomarkerlərin tapılması vacibdir [7,8]. NEK-in mərkəzi xüsusiyyəti bağırsaq keçiriciliyinin artmasıdır ki, işemiya zamanı da keçiriciliyi təmin edən bağırsaq epitelində sıx əlaqə zülallarında dəyişikliklər baş verir [9]. Bu zülallardan Claudin 3 zülalının bağırsaq patologiyaları ilə əlaqəsini araşdıran klinik və eksperimental tədqiqatlar mövcuddur [9,10]. Bağırsaq işemiyasının erkən aşkarlanması lazımı tədbirlərin vaxtında görülməsilə yanaşı bağırsaq nekrozu və perforasiyasının qabağını ala və beləliklə xəstələnmə və ölüm faizini azalda bilər. Bağırsaq işemiyası və zədələnmələri zamanı meydana çıxan perfuziya pozulmalarının təyin edilməsində son illərdə yaxın infraqırmızı spektroskopiya- NİRS(near infrared spectroscopy) üsulundan istifadə edilir [11]. NİRS infraqırmizi işıq şüalarından istifadə etməklə regional toxuma oksigenasiyasının (rSO_2) ölçülməsinin qeyri invaziv metodudur [12].

Tədqiqatın məqsədi. Hal-hazırkı tədqiqat işinin məqsədi NEK-ə şübhə ilə NİTŞ-nə daxil olan vaxtından əvvəl doğulan uşaqlarda NİRS və sidikdə Claudin-3 zülalı və eyni zamanda digər rutin laborator göstəricilərə əsaslanan diaqnostik və proqnostik alqoritm hazırlamaqdan ibarət olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqat işi K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Respublika Perinatal Mərkəz,Baku Medical Özəl Tibb Müəssisəsi və 5 saylı Doğum evində aparılmısdır (2020-2023-cü illər). Tədqiqata vaxtından əvvəl doğulmuş 88 NEK-ə şübhə əlamətləri olan xəstə uşaq cəlb edilmişdir. Orta hestasiya yaşı - 31,03±2,68 həftə (mean±SD), median 31,50 həftə; (minimal 26həftə, maximal 36 həftə); orta çəki 1478,3±464.35 (mean±SD); median 1440,00; minimal 800q, maximal 2500q olmusdur. Yenidoğulanlar NEK diaqnozunun təsdiqinə görə 2 qrupa ayrılmışdır. Belə ki, 29 uşaqda NEK "+", 59 uşaqda isə NEK"-" olmuşdur.
45 uşaqda sidikdə klaudin-3 təyin edilmişdir. Onlar arasında 15 nəfərində NEK diaqnozu təsdiq edilmiş, 30 uşaqda isə NEK istisna olunmuşdur.

NEK diaqnozu klinik, laborator və instrumental göstəricilərə əsasən təsdiqlənmiş və NEK-in ilkin klinik əlamətləri olaraq qarında köp, gərginlik, qida mənimsənilməsinin pozulması, qusma, qaytarma (əsasən öd qarışıqlı), nəcisdə qan, apnoe və s. əlamətlər götürülmüşdür.

Tədqiqatdan çıxarılma kriteriyaları:

- anadangəlmə və xromosom anomaliyaları;
- ilk 3 həftə müddətində NEK-ə şübhəsi olmayan körpələr
- vaxtında doğulan körpələr
- hestasiya yaşına görə az çəkili körpələr.


Abdominal və serebral oksimetriyanın qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti yanında Grand layihəsi ilə əldə edilmiş oksimetrdə (Somanetics INVOS 5100C Covidien, Medtronic, USA, 2006) istifadə edilmişdir.

Splanxnik saturasiya pediatrik somasensor vasitəsilə göbəkaltı nahiyədən, serebral saturasiya isə frontoparietal nahiyədən ölçülmüşdür və eyni zamanda xəstəyə davamlı pulsoksimetriya tətbiq edilmişdir

Sidikdə İFA (immunoferment analiz) metodu ilə bağırsağın baryer funksiyasının pozulmasının öyrənilməsi məqsədilə klaudin-3 dəyərləri qeyri-invaziv təyin edilmişdir. Bütün xəstələrdə rutin olaraq qan qazlarının müayinəsi aparılmışdır.

Göstəricilərin statistik işlənməsi Windows SPSS20 sistemində həyata keçirilmiş və $p<0,05$ olması fərqin statistik dürüstlüyünü əks etdirmişdir. Eyni zamanda həssaslıq və spesifiklik göstəricilərinə əsasən binar klassifikasiyada (müsbət\mənfi nəticələr) ROC- analizi aparılmışdır.

Tədqiqatın nəticələri və onların müzakirəsi. 88 körpədə NİRS göstəricilərindən r_cSO_2 (Avg) və cFTOE qruplar arasında statistik dürüst fərqləndiyindən, bu göstəricilərin NEK-in inkişafı üçün ROC əyrisini aldıq. Bu zaman ROC əyri altında qalan sahə (AUC) göstəriciləri cFTOE üçün 0,639 ($p=0,035$) olmuşdur. cFTOE üçün kəsmə səviyyə isə 0,250; sensitivlik 72%, spesifiklik isə 49% olmuşdur. AUC nəticəsinin cFTOE-də daha yüksək olması bu göstəricinin daha yüksək proqnostik gücə malik olduğunu göstərir.



Klaudin səviyyəsi NEK təsdiq olunan uşaqlarda daha yüksək olmuş və statistik dürüst fərqlənmişdir ($p<0.05$). Qruplar arasında belə güclü statistik fərqin olması baxımından klaudin-3 zülalının NEK diaqnozunun təsdiq edilməsi üçün kəsmə səviyyəsini tapmağa çalışdıq.

Əyri altındakı sahənin nəticəsinin yüksək olması (AUC=0,769, p=0,004) klaudinin yüksək proqnostik əhəmiyyətə malik olduğunu göstərir. Biz sensitivlik və spesifiklik göstəricilərinə əsasən orta xəttdən ən uzaq məsafədə olan göstəricini tapmaqla diaqnostik kəsmə səviyyəsini (cut off level) təyin etdik. Klaudin-3 səviyyəsinin 31,5 ng/ml və yüksək olması 80 % sensitivliklə NEK diaqnozunu təsdiq etmişdir. Klaudin-3 səviyyəsinin 31,5 ng/ml-dan aşağı olması zamanı isə 70% spesifikliklə diaqnoz inkar edilə bilər.

Bizim tədqiqat işi zamanı NEK diaqnozu klinik təsdiq edilən VƏD uşaqlarda rentgenoloji olaraq NEK-in I mərhələsi 82,8% üstünlüklə daha çox rast gəlinmiş (NEK diaqnozu təsdiq olan 29 uşaqdan 24-də), 1halda II mərhələ (3,4%), 3 uşaqda isə (10,3%) NEK-in III mərhələsi rast gəlinmiş,bir uşaqda isə rentgenoloji dəyişiklik qeyd olunmamışdır ($x^2=36,7, p=0,001$).

NEK-ə şübhə olan uşaqlarda ilkin Lactat səviyyəsinə əsasən ölümü proqnoz etmək üçün ROC analizini apardıq və bunun əsasında kəsmə səviyyəsini hesabladıq. ROC əyrisi altında sahə 0,672, p=0,037; olmuşdur. Kəsmə səviyyəsi isə 3,45 təyin edilmişdir, həssaslıq 73%; spesifikik isə 59% təşkil etmişdir.

Bir sıra çalışmalarda splanxnik regional toxuma oksigen saturasiyası variabelliyinin də NEK diaqnozu zamanı diaqnostik və proqnostik əhəmiyyəti göstərilmişdir [13]. Biz də tədqiqatımızda 2 saat müddətində ölçmələr apararaq və hər 30 dəqiqədən bir orta göstəcini (Avg r_sSO_2) qeydə alaraq NİRS ölçməsini həyata keçirib variabelliyi öyrənməyə çalışdıq ($r_sCoVAR=SD/Mean$). Nekrotik enterokolit diaqnozu təsdiq olan vaxtından əvvəl doğulanlarda abdominal variabellik NEK təsdiq olmayanlarla müqayisədə aşağı olmuş və statistik dürüst fərq qeyd olunur (NEK"+" 0,102, NEK"-" 0,149; $p<0,05$). Bu, NEK təsdiq olan uşaqlarda bağırsaqda peristaltik hərəkətlərin azalması ilə izah oluna bilər. Zəifləmiş sistemli perfuziya intestinal funksiya və peristaltikanı zəiflədir ki, bu da potensial olaraq splanxnik variabelliyin aşağı olması ilə əlaqəlidir.

Tədqiqatın nəticələri əsasında vaxtından əvvəl doğulan uşaqlarda NEK-in erkən diaqnostikasını yaxşılaşdırmaq və bu xəstəliyin gedişini daha dəqiq proqnozlaşdırmaq üçün təcrübi əhəmiyyətli proqnostik alqoritm hazırlanmışdır.

İlk növbədə NEK şübhəsi olan xəstənin NİRS müayinə üsulu ilə qiymətləndirilməsi aparılır, cFTOE və r_sCoVAR dəyərlərinə baxılır. cFTOE ≥0,250 və r_sCoVAR < 0.102: NEK-in 72% həssaslıqla mövcudluğunu göstərir, cFTOE < 0,250 və r_sCoVAR ≥0.102 dəyərləri nekrotik enterokolitin olmadığını təsdiq edir. NİRS göstəricilərinə əsasən NEK mövcuddursa klaudin-3 dəyərlərinə baxılmalıdır: klaudin-3 ≥ 31.5nq/ml dəyərində 80% həssaslıqla NEK mövcuddur; klaudin-3 < 31.5nq/ml dəyəri isə NEK-in olmadığını göstərir, klaudin-3 ≥ 31.5nq/ml olduqda isə laktat səviyyəsinə baxılır. Laktat ≥ 3.45mmol/l dəyəri 73% həssaslıqla letallığı proqnoz edir; Laktat < 3.45mmol/l dəyəri qənaətbəxş nəticəni proqnozlaşdırır. Klaudin-3 < 31.5 nq/ml olduqda isə NİRS müayinəsi ilə kliniki əlamətlər azalanadək xəstəyə nəzarət davam etdirilir.

Tədqiqat nəticəsində xüsusilə, serebral FTOE-nin statistik dürüst fərqlənməsi baş beynin oksigen mənimsənilməsinin azalmasının, periferik zonalarda da perfuziyanın azalmasına təsir etdiyinə dəlalət edir və bu uşaqlarda splanxnik variabelliyin azalması bir daha bunu təsdiq edir. Laktat səviyyəsi isə hüceyrədə metabolik proseslərin ağırlığını əks etdirməklə hüceyrə ölümünün əsas göstəricisi kimi əhəmiyyət daşımışdır [14].

Yekun: Təqdim olunmuş alqoritm tədqiqatımızda müayinə etdiyimiz və NEK şübhəsi olan xəstələrin nəticələrinə əsaslanaraq hazırlanmış bir alqoritmdir, erkən müalicə və müdaxilələr ilə nekrotik enterokolit ilə əlaqəli letallıq və xəstələnməni azaltmağa kömək edəcək.

ƏDƏBİYYAT

1. Cuna A., George, V. Sampath Genetic predisposition to necrotizing enterocolitis in premature infants: current knowledge, challenges L., and future directions / A.Cuna, // Seminars in Fetal and Neonatal Medicine, 2018. 23(6), p.87-393.

2. Fox T.P., Godavitarne C. What really causes necrotising enterocolitis? // Journal detail: ISRN Gastroenterology, 2012, 628317, p.1-9.

3. Meister A.L., Doheny K.K., Travagli R.A. Necrotizing enterocolitis: It's not all in the gut // Experimental Biology and Medic.ine (Maywood). 2020. 245(2), p. 85-95.

4. Tağıyev, N.Ə. Neonatologiya. Dərslik. Bakı, 2007, 535 s.
5. Hodzic Z., Bolock A.M., Good M. The Role of Mucosal Immunity in the Pathogenesis of Necrotizing Enterocolitis // Frontiers Pediatrics, 2017. 5 (40), p.1-17.
6. Staryszak J., Stopa J., Kucharska-MiasikI. et al. Usefullness of ultrasound examinations in the diagnostics of necrotizing enterocolitis / J. Staryszak, // Polish Journal of Radiology, 2015. 80, p.1-9.
7. Cho S.X., Rudloff I., Lao J.C. et al. Characterization of the pathoimmunology of necrotizing enterocolitis reveals novel therapeutic opportunities // Nat Commun., 2020. 11(1), p. 5794.
8. Deianova N., El Manouni El Hassani S., Struijs E.A. et al. Fecal amine metabolite analysis before onset of severe necrotizing enterocolitis in preterm infants: a prospective case–control study // Sci Rep., 2020, 12, 12310
9. Griffiths, V., Al Assaf, N. & Khan, R. Review of claudin proteins as potential biomarkers for necrotizing enterocolitis // Ir J Med Sci., 2021, 190, p.1465-1472
10. Vermette D., Hu P., Canarie M.F. [et al.] Tight junction structure, function, and assessment in the critically ill: a systematic review // Intensive Care Medicine Experimental, 2018. 6 (1), p.1-18.
11. Mishra V., Mathur A.A., Mohamed S. et al. Role of Near-infrared Spectroscopy in the Diagnosis and Assessment of Necrotizing Enterocolitis // Newborn (Clarksville), 2022, 1(1), p.177-181.
12. Gan Y., Ying J., Qiu X. et al. Value of near-infrared spectroscopy in evaluating the risk of neonatal necrotizing enterocolitis: A systematic review and meta-analysis // Early Human Development, 2024, 195, August 2024, 106083.
13. Van der Heide M., Hulscher J. B. F., Bos A.F. Near-infrared spectroscopy as a diagnostic tool for necrotizing enterocolitis in preterm infants // Pediatric research, 2021, 90(1), p.148-155.
14. Wang Y., Lai L., Zhang Q. et al. Lactate acid level and prognosis of neonatal necrotizing enterocolitis: a retrospective cohort study based on pediatric-specific critical care database // J Pediatr, 2023, 99, p. 278-283.

Резюме

Некротический энтероколит у недоношенных детей:
диагностические и прогностические предикторы
И.И. Гусейнова, Р.О. Байларов

С целью создания диагностического и прогностического алгоритма некротического энтероколита у недоношенных детей, в наше исследование было включено 88 недоношенных детей с подозрением на НЭК. Всем детям были проведены церебральная и спланхническая оксиметрия с помощью метода близкой к инфракрасной спектроскопии (NİRS). У 45 детей было определено содержание клаудина-3 в моче методом ИФА. Также у этих детей изучались уровни лактата для прогноза летальности. Анализ полученных результатов показал, что модель, являясь алгоритмом для прогнозирования и наблюдения больных с НЭК, помогает в ранней диагностике, своевременном лечении, а также прогнозировании заболевания, что способствует уменьшению смертности.

Summary

Necrotizing enterocolitis in preterm infants:
diagnostic and prognostic predictors
I.I. Huseynova, R.O.Baylarov

In order to create a diagnostic and prognostic algorithm for the necrotizing enterocolitis in preterm infants, 88 preterm infants with suspected of NEC were included in our study. All children underwent cerebral and splanchnic oximetry using the method of near infrared spectroscopy (NIRS). The content of claudine-3 in urine was determined in 45 children by the ELISA method. Lactate levels were also studied in these children for predicting of mortality. The analysis of the results showed that the model, being an algorithm for predicting and monitoring patients with NEC, improves early diagnosis, timely treatment, as well as disease prediction, which helps to reduce mortality.

Daxil olub: 17.06.2024

UOT: 616-07.155

Xroniki mieloid leykoz: BCR/ABL1 Füzyon Gen Sayı Mutasiyalarının və 8-ci xromosomun hiperdiploidiyasinin xəstəliyin patogenezinə və imatinib müalicəsinə qarşı yaranan rezistentliyə təsiri

A.B.Həsənova
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Bakı

Müəllifin elektron poçt ünvanı: ayparahasanova@gmail.com

Açar sözlər: xroniki mieloid leykoz, mutasiya, imatinib, rezistentlik, delesiya, hiperdiploidiya, füzyon, amplifikasiya
Ключевые слова: хронический миелолейкоз, мутация, иматиниб, резистентность, делеция, гипердиплоидия, слияние, амплификация
Key words: chronic myeloid leukemia, mutation, imatinib, resistance, deletion, hyperdiploidy, fusion, amplification

Xroniki mieloid leykoz (XML) polipotent kök hüceyrəsində baş verən mutasiya nəticəsində yaranan klonal mieloproliferativ xəstəlikdir. Xəstəlik ilk dəfə splenomeqaliya, anemiya və qranulositlərin sayının kəskin artması kimi təsvir edilmişdir [1]. Xarakterik olaraq XML bifazalı və ya trifazalı olaraq çox xəstədə xroniki fazda müəyyən edilir. Bu faza 3-6 il davam edə bilər və müalicə olunmasza xəstəlik proqressivləşərək akselerasiya (AF) və ya blast krizi (BK) fazasına qədər inkişaf edir. Ph-xromosom XML hüceyrələrində aşkar edilən qazanılmış sitogenetik anomaliyadır və mübahisəsiz olaraq xronik faza XML-in patogenezində aparıcı rola sahibdir [2]. Filadelfiya (Ph-xromosom) xromosomu 9-cu və 22-ci xromosomların uzun qolları arasında baş verən qarşılıqlı t (9;22) (q34;q11) translokasiyası nəticəsində əmələ gəlir və beləliklə, BCR (breakpoint cluster region) və ABL1 (Abelson) genlərinin yan-yana gəlməsinə səbəb olur [3, 4]. BCR/ABL1 zülalı hüceyrə siqnal yollarının aberrant aktivləşməsinə və leykozun inkişafı üçün optimal olan mikro mühitə keçmək üçün yol açır [5].

BCR/ABL ximer zülalının xəstəliyin patogenezinin və proqressivləşməsinin əsas səbəbi olması fikri qəbul edildikdən sonra 1990-cı illərin sonlarında XML-in terapiyasında inqilab yaradan, ABL və digər tirozinkinazaları inhibisiya edən tirozinkinaza inhibitorunun (TKI) sintezi həyata keçirildi [6,7]. Müəyyən edildi ki, imatinib (İM) tirozinkinaza fermentini spesifik inhibisiya edir və onun aktivliyinin qarısını alır [8]. BCR/ABL1 TKI-lərə verilən yüksək cavab səviyyələrinə baxmayaraq, bəzən pasiyentlərdə birincili və ikincili rezistentlik müşahidə edilir: birincili (həqiqi) rezistentlik ilkin cavabın olmaması, ikincili (qazanılmış) rezistentlik (residiv) TKI müalicəsi zamanı müəyyən edilmiş cavabın itirilməsi kimi müəyyən edilir [9, 10]. Bu tədqiqatda rezistentlik, European Leukemia Net (ELN) tərəfindən birinci xətt TKI terapiyasının uğursuzluğu meyarlarından istifadə edilməklə müəyyən edilmişdir [11]. XML-in müalicəsində İM-in qeyri-adi uğuruna baxmayaraq, pasiyentlərin 40%-ə qədərində bu dərmana qarşı dözümsüzlük və ya rezistentlik müşahidə olunur [12].

XML pasiyentərində BCR/ABL1 ilə yanaşı, digər mutasiyaların meydana çıxması xəstəliyin proqressivləşməsi ilə bağlı olan klonal təkamülə gətirib çıxarır. Bu səbəblə, digər mutasiyaların nəticələrinin dəyərləndirilməsi XML pasyentlərində xəstəliyin proqnozlaşdırılması baxımından böyük əhəmiyyətə malikdir.

Tədqiqatın məqsədi XML pasiyentlərdə 8-ci xromosomun hiperdiploidiyasının və BCR/ABL1 füzyon geninin amplifikasiyasının İM müalicəsinə pis cavabın əldə edilməsində və xəstəliyin proqressivləşməsindəki rolunu müəyyən etməkdir.

Tədqiqatın material və metodları. Bu tədqiqat işində Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstiutunun klinik şöbəsində 2015-cü ilin yanvarından 2019-cı ilin dekabr ayına qədər

müalicə olunan 141 XML pasiyent retrospektiv təhlil edilmişdir. Pasiyentlər, 93-ü İM müalicəsinə rezistent olan, 48-i isə İM müalicəsinə yaxşı cavab verən olmaqla 2 qrupa bölünmüşdür. Xəstəliyin fazaları ELN tövsiyələrinə uyğun müəyyən edilmişdir [11]. Pasiyentlərin klinik məlumatları ilə aşkar edilən mutasiyalar arasındakı əlaqə təhlil edilmişdir. Tədqiqata cəlb edilmiş bütün pasiyentlərin razılığı alınmışdır.

Flüorisensiyalı in situ hibridizasiya (FISH) metodu. FISH analizi metafaza xromosomlarında və ya qısa müddətli kultivasiya ilə əldə edilən interfaza nüvələrində BCR/ABL(ABL1) Plus Translocation, Dual Fusion (Cytocell, UK) və Satellite Enumeration Probes (Cytocell, UK) DNT zondları tətbiq edilməklə aparılmışdır. Preparatların tədqiqi İmacer A2 mikroskopu (Carl Zeiss), Isis proqramı (Metasystems) və DAPI/TexasRed/FITC filtrləri vasitəsi ilə həyata keçirilmişdir.

Statistik analiz. İki kateqoriyalı dəyişkən qrup arasındakı əlaqəni qiymətləndirmək üçün $\chi 2$ testindən istifadə edilmişdir. $P<0.05$, statistik əhəmiyyətli fərqi ifadə etmək üçün qəbul edilmişdir.

Cədvəl 1
Diaqnoz zamanı tədqiqata daxil edilən XML xəstələrin klinik, hematoloji və epidemioloji xüsusiyyətləri

Variabel	N (141)	İM Rezistent (n=93)	İM yaxşı cavab (n=48)	P-value ($\chi 2$)
Cins: Kişi	62	44	18	<0.2660[a]
Qadın	79	49	30	$\chi 2$=1.2372
Yaş, illər: Orta, 45 (aralıq, 17-79)	141	45 (17-79)	48 (20-78)	0.8364
≤49	81	54	27	$\chi 2$= 0.0426
≥50	60	39	21	
Diaqnoz zamanı xəstəliyin fazası: XF	104	60	44	
AF	34	31	3	0.0016
BK	3	2	1	$\chi 2$=12.79
Risk qrupu: Aşağı	48	32	16	
Orta	66	45	21	0.706
Yüksək	27	16	11	$\chi 2$=0,695
Dalaq: Normal	18	12	6	
Orta (8 sm qədər)	91	62	29	0.6659
Massiv (>8 sm)	32	19	13	$\chi 2$= 0.8132
HB: Normal (120-160 g/l)	14	9	5	
Yüngül anemiya (100-119 g/l)	44	28	16	0.9747
Orta anemiya (80-99 g/l)	59	40	19	$\chi 2$= 0.2173
Ağır anemiya (65-79 g/l)	24	16	8	
WBC: Normal 3.9-9 (10^9/l)	2	0	2	
Leykopeniya <3.9 (10^9/l)	0	0	0	0,2028
Leykositoz >9 (10^9/l)	139	93	46	$\chi 2$= 3.1901
PLT: Normal 180-400 (10^9/l)	84	57	27	
Trombositopeniya <180 (10^9/l)	10	7	3	0.7457
Trombositoz >400 (10^9/l)	47	29	18	$\chi 2$= 0.5868
Blast hüceyrə (periferik qan): 0	72	35	37	
1-10	65	55	10	0.00004
>10	4	3	1	$\chi 2$=19.87

Qeyd: [a]P <0.05. XR, xroniki faza; AF, akselerasiya fazası; BK, blast krizi; HB, hemoglobin; WBC, ağ qan hüceyrəsi; PLT, trombosit

Nəticə. *Pasiyentlərin xarakteristikası.* Bu tədqiqatda, 141 XML pasiyent təhlil edilərək klinik, hematoloji və epidemioloji xüsusiyyətləri ümumiləşdirilmişdir (Cədvəl 1). Pasiyentlər İM müalicəsinə yaxşı cavab verən və İM müalicəsinə rezistent omaqla iki qrupa ayrılmışdır. Tədqiqat qrupundakı XML pasiyentlərin 62-si kişi, 79-u isə qadın olmuşdur. Pasiyentlərin yaşı 81 nəfərdə ≤49 və ondan daha aşağı, 60 nəfərdə isə ≥50 və daha yuxarı olmuşdur. Orta yaş həddi isə 45-dir. Xəstəliyin fazası və blast hüceyrələrinin sayı istisna olmaqla, iki qrup arasında klinik xüsusiyyətlərdə heç bir fərq müşahidə edilməmişdir.

Mutasiyanın təhlili. Cədvəl 2-də aşkar edilən mutasiyaların rast gəlinmə tezliyi və onların xəstəliyin ilkin fazaları üzrə paylanması verilmişdir. Cədvəldən göründüyü kimi, IM müalicəsinə yaxşı və pis cavab verən 141 pasiyentin 92-də (65,3%) heç bir mutasiya aşkar edilmədi, 49 (34,7%) pasiyentdə isə ən azı bir mutasiyanın oması müəyyən edildi. Ümumi olaraq 49 pasiyentdə 61 (43,2%) mutasiya aşkar edildi. Aşkar edilən mutasiyalar içərisində 8-ci xromosomun hiperdiploidiyası 33 (23,4%), BCR/ABL1 füzyon geni sayındakı mutasiyalar isə (1F, 2F) 39 (27,6%) pasiyentdə müəyyən edilmişdir.

Cədvəl 2
Müəyyən edilmiş mutasiyaların tezliyi və fazalara əsasən paylanması

Aşkar edilən mutasiyalar	XF	AF	BK	Cəmi (%)
8-ci xromosomun Hiperdiploidiyası	23 (16,3%)	7 (4,9%)	3 (2,1%)	33 (23,4%)
BCR/ABL1 füzyon sayı	11 (28,2%)	25 (64,2%)	3 (7,6%)	39 (27,6%)
Ümumi:	39 (49,4%)	33 (41,8%)	7 (8,8%)	79 (56,2%)
Pasiyentlərin Cəmi*	104 (73,8%)	34 (24,1%)	3 (2,1%)	141 (100%)

* İM müalicəsinə rezistent və yaxşı cavab verən xəstələrin ümümi sayı


Cədvəl 3
Təhlil edilmiş mutasiyaların xarakteristikası

Variabel	**N (141)**	**İM Rezistent (n=93)**	**İM yaxşı cavab (n=48)**	**P-value (χ2)**
8-ci xromosom. Hiperdiploidiyası: Normal	108	62	46	0.0001 Chi=15.02
Hiperdiploidiya	33	31	2	
Füzyon: 1F	79	68	11	
2F	58	22	36	0.00001
3F	4	3	1	χ2=33.60

Qeyd: [a]P <0.05. İM, Imatinib

Müzakirə. Aparılan tədqiqatda mutasiya analizi aparılan 141 XML pasiyentinin məlumatları təhlil edilmişdir. Ümumilikdə mutasiya analizi aparılan 104 (73,8%) pasiyentdə XF, 34 (24,1%) pasiyentdə AF-sı, 3 (2,1) pasiyentdə isə BK-i fazası müəyyən edilmişdir. Mutasiyaların 44-ü (31,2%) XF, 12 (8,5%) AF-sında, 5 (3,5%) isə BK fazasında olan pasiyentlərdə aşkar edilmişdir. Beləliklə mutasiya çıxan 49 (34,7%) pasiyentdə 61 (43,2%) mutasiya müəyyən edildi. Tədqiq edilən 141 pasiyent ilkin XML diaqnozu qoyulan zaman kliniki götəricilərinə görə aşağı, orta və yüksək risk qruplarına bölündü. Risk qrupları ilə tədqiq edilən 2 mutasiya arasında əlaqə müəyyən edilmədi. Eyni zamanda, diaqnoz qoyulan zaman ilkin HB, WBC, PLT və dalağın ölçüləri ilə mutasiyalar arasında əlaqə müəyyən edilmədi. Lakin, ilkin blast hüceyrə sayı ilə IM müalicəsinə rezistentlik arasında yüksək assosiasiyanın olması müəyyən edildi (p=0.00004). Aparılan bu tədqiqat işində həmçinin, xəstəliyin fazası ilə IM müalicəsinə rezistentlik arasında korellyasiyanın olduğu müəyyən edildi (p=0.0016).

8-ci xromosomun hiperdiploidiyası tədqiq edilən pasiyentlərin 33-də aşkar edildi: 31 mutasiya IM müalicəsinə cavab verməyən, 2 mutasiya isə IM müalicəsinə cavab verən pasiyentlərdə (Şəkil 1.b). Aparılan bu tədqiqatda 8-ci xromosomun hiperdiploidiyası ilə IM müalicəsinə rezistentlik arasında yüksək korrelyasiyanın olduğunu müəyyən edildi (p=0.0001). Həmçinin tədqiqatda XML pasiyentlərin füzyon siqnallarının sayı tədqiq edilmişdir. Nəticədə, pasiyentlərin 79-da bir füzyon, 58-də iki füzyon, 4-də isə üç və daha çox füzyon (3 pasiyentdə 3 füzyon, 1 pasiyentdə 3,4 füzyon) aşkar edilmişdir (Şəkil 1.a).



Şəkil 1. (a) 3 BCR/ABL füzyon geninin FISH metodu ilə aşkarlanması (1R1G3F), (b) 8-ci xromosomun trisomiyasının (+8) FISH metodu ilə aşkarlanması (3G) (Şəkillər müəllifə məxsusdur)

IM müalicəsinə rezistent olan 93 pasiyentin 68-də, yaxşı cavab verən 48 pasiyentin isə 11-də bir füzyon siqnalı müəyyən edildi. BCR/ABL1 geninin amplifikasiyasının üçü IM müalicəsinə pis cavab verən, biri isə IM müalicəsinə yaxşı cavab verən qrupda müəyyən edilmişdir. Bu tədqiqat işində, füzyonların sayı ilə IM müalicəsinə pis cavab verən qrup arasında yüksək korrelyasiyanın olduğu müəyyən edildi (p=0.00001) (Cədvəl 3). Aparılan tədqiqatın nəticələrinə əsasən, füzyon siqnal sayının az və ya çox olmasının IM müalicəsinə qarşı rezistentliyin yaranmasına və xəstəliyin proqressivləşməsinə gətirib çıxartdığını söyləyə bilərik. Diaqnoz zamanı və TKI müalicəsi alan pasiyentlərdə əlavə xromosom anomaliyalarının (ƏXA) yaranması müalicənin uğursuzluğu və ya xəstəliyin proqressivləşəcəyinin xəbərçisi ola biləcəyi düşünülür [13]. Yuxarıda qeyd edildiyi kimi, XML xəstələrində əlavə 8-ci xromosomun trisomiyası və ikinci Ph-xromosomu (t(9;22)(q34;q11)x2) kimi mutasiyalar əsas xromosom anomaliyaları qrupuna daxildir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təsnifatına əsasən, ƏXA-nın olması xəstəliyinin proqressivləşməsinin birbaşa meyarı hesab edilmir, lakin IM müalicəsi zamanı ƏXA-nın yaranması müalicənin uğursuzluğu hesab edilir [14]. Bununla belə, ELN ƏXA-nın olması zamanı pasiyentin yaxından izlənilməsini tələb edən xəbərdarlıq və pis proqnoz faktoru kimi qəbul edilməsini təklif edir [11].

Son olaraq apardığım tədqiqatın nəticələrinə əsasən onu qeyd etmək istərdim ki, IM müalicəsinə yaxşı cavab verməyən pasiyentlərdə BCR/ABL1 translokasiyası və ABL kinaz domeni mutasiyaları ilə yanaşı yanaşı əlavə anomaliyalarının FISH və ya standart sitogenetik medodlarla müəyyən edilməsi XML-in molekulyar mexanizmini daha yaxşı anlamağa kömək edir [15]. Bu məlumatlar, XML pasiyentlərdə xəstəliyin gedişatının proqnozlaşdırılmasında, daha təsirli yeni nəsil TKI-lərin seçilməsində və ya sümük iliyi transplantasiyası kimi vacib qərarların verilməsində klinik cəhətdən faydalı olacaqdır.

ƏDƏBİYYAT

1. Bennett J. Case of hypertrophy of the spleen and liver in which death took place from suppuration of the blood // Edinb. Med. Surg. J, 1845, 64, p.413-423.

2. Mughal T.I., Goldman J.M. Chronic myeloid leukemia: STI 571 magnifies the therapeutic dilemma // Eur J Cancer, 2001, 37, p.561-68.

3. Score J., Calasanz M.J., Ottman O. et al. Analysis of genomic breakpoints in p190 and p210 BCR-ABL indicate distinct mechanisms of formation // Leukemia, 2010, 24(10), p.1742-50.

4. Melo J.V. The diversity of BCR-ABL fusion proteins and their relationship to leukemia phenotype. Blood. 1996;88(7):2375–84.

5. Quintás-Cardama A., Cortes J. Molecular biology of bcr-abl1–positive chronic myeloid leukemia // Blood, 2009, 113(8), p.1619-30.

6. Kantarjian H.M., Smith T.L., O'Brien S. Prolonged survival in chronic myelogenous leukemia after cytogenetic response to interferon-alpha therapy. The leukemia service // Ann. Intern. Med., 1995, p.254-261.

7. Druker B.J. Translation of Philadelphia chromosome into therapy for CML // Blood, 2008, 112, p.4808-4817

8. Druker B.J., Tamura,S., Buchdunger E. et al. 1996. Effects of a selective inhibitor of the ABL tyrosine kinase on the growth of BCR-ABL positive cells // Nat. Med., 1996, 2, p.561-566.

9. Hochhaus A. Chronic myelogenous leukemia (CML): resistance to tyrosine kinase inhibitors // Ann Oncol., 2006, 17(Suppl. 10), p.274-9.

10. Asadov C., Karimova N., Hasanova A. et al. Association of CYP3A5* 3, CYP3A4* 18 & CYP2B6* 6 polymorphisms with imatinib treatment outcome in Azerbaijani chronic myeloid leukaemia patients // Indian J Med Res., 2023, 158, p 1-1010.

11. Baccarani M., Deininger M.W., Rosti G. et al. European LeukemiaNet recommendations for the management of chronic myeloid leukemia: 2013 // Blood. 2013, 122(6), p. 872-84.

12. Hughes T., Saglio G., Branford S. et al. Impact of baseline BCR-ABL mutations on response to nilotinib in patients with chronic myeloid leukemia in chronic phase // J Clin Oncol. 2009, 27(25), 4204-4210.

13. Melo J.V., Barnes D.J. Chronic myeloid leukaemia as a model of disease evolution in human cancer // Nat. Rev. Cancer, 2007, 7 (6), p.441-453.

14. Cortes J.E., Talpaz M., O'Brien S. et al. Staging of chronic myeloid leukemia in the imatinib era: an evaluation of the World Health Organization proposal // Cancer, 2006, 106, p.1306-1315.

15. Hasanova A., Asadov C., Karimova N. et al. Spectrum of BCR-ABL mutations in Azerbaijanian imatinib-resistant patients with chronic myeloid leukemia // Pathology & Oncology Research, 2023, 22

Резюме

Хронический миелолейкоз: влияние мутаций числа слитых генов BCR/ABL1 и гипердиплоидии хромосомы 8 на патогенез заболевания и возникающую резистентность к лечению иматинибом

А.Б.Гасанова

Наличие дополнительных генетических мутаций наряду со слитым геном BCR/ABL1 у пациентов с хроническим миелолейкозом (ХМЛ) предполагает клональную эволюцию, связанную с прогрессированием заболевания. Целью данного исследования является определение роли гипердиплоидии хромосомы 8 и амплификации слитого гена BCR/ABL1 в плохом ответе на лечение иматинибом (ИМ) и прогрессировании заболевания у пациентов с ХМЛ. Анализы были выполнены у 141 пациента с XML. Пациенты были разделены на две группы: с плохим ответом на лечение ИМ (93 пациента) и с хорошим ответом на лечение ИМ (48). Тест $\chi 2$ использовался для оценки связи категориальных переменных между группами с плохим ответом на лечение ИМ и хорошим ответом на лечение ИМ. Оценка последствий мутаций может иметь большое значение для определения прогноза у больных ХМЛ, а также выбора подходящего лечения.

Summary

Chronic Myeloid Leukemia: Impact of BCR/ABL1 Fusion Gene Number Mutations and Chromosome 8 Hyperdiploidy on Disease Pathogenesis and Emerging Resistance to Imatinib Treatment

A.B.Hasanova

The presence of additional genetic mutations along with the BCR/ABL1 fusion gene in patients with CML suggests clonal evolution associated with disease progression. The aim of this study was to determine the role of chromosome 8 hyperdiploidy and BCR/ABL1 fusion gene amplification in poor response to imatinib (IM) treatment and disease progression in patients with CML. Analyses were performed in 141 patients with XML. Patients were divided into two groups: with a poor response to IM treatment (93) and with a good response to IM treatment (48). The $\chi 2$ test was used to evaluate the association of categorical variables between the groups with poor response to IM treatment and good response to IM treatment. Assessing the effects of mutations may be of great importance in determining the prognosis of CML patients, as well as choosing the appropriate treatment.

Daxil olub: 14.07.2024

УДК: 616.13

Взаимосвязь между остеопорозом и хроническим генерализованным пародонтитом у пациентов с хронической болезнью почек

Ш.Р. Юсубова
Азербайджанский медицинский университет,
кафедра терапевтической стоматологии, г.Баку

Адрес электронной почты автора: kombc@mail.ru

Açar sözlər: böyrəklərin xronik xəstəliyi, paradontit, osteporoz
Ключевые слова: хроническая болезнь почек, пародонтит, остеопороз
Key words: chronic kidney disease, periodontitit, osteoporosis

Хронический генерализованный пародонтит продолжает оставаться одной из самых сложных и нерешенных задач стоматологической практики. Его широкая распространенность и высокая степень поражения придают этой проблеме значимость не только с медицинской, но и с социальной точки зрения [1,2].

В ежедневной практике стоматолога часто встречаются пациенты с хроническим генерализованным пародонтитом с тяжелыми соматическими заболеваниями. Сегодня хронические соматические заболевания составляют около 7% общих заболеваний среди людей трудоспособного возраста. Хроническая болезнь почек (ХБП), наиболее распространённая среди этих заболеваний [3]. ХБП характеризуется сложной клинической симптоматикой и может вызывать поражение различных органов и систем. Таким образом, ХБП является основной социально-экономической проблемой здравоохранения по всему миру [4].

В последние годы в связи с приобретением массового характера заместительной терапии почек (гемодиализ и трансплантация почек) и увеличением ХБП в общей мировой популяции хроническая болезнь почек стала серьезной проблемой здоровья. В результате количество пациентов с ХБП в стоматологической практике возросло по сравнению с предыдущими годами [5, 6, 7]. Актуальность этой проблемы подтверждают литературные данные о возникновении септических осложнений в результате влияния хронической одонтогенной инфекции на хроническую почечную недостаточность [8].

На глобальном уровне у 8724 из 100000 человек диагностирована ХБП, и эти цифры продолжают расти, указывая на тревожную тенденцию в общественном здравоохранении [4]. Прогнозируется, что к 2040 году ХБП станет пятой по распространенности причиной смерти в мире, что подчеркивает необходимость повышения осведомленности и улучшения профилактических мер [9]. Сахарный диабет занимает лидирующие позиции среди причин развития почечной патологии, за ним следуют гипертоническая болезнь и гломерулонефрит. Однако независимо от первичной нефропатии, после утраты определенного количества здоровых нефронов хроническая почечная недостаточность прогрессирует до терминальной стадии, что сопровождается высокой заболеваемостью и смертностью [10]. Поскольку традиционные факторы риска не полностью предсказывают прогноз ХБП, изучение нетрадиционных факторов риска стало одной из основных областей исследований в настоящее время [11]. По этой причине исследования также фокусируются на нетрадиционных факторах риска, таких как системное воспаление или окислительный (оксидативный) стресс, на которые может повлиять пародонтит [12].

С точки зрения эпидемиологии при анализе распространенности пародонтита у пациентов с ХБП оказывается, что воспаление пародонта у этих больных в преддиализном периоде выше, чем у общей популяции и это нашло отражение в ряде когортных исследований [13,14,15]. Однако этническая принадлежность также может играть роль в выявлении различий в этих показателях [16].

ХБП и методы заместительной почечной терапии оказывают воздействия на ткани полости рта и эта проблема становится все более актуальной. Проведенные исследования показывают, что у пациентов с терминальной стадией ХБП увеличивается частота заболеваний пародонта, а также существует взаимная и тесная связь между ХБП и заболеваниями пародонта [5,17,18]. По мере прогрессирования ХБП распространенность пародонтита увеличивается, что более выражено на поздних стадиях [19, 20, 21, 22]. Пародонтит встречается более чем у 50% пациентов на диализе, а, по некоторым сведениям, у больных на гемодиализе (ГД) и перитонеальном диализе (ПД) почти у 100% [23,24,25,26].

Известно, что в общей популяции пародонтит увеличивает атеросклеротические осложнения, вызывая системное воспаление [27]. Также было указано, что лечение пародонтита и снижение системного воспаления уменьшает повреждение эндотелия как раннего признака атеросклероза [28,29]. Хронический пародонтит является источником инфекции и системного воспаления у пациентов с ХБП. Наличие этого фактора позволяет предположить, что одним из основных условий является лечение соматических заболеваний наряду с лечением пародонта.

В проведенных исследованиях была установлена связь между хронической болезнью почек (ХБП) и пародонтитом, что подтверждается показателями отношения шансов (ШН), которые варьировались от 1,39 (1,03–1,89) (Han et al., 2013) до 4,0 (2,7–5,9) (Sharma et al., 2014) [30, 31]. Рассматривая типы исследований, во всех когортных исследованиях (Grubbs et al., 2016; Iwasaki et al., 2012) была выявлена связь между ХБП и пародонтитом. Однако в исследованиях с раздельными группами (Messier et al., 2012) и с контрольной группой (Brotto et al., 2011) связь между этими двумя заболеваниями не была найдена [32, 33, 34, 35].

Минеральные нарушения костей во время ХБП остаются очень серьезной проблемой. Таким образом, риск переломов у пациентов с ХБП выше, чем в общей популяции, а частота переломов увеличивается по мере прогрессирования ХБП. Частота переломов бедра больных с ХБП в 2–4 раза выше, чем у лиц соответствующего возраста и пола, не имеющих ХБП. Более того, у пациентов этой группы переломы бедра возникают в более молодом возрасте, что увеличивает время пребывания в стационаре и риск смерти по сравнению с лицами со здоровыми почками [36,37]. Распространенность хронической болезни почек (ХБП) в мире превышает 10%, и с возрастом частота ее возникновения резко возрастает (> 28% среди людей старше 70-80 лет) [38,39]. Остеопороз также часто встречается у людей старше 50 лет, поэтому наличие этих двух состояний одновременно является вполне ожидаемым. Более того, оба этих фактора становятся все более значимыми проблемами здравоохранения для пожилого населения [37].

Остеопороз – распространенное системное заболевание скелета, характеризующееся снижением костной массы и нарушением микроархитектуры костной ткани, что приводит к повышенной ломкости костей и риску переломов.

Для пародонтологов задача выбора эффективного лечения генерализованного пародонтита при остеопорозе действительно актуальна. Остеопороз может осложнить лечение, так как он влияет на состояние костной ткани, в том числе и на челюстные кости. В структуре пародонтальных тканей альвеолярная кость играет ключевую роль, и ей уделяется особое внимание. При генерализованном пародонтите происходит утрата костной ткани, и основной задачей пародонтолога является замедление этого процесса для предотвращения потери зубов.

В настоящее время можно с уверенностью утверждать, что снижение минерализации скелета приводит к ухудшению состояния пародонта. Однако в литературе недостаточно информации о взаимосвязи между выраженностью остеопороза, степенью поражения пародонта и состоянием пациентов с ХБП. Эти аспекты требуют дальнейшего изучения, чтобы лучше понять их взаимосвязь и влияние на здоровье пациентов с ХБП.

Исследования показывают, что при заболеваниях пародонта первичное поражение происходит в альвеолярном отростке челюстей как локализованное явление, тогда как выраженный остеопороз наблюдается позже, и воспалительная фаза поражения пародонтальных тканей наступает только после резорбции межальвеолярных перегородок [40].

Остеопороз вызывает уменьшение костной массы, а заболевания пародонта вызывают резорбцию альвеолярной кости. В обоих случаях играют роль общие факторы риска, такие как курение, плохое питание, возраст и иммунодефицит [41]. Одним из возможных способов, по которым системная потеря костной массы приводит к тяжелой потере пародонтальной костной массы, является то, что снижение минеральной плотности альвеолярной костной ткани при

остеопорозе влияет на локальную резорбцию кости, вызванную пародонтитом [42]. Другая возможность заключается в том, что системные факторы ремоделирования кости могут изменить местную реакцию тканей на пародонтальную инфекцию. Соответственно, люди с пародонтитом и системной потерей костной массы могут по-разному реагировать на повышение уровня цитокинов и медиаторов воспаления и, следовательно, может возникнуть более тяжелый пародонтит [42]. В результате нарушения формирования костной ткани, вызванные остеопорозом, усугубляют заболевания пародонта, а существующие возможности пока недостаточны для полного объяснения механизма действия этого процесса на патогенетическом уровне [43].

Повышенный синтез противовоспалительных цитокинов, таких как интерлейкин IL-1β, IL-6, фактор некроза опухоли-α (TNF-α) и RANKL, является важным фактором патогенеза и развития заболеваний пародонта и остеопороза [44, 45]. Модуляция экспрессии этих цитокинов может служить возможной связью между воспалением и резорбцией кости при остеопорозе и пародонтите [46, 47, 48, 49]. Кроме того, помимо системного остеопороза, диета с низким содержанием кальция и низкий уровень витамина D также связаны с ухудшением состояния пародонта и потерей зубов [43]. Поэтому была высказана гипотеза, что осведомленность стоматологических пациентов о состоянии костей, а также о потреблении кальция и витамина D имеет важное значение для улучшения здоровья пародонта и полости рта в целом [50].

В дополнение к использованию кальция и витамина D существует несколько фармакологических методов профилактики и лечения остеопороза, среди которых особенно эффективными оказались бисфосфонаты. Перспективным является их использование в сочетании с традиционным лечением пародонтита [51,52]. Пациенты с ХБП 1-3 стадий, у которых выявлен остеопороз и сывороточный уровень паратиреоидного гормона не повышен, получают такое же лечение остеопороза, как и пациенты без ХБП [52].

Ильина Р.Ю. и др. продемонстрировали связь между активностью генерализованного пародонтита и нарушением минерализации костной ткани. При системном остеопорозе у пациентов с хроническим воспалением пародонтальных тканей наблюдаются деструктивные процессы в альвеолярном отростке челюстей, что усугубляет течение хронического пародонтита и снижает эффективность местной терапии. Авторы рекомендуют направлять пациентов с резистентными формами хронического генерализованного пародонтита, особенно женщин в постменопаузальном периоде, на диагностику минеральной плотности костной ткани. При выявлении системного остеопороза следует рекомендовать антирезорбентную фармакотерапию [53].

К сожалению, применение этой группы препаратов у пациентов с ХБП несколько ограничено, и наличие системного остеопороза и пародонтита у этих пациентов требует высокого уровня профессионализма со стороны как стоматологов, так и врачей других специальностей. Это подчеркивает необходимость разработки методов лечения, охватывающих все механизмы патогенеза у данной группы пациентов.

Медицинские работники и пациенты должны осознавать, что профилактика остеопороза может быть полезна не только для поддержания здоровья костей, но и для здоровья пародонта. Мультидисциплинарный подход позволяет минимизировать риск развития остеопороза и хронического генерализованного пародонтита у этой группы пациентов.

ЛИТЕРАТУРА

1. Botelho J. et al. Economic burden of periodontitis in the United States and Europe: An updated estimation // Journal of periodontology, 2022, 93 (3), p.373-379.
2. Tonetti M.S. et al. Staging and grading of periodontitis: Framework and proposal of a new classification and case definition // Journal of periodontology, 2018, 89 Suppl 1, s.159-S172.
3. Мухин Н.А. Нефрология: национальное руководство. М: ГЭОТАР-Медиа, 2009, с. 579-603
4. Wong L.Y. et al. Projecting the Burden of Chronic Kidney Disease in a Developed Country and Its Implications on Public Health // Int J Nephrol. 2018, 2018, 5196285.
5. Craig R.G. Interactions between chronic renal disease and periodontal disease // Oral Dis., 2008, 14(1), p.1-7.
6. Cengiz M.I. Son Dönem Böbrek Hastalığı ve Periodontal Hastalık Arasındaki Etkileşim. Turkiye Klinikleri // J Dental Sci., 2012, 18(3), p.312-316

7. Craig R.G., Kotanko P. Periodontitis and the end-stage renal disease patient receiving hemodialysis maintenance therapy // Compend Contin Educ Dent., 2009, 30(8), p.546-52.

8. Иорданишвили А.К. Современные представления о хронической одонтогенной инфекции и сенсибилизации организма // Новые СПб врачебные новости, 2000, №1, с. 54-57

9. Girndt M. et al. Defective expression of B7-2 (CD86) on monocytes of dialysis patients correlates to the uremia-associated immune defect // Kidney international., 2001, 59 (4), p.1382-9.

10.Jha, Vivekanand et al. Chronic kidney disease: global dimension and perspectives // Lancet (London, England), 2013, 382 (9888), p.260-72.

11.Карлович Н.В., Мохорт Т.В., Сазонова Е.Г. Костная патология при хронической болезни почек // Остеопороз и остеопатии. 2022, 25(1), p.29-38.

12.Shlipak M. et al. Cardiovascular mortality risk in chronic kidney disease: comparison of traditional and novel risk factors //JAMA, 2005, 293 (14), p.1737-45.

13.Lapo S. et al. Association between chronic kidney disease and periodontitis. A systematic review and metanalysis // Oral diseases, 2023, 29 (1), p.40-50.

14.Yoshihara, Akihiro et al. Bidirectional relationship between renal function and periodontal disease in older Japanese women // Journal of clinical periodontology, 2016, 43 (9), p. 720-6.

15.Ibrahim, Hanim Afzan et al. Periodontal Health of Pre-Dialysis Chronic Kidney Disease Patients in a Northeast Peninsular Malaysia Tertiary Hospital // MJMS, 2020, 27 (2), p.106-114

16.Ioannidou, Effie et al. Periodontitis associated with chronic kidney disease among Mexican Americans // Journal of public health dentistry, 2013, 73 (2), p.112-9.

17.Cengiz M.I., Bal S., Gökçay S. et al. Does periodontal disease reflect atherosclerosis in continuous ambulatory peritoneal dialysis patients? // J Periodontol., 2007, 78(10), p.1926- 34

18.Cengiz M.I., Sümer P., Cengiz S. et al. The effect of the duration of the dialysis in hemodialysis patients on dental and periodontal findings // Oral Dis., 2009, 15(5), p.336-41.

19.Xie Q., Li D. The cross-sectional effects of ribbon arch wires on Class II malocclusion intermaxillary traction: a three-dimensional finite element analysis // BMC oral health, 2021, 21 (1)

20.Tonelli M.et al. Chronic kidney disease and mortality risk: a systematic review // JASN, 2006, 17 (7), p. 2034-47.

21.Palathingal P. et al. A Cross-Sectional Study of Serum Glutathione Peroxidase: An Antioxidative Marker in Chronic Periodontitis and Chronic Kidney Disease // Cureus, 2022, 14 (2)

22.Sun K. et al. Assessment of Alveolar Bone and Periodontal Status in Peritoneal Dialysis Patients // Frontiers in physiology, 2021, 12 (759056)

23.Yazdi F.K. et al. Effect of nonsurgical periodontal treatment on C-reactive protein levels in maintenance hemodialysis patients // Renal failure, 2013, 35 (5), p. 711-7

24.Iwasaki M. et al.Periodontitis and health-related quality of life in hemodialysis patients // Clinical and experimental dental research, 2016, 3 (1), p.13-18.

25.Kim Y.J., Moura L.M., Caldas C.P. et al. Evaluation of periodontal condition and risk in patients with chronic kidney disease on hemodialysis // Einstein (Sao Paulo), 2017, 15 (2), p.173-177

26.Kocyigit I.e t al. An ignored cause of inflammation in patients undergoing continuous ambulatory peritoneal dialysis: periodontal problems //International urology and nephrology, 2014, 46 (10),p. 2021-8

27.Madore F. Periodontal disease: a modifiable risk factor for cardiovascular disease in ESRD patients? // Kidney international., 2009, 75 (7), p. 672-4.

28.Tonetti M.S. et al. Treatment of periodontitis and endothelial function // N Engl J Med. 2018, 13 (378), p.2450.

29.Blum A. et al. Periodontal care may improve endothelial function // Eur J Intern Med., 2007, 18(4), p.295-298.

30.Han S.S., Shin N., Lee S.M. Correlation between periodontitis and chronic kidney disease in Korean adults // Kidney Research and Clinical Practice, 2013, 32(4), p.164-170.

31.Sharma P., DietrichT., Sidhu A. et al. The periodontal health component of the Renal Impairment In Secondary Care (RIISC) cohort study: a description of the rationale, methodology and initial baseline results // Journal of Clinical Periodontology, 2014, 41(7), p. 653-661

32.Grubbs V. et al. The association of periodontal disease with kidney function decline: a longitudinal retrospective analysis of the MrOS dental study //Nephrol Dial Transplant. 2016, 31(3), 466-472.

33.Iwasaki M et.al. Periodontal disease and decreased kidney function in Japanese elderly //Am J Kidney Dis., 2012, 59(2), p.202-209.

34.Messier M.-D., Emde K., Stern L. et al. Radiographic periodontal bone loss in chronic kidney disease // Journal of Periodontology, 2012, 83(5), p.602–611.

35.Brotto R.S., Vendramini R.C., Brunetti I.L. Lack of correlation between periodontitis and renal dysfunction in systemically healthy patients // European Journal of Dentistry, 2011, 5(1), p.8-18.

36.Moe SM, Nickolas TL. Fractures in Patients with CKD: Time for Action. Clin J Am Soc Nephrol. 2016;11(11):1929-1931.

37.Lloret M.J., Fusaro M., Jørgensen H.S. et al. Evaluating Osteoporosis in Chronic Kidney Disease: Both Bone Quantity and Quality Matter // Journal of Clinical Medicine, 2024, 13(4), 1010.

38.Hill N.R., Fatoba S.T., Oke J.L. et al. Global Prevalence of Chronic Kidney Disease - A Systematic Review and Meta-Analysis // PLoS One. 2016, 11(7), 0158765.

39.Kovesd, C.P. Epidemiology of Chronic Kidney Disease: An Update 2022 // Kidney Int. Suppl., 2022, 12, p.7-11.

40.Guiglia R. et al. Osteoporosis, jawbones and periodontal disease // Medicina oral, patologia oral y cirugia buccal, 2013, 18 (1)

41.Martínez-Maestre M.Á., González-Cejudo C., Machuca G. et al. Periodontitis and osteoporosis: a systematic review // Climacteric. 2010, 13(6), p.523-529.

42.Tezal M., Wactawski-Wende J., Grossi S.G. et al. The relationship between bone mineral density and periodontitis in postmenopausal women // J Periodontol. 2000, 71(9), p.1492-1498.

43.Genco R.J., Borgnakke W.S. Risk factors for periodontal disease // Periodontol 2000. 2013, 62(1), p.59-94.

44.Rüstəmov E.Ə. Paradontitin kompleks müalicəsində immunoloji göstəricilərin dinamikası // Azərbaycan tibb jurnalı, 2014, №3, s. 56-61.

45.Abdullayeva S.R, Mammadov R.M, Mammadov D.T. və b. Xroniki ümumiləşdirilmiş parodontit və onunla bir müşayiət olunan qida allergiyası olan yeniyetmələrdə ağız mayesinin sitokin statusunun xüsusiyyətləri // Azərbaycan Pediatriya Jurnalı, 2023, 1(2), s.1-9.

46.Mundy G.R. Osteoporosis and inflammation // Nutr Rev. 2007, 65(12 Pt 2), s.147-S151.

47.Jabbar S. et al. Plasma vitamin D and cytokines in periodontal disease and postmenopausal osteoporosis // J Periodontal Res., 2011, 46 (1), p.97-104.

48.Penoni D.C. et al. Possible links between osteoporosis and periodontal disease // Rev Bras Reumatol. 2017, 57(3), p.270-273.

49.Kanis J.A. et al. European guidance for the diagnosis and management of osteoporosis in postmenopausal women // Osteoporosis international, 2019, 30 (1), p. 3-44.

50.Badran Z. et al. Bisphosphonates in periodontal treatment: a review // Oral health & preventive dentistry, 2009, 7 (2), p. 3-12.

51.Miller P.D. Bone disease in CKD: a focus on osteoporosis diagnosis and management // Am J Kidney Dis., 2014, 64(2), p.290-304.

52.Nitta K., Yajima A., Tsuchiya K. Management of Osteoporosis in Chronic Kidney Disease // Intern Med., 2017, 56 (24), p.3271-3276.

53.Ильина Р.Ю., Мухамеджанова Л.Р. Связь хронического пародонтита и системного остеопороза // Остеопороз и остеопатии, 2020, 23(2), p.60-61.

Xülasə

Взаимосвязь между остеопорозом и хроническим генерализованным пародонтитом у пациентов с хронической болезнью почек

Ш.Р. Юсубова

Xroniki generalizəolunmuş paradontit diş həkimliyi praktikasında ən mürəkkəb və çətin məsələlərdən biridir, xüsusən də xroniki somatik xəstəlikləri olan xəstələrdə bu prossesin dərinliyi tədqiqatçıların nəzərini öz üzərinə çəkmişdir. Bu xəstəliklər arasında BXX -nin rolu böyükdür. BXX qlobal sağlamlıq problemi olaraq qalmaqdadır və onun paradontozla əlaqəsi araşdırılmaqdadı. Tədqiqatlar göstərir ki, BXX xəstələrdə paradontitin rastgəlmə tezliyi ümumi populyasiyaya nisbətən daha yüksəkdir, xüsusilə ilə də bu dializ müalicəsində olanlarda daha da yayıımışıdır. BXX ilə paradontit arasındakı əlaqəni osteoporoz mürəkkəbləşdirir, çünki osteoporoz sümük kütləsini azaldır. Osteoporoz paradontal

sümük itkisinin artmasına səbəb ola bilər, bu da öz növbəsində müalicəni çətinləşdirir. İnterleukin-1β, IL-6 və TNF-α kimi iltihabi sitokinlər bu xəstəliklərdə sistemik iltihab ilə sümük rezorbsiyası arasında mühüm rol oynayır. BXX və osteoporoz olan xəstələrdə paradontitin effektiv idarə olunması, ümumi sağlamlığı nəzərə alan, kalsium və D vitamini qəbulu, qidalanma tövsiyələri və bisfosfonatlar kimi farmakoloji müalicəni əhatə edən multidissiplinli yanaşma tələb olnur. Ümumilikdə bu istiqamətdə araşdırılmaların aparılması tələb olunur.

Summary

Взаимосвязь между остеопорозом и хроническим генерализованным пародонтитом у пациентов с хронической болезнью почек

Ш.Р. Юсубова

Chronic generalized periodontitis remains one of the most challenging and unresolved issues in dental practice, significantly affecting patients with chronic systemic diseases like chronic kidney disease (CKD). CKD is a global health concern, increasingly prevalent among the working-age population, and its relationship with periodontal disease is becoming more evident. Research indicates a higher prevalence of periodontal inflammation in patients with CKD compared to the general population, especially in those undergoing dialysis. The connection between CKD and periodontitis is further complicated by osteoporosis, a systemic condition that reduces bone mass and increases fracture risk. Both conditions share common risk factors, such as age, smoking, and poor nutrition. Osteoporosis can exacerbate the loss of periodontal bone, complicating treatment strategies. Interleukin-1β, IL-6, and TNF-α are key pro-inflammatory cytokines that may link systemic inflammation to bone resorption in both conditions. Effective management of periodontitis in patients with CKD and osteoporosis necessitates a multidisciplinary approach, focusing on systemic health, dietary considerations (like calcium and vitamin D intake), and pharmacological treatments such as bisphosphonates.

Daxil olub: 22.07.2024

UOT: 661.1

Topdansatış əczaçılıq sektorunun vəziyyətinin təhlili və risklərin öyrənilməsi

B.Ə.Şirəliyev
Azərbaycan Tibb Universiteti, əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: *mahbubav_amu@rambler.ru*

Açar sözlər: əczaçılıq biznesi, topdan satış, risklər, dərman vasitələri, idarə edilməsi
***Ключевые слова*:** фармацевтический бизнес, оптовая торговля, риски, лекарственные средства, управление
Keywords: pharmaceutical business, wholesale, risks, drung medicines, management

Azərbaycanda dərman vasitələrinin topdansatış sektoru son illərdə sürətlə inkişaf etmişdir. Bu sahədə fəaliyyət göstərən əczaçılıq şirkətlər, yerli və xarici bazarlarda öz mövqelərini möhkəmləndirərək geniş müştəri bazası yaratmışlar. Topdansatış müəssisələri ölkənin iqtisadiyyatında mühüm rol oynayır və müxtəlif sənaye sahələrinin inkişafına təkan verir [1-4].

Əczaçılıq məhsullarının topdansatış mərkəzləri dərman bazarında müxtəlif iştirakçılar mövcuddur. Bunlar arasında yerli istehsalçılar, beynəlxalq şirkətlər, distribütorlar və vasitəçilər yer alır. Hər biri bazarın müxtəlif seqmentlərində fəaliyyət göstərir və ayrı-ayrı məhsul kateqoriyaları üzrə ixtisaslaşır [5-10].

Azərbaycanda əczaçılıq topdansatış sektorunda ən çox satılan: əczaçılıq məhsullarıdır.

Dərman vasitələrinin topdansatışın uğurla həyata keçirilməsi üçün güclü infrastruktur və logistika şəbəkəsi vacibdir. Son illərdə Azərbaycanda bu sahədə müxtəlif irəliləyişlər əldə edilmişdir. Məlumdur ki, yolların və nəqliyyat vasitələrinin yaradılmasının inkişafı, anbar sistemlərinin təkmilləşdirilməsi və müasir texnologiyaların tətbiqi topdansatışın effektivliyini artırır [1-3].

Əczaçılıqda topdansatış sektoru Azərbaycanın iqtisadiyyatında mühüm rol oynayır. Bu sahə, müxtəlif sənaye sahələrinin inkişafını dəstəkləyir, iş yerlərinin yaradılmasına və iqtisadi artıma töhfə verir. Eyni zamanda, topdansatışın inkişafı yerli istehsalın stimullaşdırılmasına və xarici ticarət balansının yaxşılaşdırılmasına səbəb olur [3,4].

Bundan əlavə topdansatış sektoru ölkənin ümumi iqtisadi sabitliyini dəstəkləyir. Bu sahədə fəaliyyət göstərən şirkətlər, yerli istehsalçılarla sıx əməkdaşlıq edərək, milli iqtisadiyyatın dayanıqlığını artırırlar. Əczaçılıq topdansatışın inkişafı, kənd təsərrüfatı, sənaye və xidmət sektorlarının inkişafına da təsir göstərir [5].

Topdansatış sektoru bir çox üstünlüklərə malik olsa da, bir sıra problemlərlə də üzləşir. Bu problemlərin həlli sektorda dayanıqlı inkişafın təmin edilməsi üçün vacibdir:

- Məhsul qiymətlərinin dalğalanması, xüsusilə qlobal bazarda baş verən dəyişikliklər, topdansatışın maliyyə sabitliyini təsir edə bilər. Qiymət dalğalanmaları, məhsulun alınması və satılması prosesində müxtəlif risklər yaradır.

- Hüquqi və tənzimləyici mühitdə baş verən dəyişikliklər, topdansatış sektorunda fəaliyyət göstərən şirkətlərin uyğunlaşmasını tələb edir. Vergi qanunvericiliyindəki dəyişikliklər, sertifikatlaşdırma tələbləri və digər tənzimləyici məsələlər şirkətlərin fəaliyyətinə təsir göstərə bilər. Bu da bazar iştirakçılarının əlavə xərclərə və zaman itkilərinə məruz qalmasına səbəb olur.

- Məhsulların vaxtında və düzgün şəkildə müştərilərə çatdırılması üçün güclü logistika və dağıtım şəbəkəsi vacibdir. Logistika və çatdırılma proseslərindəki nasazlıqlar məhsulun keyfiyyətinə və müştəri məmnuniyyətinə mənfi təsir göstərə bilər. Nəqliyyat vasitələrinin texniki vəziyyəti və infrastrukturdakı çatışmazlıqlar bu problemləri daha da ağırlaşdırır [14].

- Topdansatış sektorunda fəaliyyət göstərən bəzi şirkətlər maliyyə resurslarının çatışmazlığı ilə üzləşə bilər. Maliyyə resurslarının məhdudluğu, məhsulun alınması, saxlanması və satılması proseslərini çətinləşdirir. Bu problem xüsusilə kiçik və orta ölçülü müəssisələr üçün aktualdır.

- Topdansatış sektorunda rəqabət yüksəkdir. Şirkətlər bazarda mövqelərini qorumaq və artırmaq üçün müxtəlif strategiyalar tətbiq etməlidir. Rəqabət mühiti, bazar payının itirilməsi və müştəri

məmnuniyyətinin azalması riskini yarada bilər. Rəqabət şəraitində müştərilərin sadiqliyini qorumaq və bazarda innovativ həllər təklif etmək vacibdir.

Topdansatış, məhsul və ya xidmətlərin böyük miqdarda satılmasında istifadə edilən bir təchizat və satış modelidir. Bu model, istehsalçılardan və ya distribütorlardan alıcıya birbaşa və ya vasitəçilər vasitəsilə satışı əhatə edir. Topdansatışın məqsədi məhsulları daha əlverişli qiymətlərlə təqdim edərək geniş bazar şəbəkəsinə çatdırmaqdır [15-18].

Topdansatışın bəzi əsas xüsusiyyətləri:

- **Böyük miqyasda satış:** bu satış modeli böyük miqdarda məhsulun alınmasını təmin edir ki, bu da daha sərfəli qiymətlərin müəyyən edilməsinə səbəb olur. Həmçinin, pərakəndə satıcılar üçün topdansatış qiymətləri daha cəlbedici olur.
- **Aralıq rolunun vacibliyi:** topdansatışda, məhsul istehsalçıdan pərakəndə satıcıya və ya son istehlakçıya çatdırılana qədər müxtəlif aralıq addımlar mövcuddur. Bu, məhsulun geniş bazarda satışını təmin edir.
- **Əlavə qiymət endirimləri:** böyük miqdarda məhsul alışı təmin edildiyi üçün, qiymət endirimləri mümkündür. Bu, alıcıların daha sərfəli qiymətlərlə məhsul əldə etmələrini təmin edir.

Beləliklə, əczaçılıq məhsullarının topdan satışının təşkilində çox problemlər və ya risklər ola bilər, bunları nəzərə alaraq təqdim etdiyimiz elmi məqalənin əsas **məqsədi** ölkəmizdə əczaçılıq vasitələrinin topdan satış müəssisələrində risklərin öyrənilməsi və təhlilidir.

Müzakirələr və nəticələr. Risk, insan fəaliyyətinin ayrılmaz bir hissəsidir. Hər bir iş iqtisadi fəaliyyətdə mühüm rol oynayır. Risk, hər hansı bir fəaliyyətin və ya hadisənin nəticələrinin qeyri-müəyyənliyi ilə əlaqədar olan ehtimalların toplusu olaraq təsvir edilə bilər. Bu, həm müsbət, həm də mənfi nəticələrə gətirib çıxara bilər, lakin əsas məsələ qeyri-müəyyənlik və bu qeyri-müəyyənliyin necə idarə edildiyidir. Riskin idarə olunması, yalnız mümkün zərərləri azaltmaq üçün deyil, həm də potensial fürsətləri dəyərləndirmək məqsədini güdür.

Riskin idarə olunması, düzgün qərarlar verməyə, resursları effektiv idarə etməyə və şirkətin məqsədlərinə çatmasına kömək edir. Risklərin aşkarlanması və idarə olunması Azərbaycanın iqtisadiyyatında və əczaçılıq sektorunda əhəmiyyətli bir yer tutur. Ölkədə fəaliyyət göstərən şirkətlər, bazarda artan tələbatı və müxtəlif riskləri nəzərə alaraq öz fəaliyyətlərini davamlı inkişaf etdirirlər.

Risk, müəyyən bir fəaliyyəti və ya layihəni həyata keçirərkən qarşıya çıxan qeyri-müəyyənlikləri ifadə edir. Riskin əsas xüsusiyyəti, onun nəticələrinin həm müsbət, həm də mənfi ola bilməsidir. Yəni, risk yalnız mənfi nəticələrlə əlaqəli deyil; müsbət nəticələr də ortaya çıxa bilər, məsələn, yüksək gəlirli investisiya və ya uğurlu bazar həcminin artımı.

Risklər əsasən dörd kateqoriyaya bölünür:

- **Maliyyə riski:** sərmayələrin qiymət dəyişikliklərindən, məzənnə dalğalanmalarından, faiz dərəcələrinin artmasından və digər maliyyə bazarlarında baş verən dəyişikliklərdən yaranır. Əgər şirkət xarici valyutada fəaliyyətlər aparırsa və məzənnə sabit deyilsə, bu, şirkətin maliyyə vəziyyətinə ciddi təsir göstərə bilər.
- **Əməliyyat riski:** şirkətin daxili əməliyyatlarında yaranan nasazlıqlardan və insan səhvlərindən qaynaqlanır. Bu, xüsusilə istehsal, logistika və ya digər əməliyyat funksiyalarında baş verə bilər.
- **Bazar riski:** bazar şəraitində və iqtisadi mühitdə baş verən dəyişikliklərdən yaranan riski ifadə edir. Bazar tələbinin dəyişməsi, rəqabətin artması və ya bazar vəziyyətinin pisləşməsi bazar riskini meydana gətirə bilər.
- **Hüquqi risk:** hüquqi risklər qanunvericilikdə baş verən dəyişikliklər, müqavilə pozuntuları və digər hüquqi məsələlərdən irəli gəlir. Bu, xüsusilə dövlətin tələbləri və sənayenin tənzimlənməsi ilə bağlı yaranır.
- **Reputasiya riski:** bu risk, şirkətin ictimaiyyət qarşısında nüfuzunun zədələnməsi ilə əlaqəli olur. Sosial mediada səhv məlumatların yayılması və ya etibarsızlıq şirkətə ciddi maliyyə və sosial itkilər gətirə bilər.

Risklər yalnız mənfi nəticələrə deyil, həmçinin işin inkişafına və bazarda üstünlük əldə etməyə də səbəb ola bilər. Bu səbəbdən riskləri qiymətləndirmək və idarə etmək vacibdir.

Risklərin idarə edilməsi, müəssisələrin qarşılaşacağı riskləri müəyyən etməklə başlayır və bu risklərin təsirini minimallaşdırmaq üçün müxtəlif tədbirlər görür. Riskin idarə olunması prosesi bir neçə əsas mərhələdən ibarətdir:

Azərbaycanda əczaçılıq sektoru kimi mürəkkəb sahələrdə risklərin düzgün idarə edilməsi xüsusilə vacibdir. Ölkədə fəaliyyət göstərən şirkətlər, risklərin idarə olunmasında mükəmməlliyə nail olmaq üçün müxtəlif metod və strategiyalardan istifadə edirlər:

ICH Q9 rəhbərliyinə əsasən riskin idarə edilməsi prosesinin əsas məqamları aşağıdakılardır:

- **Risklərin müəyyənləşdirilməsi:** potensial risklər müəyyən edilərək təhlil edilir. Məsələn, bir müəssisə məhsul keyfiyyətində qeyri-müəyyənlikləri müəyyən etməli və bu qeyri-müəyyənliklərin potensial təsirlərini təhlil etməlidir.
- **Risklərin təhlili:** risklərin ehtimalları və təsirləri qiymətləndirilir. Məsələn, məhsul keyfiyyətində baş verə biləcək dəyişikliklər və onların nəticələri təhlil edilməlidir.
- **Risklərin qiymətləndirilməsi:** ehtimal olunan risklər prioritetləşdirilir. Məsələn, məhsul keyfiyyətində ciddi təsir göstərə biləcək risklər yüksək prioritetləndirilməlidir.
- **Risklərin idarə edilməsi:** riskləri idarə etmək üçün strategiyalar tətbiq olunur. Məsələn, məhsul keyfiyyətində risklərin qarşısını almaq üçün keyfiyyət nəzarət tədbirləri tətbiq edilməlidir.
- **Risklərin izlənməsi və nəzarəti:** risk idarəetmə tədbirlərinin effektivliyi davamlı olaraq izlənir və yenilənir o cümlədən keyfiyyət nəzarət proseslərinin müntəzəm olaraq yenilənməsi və təkmilləşdirilməsi təmin edilməlidir.

Risklərin düzgün və effektiv idarə edilməsini təmin etmək üçün topdansatış müəssisələri tərəfindən İCH Q9 rəhbərliyi riskin idarə edilməsində istifadə olunan müxtəlif metodları təqdim edilməlidir:

- **SWOT analizi:** güclü tərəfləri, zəif tərəfləri, fürsətləri və təhdidləri müəyyən etmə metodu.
- **FMEA (Failure Mode and Effects Analysis):** məhsul və prosesdəki potensial nasazlıqların təsirlərini qiymətləndirmə metodu üsulu.
- **FTA (Fault Tree Analysis):** qüsurların əsas səbəblərini müəyyən etmək üçün istifadə olunan qrafik üsul.
- **HACCP (Hazard Analysis and Critical Control Points):** qida və əczaçılıq sənayesində məhsul təhlükəsizliyini təmin etmək üçün istifadə olunan üsul.

Bu üsullar əczaçılıq müəssisələrdə risklərin idarə edilməsində və keyfiyyətin təmin edilməsində kömək göstərə bilər.

Nəticələr

1) Risklərin idarə edilməsi və topdansatışın düzgün analizi, xüsusilə əczaçılıq sahəsində şirkətlərin fəaliyyətini gücləndirmək və bazarda lider mövqe tutmaq üçün vacibdir. Azərbaycanın iqtisadi və hüquqi mühiti, bu sahədəki çətinliklərə qarşı davamlı inkişaf və adaptasiya tələb edir.

2) Ölkədə fəaliyyət göstərən şirkətlər, riskləri düzgün idarə edərək və qarşıya çıxan problemləri həll edərək, yalnız öz fəaliyyətlərini gücləndirmir, həm də ölkənin iqtisadiyyatına mühüm töhfələr verir.

3) Topdansatış sektorunun inkişafı, yerli iqtisadiyyatın dayanıqlığını artırır və müxtəlif sənaye sahələrinin inkişafına təkan verir. Bu baxımdan, risklərin düzgün idarə edilməsi və topdansatışın səmərəli təşkili ölkənin ümumi iqtisadi sabitliyi üçün mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 12.11.1995
2. Azərbaycan Respublikasının «Vergi məcəlləsi», Bakı, 2003
3. Azərbaycan Respublikasının «Əmək məcəlləsi», Bakı, 2003
4 Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu. Bakı.'1995
5. Azərbaycan Respublikasının "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunu. Bakı, 17.01.1997
6. Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Qanunu. Bakı. 2007
7. Azərbaycan Respublikası Prezdentinin Fərmanı "Bəzi sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında əsasnamə". Bakı, 1997
8. Azərbaycan Respublikasının "Azərbaycan Respublikasında 1995-1998-ci illər ərzində dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında dövlət proqramı" Qanunu, Bakı, 1995
9. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı,12.11.1995
10. Azərbaycan Respublikasının "Dərman vasitələri haqqında" Qanun. Bakı,2007.
11. Vəliyeva M.N., Cabbarova Ş.A., Əczaçılığın idarəolunması və iqtisadiyyatı. Dərslik, Bakı, 2013, 736 s.

12. Valiyeva M., Shiraliyev B. The study of the pharmaceutical business and its organization in Azerbaijan // Danish Scientific Journal, 2022, No 67, p 15-19
13. Valiyeva M., Shiraliyev B. To the study the methodological foundations of the pharmaceutical business and its organization // European Journal of Biomedicical and Life Sciences, 2023, №1
14. Ширалиев Б.А., Велиева М.Н. К изучению методологических основ фармацевтического бизнеса и ее организации. Ümumimilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş elmi-praktiki konfransın məcmuəsi, Bakı? 2023
15. Anthony M. Pagano, Matthew Liotine, Technologies in supply chain management and logistics,Technology in Supply Chain Management and Logistics, 2020, p. 7-35.
16. Angie N., Robert P., Samir L., Simon T.G. Data analytics in pharmaceutical supply chains: state of the art, opportunities and challanges // İnternational Journal of Production Research, 2021, p 48.
17. Basole R.C. Assimilation of tracking technology in the supply chain, Transportation Research Part E: Logistics and Transportation Review, 2018, p 350-370
18. Henk Z., Matthias K., Alberto R. et al. Operations, Logistics and Supply Chain Management, 2019, p 45-73

Резюме

Анализ состояния фармацевтицевтических оптовые компаний и изучение рисков

В.А.Ширалиев

В научной статье представлены сведения по формированию фармацевтических оптовых компаний. Выделены особенности для организации фармацевтических дистрибуций в нашей страны. Показаны риски при логистическом товародвижении лекарственных средств. Указаны мероприятия управления рисками, которые могут быть как положительными, так и отрицательными. Констатировано, что при правильном управлении рисками можно достичь успешного роста объёма лекарственного рынка.

Summary

Analysis of the state of pharmaceutical wholesale companies and risk study

V.A. Shiraliyev

The scientific article presents information on the formation of pharmaceutical wholesale companies. Features for the organization of pharmaceutical distribution in our country are highlighted. Risks in the logistics movement of drugs are shown. Risk management measures are indicated, which can be both positive and negative. It is stated that with proper risk management, it is possible to achieve successful growth in the volume of the drug market.

Daxil olub: 22.07.2024

UOT: 616.9:617.7

Oftalmoxlamidiozun diskriptiv metodlarla epidemioloji təhlili

G.İ.Ağayeva
Azərbaycan Tibb Universiteti, epidemiologiya və tibbi biostatistika kafedrası

Müəllifin elektron poçt ünvanı: aidaaghayevat@gmail.com

Açar sözlər: oftalmoxlamidioz, *Chlamydia trachomatis,* diskriptiv təhlil, epidemioloji müşahidə
Ключевые слова: офтальмологический хламидиоз, Chlamydia trachomatis, описательный анализ, эпидемиологическое наблюдение
Key words: ophthalmic chlamydia, chlamydia trachomatis, descriptive analysis, epidemiological observation

Müasir dövrdə cinsi yolla keçən xəstəliklər səhiyyənin mühüm problemidir. Son zamanlar əsasən cinsi yolla keçən xəstəliklərin (CYKX) sayının artması müşahidə olunur və bəzi regionlarda onlar epidemiya xarakteri almışdır. CYKX-nin ümümi miqdarında urogenital xlamidiozun payı kifayət gədər böyük olub 20%-dən 40%-ə qədər təşkil edir [1]. Xarici ölkə müəlliflərinin məlumatına görə, hər il dünyada xlamidiya infeksiyası ilə 90 milyon insan xəstələnir. Digər statistik məlumatlara görə, hər il Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində 5 milyondan artıq insanda xlamidiya infeksiyası qeydə alınır. Rusiya statistikasına görə, hər il xlamidiozla 1,5 milyon insan xəstələnir [2]. 2004-cü ildə belə bir məlumat dərc edilmişdir ki, Rusiyada cavan seksual aktiv insanların ən azı 5-10%-i xlamidiya infeksiyası ilə xəstədir [2, 3].

Tədqiqatların nəticələrinə görə, urogenital xlamidioz hadisələrinin yarıdan çoxunda gözün selikli qişasında da patoloji dəyişikliklər müşahidə edilir, yəni xlamidiya konyunktiviti baş verir [4]. Azərbaycanda son on ildə sənaye cəhətdən inkişaf etmiş digər ölkələrdə olduğu kimi, böyüklərin konyunktiviti problemi getdikcə daha çox əhəmiyyət kəsb edir [1]. Müxtəlif müəlliflərin məlumatına görə, paratraxomanın xüsusi çəkisi konyunktivitlərin ümümi sayının 3%-dən 30%-ə qədərini təşkil edir. Helm Holts adına METGXİ-nin statistik məlumatlarına görə, gözun selekli qişasının iltihabı baş verən bütün xəstələrin 10-14%-ni xlamidiya konyunktiviti təşkil edir[5].

Tədqiqatın məqsədi oftalmoxlamidiozun yoluxma yollarını, aşkarlanma üsullarını, klinik formalarının başvermə tezliyini tədqiq etməkdir


Tədqiqatın material və metodları. Tədqiqatın obyekti olaraq Azərbaycan Rsepublikası Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Hospitalının göz xəstəlikləri şöbəsinə müraciət edən 125 xəstə götürülmüşdür. Onların 95 nəfəri əsas qrupa daxil edilmiş, mikroskopik və bakterioloji metodlarla xlamidiya aşkar edilmiş oftalmoxlamidiozlu xəstələrdən kontrol qrupa daxil edilmiş 30 nəfəri isə oxşar klinik əlamətləri olan xəstələrdən təşkil olunmuşdur.

Tədqiqatda istifadə olunan metodlara diskriptiv epidemioloji təhlil, laborator müayinələr - qaşıntıda törədicinin bilavasitə təyin edilməsi (sitoloji metod), immunferment, immunflüoressent, zəncirvari polimeraza reaksiyası, hüceyrə kulturasında xlamidiyaların aşkarı (Mccoy mühitindən istifadə olunmaqla), etalon hesab edilən kultura metodu, seroloji testlər (İFA) aid edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Chlamidia Trachomatis tərəfindən törədilən xlamidiozlar əsasən cinsi infeksiya hesab olunur. Əsas yoluxma yolu xlamidiya daşıyıcısı olan bir şəxslə qorunmayan vaginal, anal və ya oral cinsi əlaqədir. Xəstəliyin ən neqativ tərəflərindən biri odur ki, xlamidiya keçirmiş olsanız və müalicə alsanız belə, siz bu infeksiyaya yenidən yoluxa bilərsiniz. Xılamidiya doğuş zamanı, eləcə də doğuşdan sonrakı dövrdə də sıx təmas nəticəsində anadan uşağa keçə bilər. Chlamydia-nın yayılması üçün penetrativ cinsi əlaqə tələb olunmur. Vaginal maye və ya yoluxmuş sperma ilə çirklənmiş dəri ilə gözlərin və digər selikli qişaların təması zamanı xəstəliyin ötürülməsi mümkündür.

Yetkin şəxslər oftalmoxlamidioza infeksiyalaşmış bəzi əşyalarla-süni kirpiklər, paltarlar, dəsmallar, digər kosmetik vasitələrlə də yoluxa bilirlər.

Dünyada xəstəliklər ən çox qadınlar arasında aşkar olunsa da, bizim tədqiqatda 51,57±4,18% kişilər arasında meydana çıxmışdır. Buna səbəb tədqiqat üçün götürülmüş əsas xəstələr Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Müalicə Müəssisəsinə müraciət edən şəxslər arasından əldə edilmişdir ki, onların da əksəriyyəti kişilərdən ibarət olmuşdur. Xəstəlik tarixlərinin və anamnez nəticələrinin retrospektiv epidemioloji analizi bəzi nəticələrin əldə olunmasına səbəb olmuşdur (Şəkil 1).




Şəkil 1.Xlamidiozun yoluxma yolları

Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, anoloji statistik məlumatlardan fərqli olaraq bizim tədqiqata daxil edilən xəstələr arasında təmas-məişət yolu ilə uşaq və yeniyetmələrin yoluxması halı daha çox baş vermişdir. Bu da əhali arasında şəxsi gigiyenik qaydalara riayət olunması sahəsində və sanitar maarifləndirmə işindəki çatışmazlıqların olmasını göstərir. Bunun üçün də bu infeksiyanın profilaktikasına aid hərbi şəhərciklərdə və bu şəhərciklərə nəzarət edən poliklinika və ambulatoriyalarda periodik maarifləndirmə işlərinin aparılması əsas məsələlərdən biri hesab olunur.


Gözlərin infeksion konyunktivitinin etioloji strukturuna müxtəlif mikroorqanizmlər daxildir. Lakin baş verən xəstələnmələrin təqribən 30%-ə qədəri Chlamydia trachomatisin payına düşür. Oftalmoxlamidioz əsasən dəyişkən inkubasion dövrdən sonra çox da spesifik olmayan iltihabı dəyişikliklərlə özünü göstərir. Əsasən yoluxmadan 3-gün sonra xəstələrdə əlamətlər özünü göstərməyə başlayır ki, bu period 15 günə qədər uzana bilər. Xəstəlik əsasən bütün yaş qruplarından olan insanlar arasında özünü büruzə verir. 70% hallarda oftalmoxlamidiozlu xəstələrdə sidik-cinsiyyət orqanlarının iltihabi əlamətləri müşahidə olunur. Bundan başqa 41,5±3,94% hallarda oynaqlarda, 28,23±2,08% hallarda tənəffüs orqanlarında, 35,56±3,12% hallarda mədə-bağırsaq sistemində iltihabı dəyişikliklər müşahidə olunur.

Bizim tədqiqatımızda 95 oftalmoxlamidioz infeksiyası təsdiqlənmiş xəstə əsas qrupa seçilmişdir. Götürülən xəstələrin 48,42±4,23%-i (46 nəfər) qadınların, 51,57±5,34%-i (49 nəfər) isə kişilərin payına düşür. Ümumiyyətlə, götürülmüş xəstələrin klinik təzahürləri yaşa görə spesifik olaraq müəyyən qədər fərqləndiyi əsas qrupun 23,16±1,94%-ni (22 nəfər) 15 yaşa qədər uşaqlar, 36,84±2,73%-ni (35 nəfər) qadınlar və 40±4,12%-ni (38 nəfər) kişilər təşkil edir (Şəkil 2).



Şəkil 2. Əsas qrupun cinsə görə qruplaşması

Xəstələrin təqribən 61,05±4,57%-də ikitərəfli oftalmoxlamidioz, 38.94±2,32%-də birtərəfli oftalmoxlamidioz müşahidə edilmişdir. Kontrol qrupa daxil olan infeksion konyunktiviti olan xəstələrdə 60±5,45% hallarda sidik-cinsiyyət orqanlarının iltihabı əlamətləri müşahidə olunur. Bundan başqa 37,5± 2,62% hallarda oynaqlarda, 65% hallarda tənəffüs orqanlarında, 39,23±2,85% hallarda mədə-bağırsaq sistemində iltihabi dəyişikliklər müşahidə olunur (Şəkil 3).



Şəkil 3. Kontrol qrupda konyunktivitli xəstələrin yanaşı gedən klinik təzahürləri

Kontrol qrupun və əsas qrupun klinik və epidemioloji xüsusiyyətlərinə görə aparılmış analitik (case-control) araşdırma müəyyən nəticələrə gətirib çıxarmışdır. Nəticələr 2x2 cədvəlində cəmlənərək klinik təzahürlərin meydana çıxmasında Chlamydia trachomatis faktorunun rolu hesablanmışdır. Bu təhlili aparmaqda məqsəd xlamidiyanın klinik təzahürünün müəyyən qədər gözün digər etiologiyalı infeksion iltihabı xəstəliklərlə diferensiasiyasını aparmaq olmuşdur. Xlamidiyalı xəstələrdən ibarət əsas qrupda uveitin rast gəlməsi 64,21% olduğu halda, kontrol qrupda 43,33%-ə bərabərdir. Şansların nisbəti (Odd İndeksi) isə 2,34-ə bərabər olmuşdur. Bu onu göstərir ki, oftalmoxlamidiozu olan xəstələrdə uveitin rast gəlməsi digər etiologiyalı göz zədələnmələrinə nisbətən 2,34 dəfə çoxdur. Bu fərq nəzərəçarpacaq dərəcədə çox olmasa da, yenə də uveitli xəstələrdə xlamidiozun laborator diaqnostikasının aparılmasının vacib olmasını göstərir (Cədvəl 1).

Müşahidə edilmiş xəstələrin təqribən 65,67%-də ikitərəfli infeksion-iltihabi dəyişiklik, 34.32%-də birtərəfli infeksion-iltihabi dəyişiklik müşahidə edilmişdir. Əsas qrupda olduğu kimi, burada da görmə orqanının müxtəlif səviyyəli patologiyaları müşahidə edilir ki, bunlarda arasında sklerit, episklerit, uveit əsas qrupdakı kimi önə çıxmışdır. Kontrol qrupda müayinəyə cəlb olunan xəstələrin 13 nəfərində uveit, 12 nəfərində sklerit, 5 nəfərində episklerit müşahidə edilmişdir.

Cədvəl 1
Əsas və kontrol qrupda uveitin rastgəlmə tezliyinin öyrənilməsi

Göstəricilər	Xlamidiyalı xəstələr	Digər etiologiyalı xəstələr	Odd indeks (ad/bc)
Uveit	61(a)	13(b)	
Digər klinik formalar	34(c)	17(d)	
Cəm	95	30	
Qruplarda xəstələnməyə məruz qalma dərəcəsi	(a/a+c)*100= 64,21%	(b/b+d)*100=43,33%	=2,34

ƏDƏBİYYAT

1. Hacıyev İ.A., M.İ.Əliyev. Tibbi parazitologiya. Bakı, “Təbib” nəşriyyatı 2007, s. 34-37.

2. “Tibb elminin əsasları” I Beynəlxalq Elmi Konfransın Materialları / 11 iyul 2021 Materials I International Scientific Conference on "Fundamentals of medical science"/ 11 July, 2021 DOI: https://www.doi.org/10.36719/2707-1146/2021/01/01

3. Астахов Ю.С., Квасова М.Д., Крылова Т.А. К вопросу о диагностике хламидийного конъюнктивита // Русс. мед. Журнал, 2010, № 1, с.16-19

4. Сарыев, К. А. Хламидезный аборт овец в Азербайджане и борба сним.// -Автореферат. -Bakı; -2005.

5. De Vrieze N.H., van Rooijen M., Schim van der Loeff M.F. et al. Anorectal and inguinal lymphogranuloma venereum among men who have sex with men in Amsterdam, The Netherlands: Trends over time, symptomatology and concurrent infections // Sex. Transm. Infect. 2013, 89, 548–552.

Резюме

Эпидемиологический анализ офтальмохламидиоза с использованием дискриптивный методов

Г.И.Агаева

Цель исследования - изучить пути заражения, методы выявления и частоту клинических форм офтальмоксламидиоза. В исследование были включены 125 пациентов с заболеваниями глаз. Из них 95 человек вошли в основную группу, а 30 человек вошли в контрольную группу. Хламидиоз, был выявлен микроскопическими и бактериологическими методами. Частота увеита в основной группе больных хламидиозом составила 64,21%, тогда как в контрольной группе – 43,33%. Коэффициент вероятности (индекс вероятности) был рассчитан как 2,34. Это свидетельствует о том, что частота увеитов у больных офтальмохламидиозом в 2,34 раза выше, чем при поражениях глаз другой этиологии. Хотя эта разница не столь существенна, она все же свидетельствует о важности лабораторной диагностики хламидиоза у пациентов с увеитом.

Summary

Epidemiological analysis of ophthalmochlamydia using descriptive methods

G.I.Aghayeva

Haeophilus influenzae - uzun müddət hemofillər qripin törədicisi hesab olunurdu, çünki spesifik xüsusiyyətləri olmayan bu infeksiya ən çox rinofaringit və ya kəskin respirator infeksiyalar şəklində olurdu. Hemofillər yuxarı tənəffüs yollarının normal florasının bir hissəsi təşkil edərək, uşaqlarda simptomsuz daşıyıcılıq səviyyəsi 40% -dən çox olur. Kapsulun kimyəvi strukturunda və antigen xassələrindəki fərqlərdən asılı olaraq H.influenzae-nin 6 serotipi (a, b, c, d, e, f serotipləri), həmçinin kapsul olmayan ştamları mövcuddur. Hib serotipindən olan ştammları daha ağır infeksiyalar törədir. Böyüklərdə tez-tez ağır traxeobronxitlə oxşar olan ocaqlı bronxopnevmoniyaya səbəb olur [10].

Moraxella catarrhalis - qulaq, yuxarı və aşağı tənəffüs yollarının infeksiyalarına səbəb olan qram-mənfi diplokokdur. Bu, atipik *H.influenzae*-dən sonra ikinci ən çox xroniki obstruktiv ağciyər xəstəliyinin kəskinləşməsinə səbəb olan bakteriyadır. Uşaqlarda orta otiti, hər yaşda insanlarda xroniki və kəskin sinusiti və xroniki ağciyər xəstəliyini yaradır. *M.catarrhalis* tərəfindən törədilən pnevmoniya pnevmokok pnevmoniyasına bənzəyir [13].

Klebsiella pneumoniae – dünya üzrə pnevmoniyaların təxminən 3%-5%-i törədir, lakin inkişaf etməkdə olan Afrika ölkələrdə bütün pnevmoniya hallarının təxminən 15%-ni təşkil edir. ABŞ-da *Klebsiella pneumoniae* xəstəxanadaxili pnevmoniyanın ən çox yayılmış səbəbi hesab olunur. Bakteriya bədənə daxil olduqdan sonra yüksək dərəcədə virulentlik və antibiotik rezistentliyi göstərə bilir [12].

Acinetobacter baumannii - immun çatışmazlığı olan şəxslər, xüsusən də uzun müddət xəstəxanada yatmış şəxslər arasında yüksək dərəcədə rast gəlinir. Səhiyyə xidmətləri ilə əlaqəli pnevmoniyalara və traxeobronxitə səbəb olur. *A.baumannii* ilə əlaqəli ölüm halları 19-54% arasında dəyişir [14].

Mycoplasma pneumoniae - adətən yuxarı tənəffüs yollarının infeksiyalarına səbəb olur, lakin insanların 5-10%-də pnevmoniyaya da səbəb ola bilər. Əksər tənəffüs patogenləri kimi, infeksiya adətən qış aylarında baş verir, lakin il boyu baş verə bilər. Bütün yaş qruplarında, xüsusilə 5 yaşdan yuxarı və 40 yaşdan aşağı olanlarda yuxarı və aşağı tənəffüs yollarının infeksiyalarına səbəb olur [5].

Antibiotiklərin qeyri-rasional təyin edilməsi, nəzarətsiz istifadəsi mikroorqanizmlərin bu dərman vasitələrinə davamlılığın artmasına səbəb olur. Bu da ilkin antimikrobial terapiyanın səmərəsizliyinə, səhiyyə xidmətlərlə əlaqəli infeksiyaların sayının kəskin artmasına təsir edir [19].

Antibiotik rezistentliyi bakteriyalar arasında, çox vaxt genetik elementlər vasitəsilə ötürülə bilər, ətraf mühitdən əldə edilə bilər və ya dərmanlara qarşı özlərinin seleksiyası səbəbindən mutasiya nəticəsində yarana bilər [3].

Tənəffüs yollarının infeksiyalarına səbəb olan əsas mikroorqanizmlərdən biri *Streptococcus pneumoniae* iştirakı zamanı, ən çox istifadə edilən antibiotik siniflərinin, xüsusilə beta-laktamların (penisilin, aminopenisilinlər və sefalosporinlər) və makrolidlərin təsirinə qarşı mübarizə aparmaq üçün çoxsaylı rezistentlik mexanizmlərini inkişaf etdirmişdir. Bu formada *S. pneumoniae*-nin çoxlu dərmanlara davamlı ştammları, əksər hallarda davamlı genetik klonlar vasitəsilə dünyanın bütün bölgələrinə yayılmışdır. Digər əsas tənəffüs yollarının patogenləri, o cümlədən *Haemophilus influenzae, Moraxella catarrhalis* və *Streptococcus pyogenes* üçün də buna oxşar rezistentliyin yayılması bildirilmişdir [6].

Xroniki obstruktiv ağciyər xəstəliyi zamanı tənəffüs yollarının iltihabının əsas səbəbi aşağı tənəffüs yollarında bakteriyaların antibiotiklərə davamlı olmasıdır. Bu zaman izolə olunmuş bakteriyalardan *Haemophilus influenzae, Moraxella catarrhalis və Streptococcus pneumoniae* ilə yanaşı *Pseudomonas aeruginosa* - da rast gəlinir. *P.aeruginosa* digərlərilə ilə müqayisədə daha çoxsaylı və müxtəlif antimikrob davamlılıq mexanizmləri nümayiş etdirir [11].

Ümumdünya Səhiyyə Təşkilatı hesab edir ki, antibiotiklərin misli görülməmiş istifadəsi və sonrakı antimikrob rezistentliyi, hazırda qlobal sağlamlıq, ərzaq təhlükəsizliyi və insan inkişafı üçün ən böyük təhlükələrdən biridir [8].

Getdikcə daha çox səhiyyə xidmətlərlə əlaqəli antimikroblara davamlı patogenlərin sayının artması səhiyyə sistemlərinə problem yaradır və mühüm qlobal iqtisadi xərclərə səbəb olur. Amerika İnfeksion Xəstəliklər Cəmiyyətinin son hesabatında bir qrup səhiyyə xidmətilə əlaqəli patogenlər "ESKAPE patogenləri" kimi qeyd edilib. ESKAPE - *Enterococcus faecium, Staphylococcus aureus, Klebsiella pneumoniae, Acinetobacter baumannii, Pseudomonas aeruginosa və Enterobacter* növlərindən ibarət həm qram-müsbət, həm də qram-mənfi növləri əhatə edən bakteriyalar qrupunun qısaldılmasıdır [18].

Antibiotik rezistentliyinin qarşısının alınması üçün 2015-ci il Ümumdünya səhiyyə təşkilatı bakteriya və göbələk əleyhinə antimikrob preparatlara qlobal nəzarət sistemi yaratmışdır. Bu sistemin 2022-ci illik hesabatı bu istiqamətdə aparılmış işlərin müsbət nəticələrini göstərmişdir [9].

ƏDƏBİYYAT

1. Alkan A., Erdem R., Kuh Z. ve b. Solunum Yolları Hastalıklarının Toplumsal Görüngüleri Üzerine Nitel Bir Araştırma Üniversitesi // Sosyal Bilimler Dergisi, 2021, 9(5), p.1353-1379
2. Doğan A. Dünyada ve Türkiye'de Kronik Solunum Hastalıklarının Epidemiyolojisi Fiziksel tip ve rehabilitasyon Bilimleri dergisi. Ankara, 2010
3. Guitor A.K., Wright G.D. Antimicrobial Resistance and Respiratory Infections // CHEST, 2018. 6, p.19
4. Bozkurt Toksun M. Pulmoner enfeksiyonlara yaklaşım // Bursa Uludağ Üniversitesi Göğüs Hastalıkları Ana Bilim Dalı, 2024, 23 (05)
5. Abdulhadi B., Kiel J. Mycoplasma Pneumoniae StatPearls [Internet] 2024 Jan. Treasure Island (FL) 2023 Jan 16
6. Felmingham D., Feldman C., Hryniewicz W. et al. Surveillance of resistance in bacteria causing community-acquired respiratory tract infections // Clinical microbiology and infection 2002
7. Stamm D.R., Stankewicz H.A. Atypical Bacterial Pneumonia // National Institutes of Health, 2023, July 31

8. Derbyshire E.J., Calder P.C. Respiratory Tract Infections and Antibiotic Resistance: A Protective Role for Vitamin D? // Nutritional Immunology Front. Nutr., 2012, 25 March
9. Global antimicrobial resistance and use surveillance system (GLASS) report, 2022
10. Əliyeva H. Tənəffüs yolları infeksiyalarının törədiciləri“ dərs vəsaiti. Bakı, 2017, s.18-19.
11. Kyd J.M., McGrath J., Krishnamurthy A. Mechanisms of bacterial resistance to antibiotics in infections of COPD patients Bentham Science Publishers 2011.
12. Ashurst J.V., Dawson A.. Klebsiella Pneumonia StatPearls [Internet] 2024 Jan. Treasure Island (FL): 2023 July
13. Bush L.M., Vazquez-Pertejo M.T. Инфекция, вызванная Moraxella catarrhalis. Справочник MSD Профессиональная версия сент. 2022
14. Brady M.F., Jamal Z., Pervin N.Acinetobacter. StatPearls Publishing 2024 Jan
15. Фесенко О.В., Синопальников А.И., Янина А.А. , Г.М. Токмулина и др. Рациональная антибактериальная терапия респираторных инфекций в реальной практике // Доктор.Ру. 2020, 19(5), с.67-73.
16. Öztürk R., Kınıklı S., Cesur S. Toplum kökenli pnömonilerde tanı ve tedavi // Turkısh Journal of Clinics and Laboratory, 2015, 6 (2), p.63-72
17. Kanwal S., Vaitla P. Streptococcus Pyogenes StatPearls [Internet] 2024 Jan. Treasure Island (FL) 2023 Jul 31.
18. Santajit S., Indrawattana N. Mechanisms of Antimicrobial Resistance in ESKAPE Pathogens PUB Med 2016
19. Белая Я.С., Лемешевский В.О. и д. Проблема антибиотикорезистентности Микроорганизмов в современном мире. Минск: ИВЦ Минфина, 2020.
20. World Health Organization (WHO) Mr José Luis Castro appointed as WHO Director-General Special Envoy for Chronic Respiratory Diseases 6 June 2024

Резюме

Возбудители респираторных бактериальных заболеваний и их антибиотикорезистентность

Р.М.Иманова, А.А.Кадырова

Респираторные заболевания являются одними из наиболее актуальных заболеваний в связи с их распространением в мире. Респираторные бактериальные заболевания вызывают *S.pneumoniae, S.pyogenes, H.influenzae, M.cataralis, S.aureus, A.baumannii, K.pneumoniae, P.aeruginosa, M.pneumoniae* и другие бактерии. Эти агенты также вызывают внутрибольничные инфекции, связанные с оказанием медицинской помощи. Из-за нерационального применения антибиотиков эти бактерии приобретают резистентность и затрудняют лечение вызываемых ими заболеваний.

Summary

Causative agents of respiratory bacterial diseases and their antibiotic resistance

R.M. Imanova, H.A. Gadirova

Respiratory diseases are among the most relevant diseases due to their spread in the world. Respiratory bacterial diseases are caused by *S.pneumoniae, S.pyogenes, H.influenzae, M.catarrhalis, S.aureus, A.baumannii K.pneumoniae, P.aeruginosa, M.pneumoniae* and other bacteria. These agents also cause healthcare-associated nosocomial infections. Due to the irrational use of antibiotics, they gain resistance and make it difficult to treat the diseases they cause.

Daxil olub: 15.08.2024

UOT: 618.146-006:615

Usaqlığın xərcəngönü xəstəlikləri, risk amilləri, profilaktikası

S.İ.Səfərova, Y.M.Hətəmov, N.C. Sadıqzadə
Azərbaycan Tibb Universiteti, Onkologiya kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: kombc@mail.ru

Açar sözlər: uşaqlıq, xərçəng, test, biopsiya, risk amilləri, HPV, endametriya, displaziya.
Ключевые слова: матка, рак, тест, биопсия, факторы риска, ВПЧ, эндометрий, дисплазия.
Key words: uterus, cancer, test, biopsy, risk factors, HPV, endometrium, dysplasia.

Uşaqlığın xərçəngönü xəstəlikləri, əsasən uşaqlıq boynu xərçəngi ilə əlaqəlidir. Bu xəstəliklər, displaziya mərhələlərindən başlayaraq, xərçəngə qədər irəliləyə bilər.

Uşaqlıq Boynu Xərçəngi. Uşaqlıq boynu xərçəngi serviks adlanan uşaqlıq boynunda yaranan xərçəngdir [1]. Xəstəlik, HPV (İnsan Papilloma Virus) infeksiyası ilə sıx bağlıdır. Hər il təxminən 500,000 yeni diaqnoz qoyulur və qadınlarda ən çox rast gəlinən beş xərçəng növündən biridir. Əlamətləri- Erkən mərhələlərdə əlamət vermir, lakin aşağıdakı əlamətlər ortaya çıxa bilər: Vaginal qanaxma, vaginada dolğunluq hissi, ağrılı cinsi əlaqə, pis qoxulu vaginal axıntı. Xəstəlik irəlilədikcə, digər əlamətlər də meydana gələ bilər: qanlı idrar, qəbizlik, şiddətli bel və qasıq ağrısı, ayaq ağrısı və şişkinlik [2,3].

Uşaqlıq yolunun xərçəngönü xəstəlikləri - Bu məqalədə uşaqlıq yolu xərçənginin nadir hallarda rast gəlinməsi və ginekoloji xərçənglərin 1%-ni təşkil etməsi haqqında məlumat verilir. Xəstəliyin 50% hallarda 70 yaşdan sonra meydana gəldiyi qeyd olunur.

Uşaqlıq boynu xərçəng önü xəstəlikləri - Uşaqlıq boynu xərçəngi, qadın reproduktiv sistemində süd vəzi xərçəngindən sonra ikinci yerdədir və qadın ölümünə səbəb olan xərçənglər arasında birinci yerdə durur [3,4,5].

Uşaqlıq boynunun displastik prosesləri - Uşaqlıq boynunun displastik prosesləri və xərçəngi zamanı alınan materialların 90-95%-də HPV-nin genetik materialı aşkar edilir. Bu, HPV-nin xərçəng riskini artırdığını göstərir.

Diaqnostik metodlar - Hər il dünyada 30 milyon qadına uşaqlıq boynunun yüngül dərəcəli displaziyası, 10 milyon qadına isə orta ağır və ağır displaziya diaqnozu qoyulur. Bu, erkən diaqnozun əhəmiyyətini vurğulayır [6,7].

Onkoloji xəstəliklərin profilaktikası - Uşaqlıq boynu xərçənginin profilaktikası üçün ÜST tərəfindən kompleks yanaşma tövsiyə edilir. Bu, müntəzəm müayinələr və HPV peyvəndi ilə mümkündür. Bu məqalə, uşaqlığın xərçəngönü xəstəlikləri haqqında daha ətraflı məlumat əldə etməyə kömək edəcək. Uşaqlığın xərçəngönü xəstəlikləri ilə bağlı daha çox məlumat üçün aşağıdakı mövzulara da diqqət yetirmək faydalı ola bilər [8,9,10].

Xərçəngin mərhələləri - Uşaqlıq boynu xərçənginin mərhələləri, xəstəliyin yayılma dərəcəsini müəyyən edir. Mərhələlər I-dən IV-ə qədərdir və müalicə planı bu mərhələlərə əsaslanır.

Uşaqlıq boynu xərçənginin mərhələləri, xəstəliyin inkişafını və yayılma dərəcəsini müəyyən edir. Ümumiyyətlə, mərhələlər aşağıdakı kimidir:

Mərhələ I: Xər çəng yalnız uşaqlıq boynunun iç hissəsindədir. Bu mərhələdə xərçəng hüceyrələri hələ də qonşu toxumalara yayılmamışdır.

Mərhələ II: Xərçəng, uşaqlıq boynunun xarici hissəsinə və ya yaxınlıqdakı toxumalara yayılır, lakin hələ də pelvik bölgədən kənara çıxmamışdır.

Mərhələ III: Xərçəng, pelvik bölgədəki toxumalara və ya vajinaya yayılır. Bu mərhələdə xəstəlik daha ciddi bir vəziyyətə çevrilir və müalicə daha çətin ola bilər.

Mərhələ IV: Xərçəng, uşaqlıq boynundan kənara, digər orqanlara (məsələn, sidik kisəsi, rektum və ya digər uzaq orqanlar) yayılmışdır. Bu mərhələ, xərçəngin ən irəliləmiş formasıdır və müalicə daha kompleksdir.

Müalicə Yanaşmaları:

Cərrahi müdaxilə: Xərçəngin erkən mərhələlərində, cərrahi müdaxilə ilə xərçəngli toxumaların çıxarılması mümkündür.

Radioterapiya: Xərçəngin müalicəsində radioterapiya, xərçəng hüceyrələrinin öldürülməsi üçün istifadə olunur.

Kimyaterapiya: İrəliləmiş mərhələlərdə, kimyaterapiya xərçəng hüceyrələrinin yayılmasını dayandırmaq üçün tətbiq edilir.

Uşaqlıq xərçənginin diaqnozu, bir neçə test və prosedur vasitəsilə qoyulur. Əsas diaqnostik metodlar aşağıdakılardır:

Fiziki müayinə: Həkim, xəstənin sağlamlıq tarix ini və simptomlarını öyrənir, eyni zamanda ginekoloji müayinə aparır. Bu müayinə zamanı həkim uşaqlıq və onun ətrafındakı strukturları qiymətləndirir.

Endometrial biopsiya: Uşaqlığın daxili səthindən (endometrium) toxuma nümunəsi alınır. Bu test, xərçəng hüceyrələrinin olub-olmadığını müəyyən etmək üçün istifadə olunur. Biopsiya, uşaqlıq xərçənginin diaqnozunda ən dəqiq nəticə verən metodlardan biridir.

Histeroskopiya: Uşaqlığın içini görmək üçün xüsusi bir cihaz (histeroskop) istifadə edilir. Bu prosedur zamanı həkim, şübhəli sahələri birbaşa görərək biopsiya ala bilər.

Ultrasonoqrafiya: Uşaqlığın və ətrafdakı orqanların görüntülənməsi üçün istifadə olunur. Bu test, şişlərin ölçüsünü və yerləşməsini qiymətləndirməkdə kömək edir [11,12,13,14].

Küretaj (D&C): Uşaqlıq boşluğundan toxuma nümunəsi almaq üçün istifadə edilən bir prosedurdur. Bu, endometrial biopsiya ilə birlikdə və ya alternativ olaraq həyata keçirilə bilər.

Müxtəlif görüntüləmə testləri: Xərçəngin yayılma dərəcəsini müəyyən etmək üçün CT, MRI və ya PET skanerləri istifadə edilə bilər. Bu testlər, xərçəngin digər orqanlara yayılıb-yayılmadığını göstərir [15].

Diaqnozun əhəmiyyəti:

Uşaqlıq xərçənginin erkən diaqnozu, müalicənin daha effektiv olmasına və xəstəliyin irəliləməsinin qarşısını almağa kömək edir.

Müayinə və testlərin nəticələri, müalicə planının tərtibində həkimə kömək edir.

Müalicə üsulları cərrahi müdaxilə və radioterapiya olaraq iki əsas qrupa bölünür.

Cərrahi müdaxilə, şişin ölçüsünə görə fərqli formalarda həyata keçirilə bilər.

HPV və Xərçəng Riski.

HPV infeksiyaları, uşaqlıq boynunda hüceyrə dəyişikliklərinin əsas səbəbidir.

Qadınların 50-80%-i HPV infeksiyası ilə qarşılaşa bilər, lakin bu, xərçəng demək deyil.HPV peyvəndi, virusun yaratdığı xərçənglərdən qorunmaq üçün ən etibarlı yoldur.

Qorunma və Müşahidə. 11-12 yaş arası uşaqlara HPV peyvəndi tövsiyə olunur.

Cinsi əlaqə zamanı prezervativ istifadə edilməsi, HPV riskini azaldır, lakin tam qoruma təmin etmir.

21-65 yaş arası qadınlar üçün müntəzəm PAP smear testləri ilə erkən diaqnoz mümkündür.

Psixoloji dəstək - Uşaqlıq boynu xərçəngi diaqnozu qoyulan qadınlar üçün psixoloji dəstək vacibdir. Xəstəliklə mübarizə aparan qadınlar üçün dəstək qrupları və məsləhət xidmətləri mövcuddur.

Tədqiqatlar və yeniliklər - Uşaqlıq boynu xərçənginin müalicəsi və profilaktikası ilə bağlı yeni tədqiqatlar davam edir. HPV peyvəndinin effektivliyi və yeni müalicə metodları haqqında məlumatlar, tibb aləmindəki yenilikləri izləmək üçün əhəmiyyətlidir.

Qadın sağlamlığına dair məlumatlar - Uşaqlığın xərçəngönü xəstəlikləri ilə bağlı məlumatların yayılması, qadınların sağlamlığına dair daha geniş bir anlayış yaratmağa kömək edir. Qadınların öz sağlamlıqlarını izləmələri və müntəzəm müayinələr etmələri tövsiyə olunur.

Bu mövzular, uşaqlığın xərçəngönü xəstəlikləri ilə bağlı daha geniş bir perspektiv təqdim edir və qadınların sağlamlığına dair məlumatlılığını artırır. Uşaqlığın xərçəngönü xəstəlikləri ilə bağlı daha çox məlumat üçün aşağıdakı aspektlərə də diqqət yetirmək faydalıdır:

Genetik faktorlar - Uşaqlıq boynu xərçənginin inkişafında genetik meyllərin rolu araşdırılır. Ailə tarixində xərçəng olan qadınlar, daha yüksək risk altında ola bilərlər.

Qidalanma və həyat tərzi - Sağlam qidalanma, müntəzəm fiziki fəaliyyət və siqaretdən uzaq durma, xərçəng riskini azaltmağa kömək edə bilər. Qidalanma vərdişləri, immun sistemini gücləndirərək, xəstəliklə mübarizədə əhəmiyyətli rol oynayır.

İnfeksiyaların rolu - HPV-dən başqa, digər infeksiyaların da (məsələn, Chlamydia) uşaqlıq boynu xərçənginin inkişafında rolu ola bilər. Bu infeksiyaların müalicəsi, xərçəng riskini azaltmağa kömək edə bilər.

Müalicə sonrası izləmə - Uşaqlıq boynu xərçəngi müalicə olunduqdan sonra, müntəzəm izləmə və müayinələr vacibdir. Bu, xəstəliyin təkrarlanma riskini azaltmağa kömək edir.

Təhsil və məlumatlandırma - Qadınların xərçəng riskləri və profilaktikası haqqında məlumatlandırılması, onların sağlamlıq qərarlarını daha yaxşı vermələrinə kömək edir. İctimai kampaniyalar və təhsil proqramları, bu sahədə əhəmiyyətli rol oynayır.

ƏDƏBİYYAT

1. Brisson M., Drolet M. Global elimination of cervical cancer as a public health problem // Lancet Oncol., 2019, 20(3), p.319-321.
2. Pimple S.A., Mishra G.A. Global strategies for cervical cancer prevention and screening // Minerva Ginecol., 2019, 71(4), p. 313-320.
3.Cervical Cancer Screening Every 5 Years OK // Cancer Discov. 2018, 8(10), p.1204.
4.Farghaly H., Bourgeois D., Houser P.M. et al. Routine vaginal Pap test is not useful in women status-post hysterectomy for benign disease // Diagn Cytopathol., 2006, 34(9), p.640-3.
5. Foran C., Brennan A. Prevention and early detection of cervical cancer in the UK. // Br J Nurs., 2018, 24(10), p.28-9.
6. Pierre-Victor D., Stephens D.P., Omondi A. et al. Barriers to HPV Vaccination Among Unvaccinated, Haitian American College Women // Health Equity, 2018, 2(1), p.90-97.
7. Manini I., Montomoli E. Epidemiology and prevention of Human Papillomavirus // Ann Ig., 2018, 30(4 Supple 1), p.28-32.
8. Ghosh I., Mandal R., Kundu P. et al. Association of Genital Infections Other Than Human Papillomavirus with Pre-Invasive and Invasive Cervical Neoplasia // J Clin Diagn Res., 2016, 10(2), p.1-6.
9. Habtemariam L.W., Zewde E.T., Simegn G.L. Cervix Type and Cervical Cancer Classification System Using Deep Learning Techniques // Med Devices (Auckl), 2022, 15, p.163-176.
10. Kuhn L., Denny L. The time is now to implement HPV testing for primary screening in low resource settings // Prev Med., 2017, 98, p.42-44.
11. Rauh-Hain J.A., Melamed A., Schaps D. et al. Racial and ethnic disparities over time in the treatment and mortality of women with gynecological malignancies // Gynecol Oncol. 2018, 149, p.4-11.

Резюме
Факторы риска и профилактика предраковых заболеваний шейки матки
С.И. Сафарова, Я.М. Хатамов, Н.К. Садыгзаде

Рак шейки матки остается серьезной проблемой женской репродуктивной системы. Рак шейки матки является вторым по распространенности злокачественным заболеванием репродуктивной системы после рака молочной железы. Заболевание развивается из стадий дисплазии (предракового состояния), что повышает важность своевременной диагностики и лечения. В статье авторы описали основные аспекты диагностики и лечения заболевания на современном этапе медицины.

Summary
Risk factors and prevention of precancerous diseases of the cervix
S.I. Safarova, Y.M. Khatamov, N.K. Sadygzade

Cervical cancer remains a serious problem of the female reproductive system. Cervical cancer is the second most common malignant disease of the reproductive system after breast cancer. The disease develops from the stages of dysplasia (precancerous condition), which increases the importance of timely diagnosis and treatment. In the article, the authors described the main aspects of diagnosis and treatment of the disease at the modern stage of medicine.

Daxil olub: 30.07.2024

UOT: 615.282.03-085

Qadınlarda urogenital kandidoz xəstəliklərinin xüsusiyyətləri

S.H.Həsənova, G.M.Seyidova
Azərbaycan Tibb Universiteti, mikrobiologiya və immunologiya kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: hesenovasevinc000@gmail.com

Açar sözlər: kandidoz, vaginal, biofilm, antifungal, antibiotiklər
Ключевые слова: кандидоз, вагинальные, биопленки, противогрибковые средства, антибиотики
Keywords: candidiasis, vaginal, biofilm, antifungal, antibiotics

Aparılan müşahidələr nəticəsində müəyyən edilmişdir ki, qadınların təqribən 70-75%-də heç olmasa həyatı boyu 1 dəfə vulvovaginal kandidoz inkişaf etmişdir. Bu xəstəliyə bir sıra amillər təsir edə bilər. Bunlara misal olaraq, immun çatışmazlığını, stress hallarını, gen polimorfizmini və s. aid etmək olar [1].

Kultivasiya üsulunu tədqiq etməklə müəyyən olunmuşdur ki, Candida cinsli göbələklər hamilə qadınların ən az 20%-də, immun çatışmazlığı olan şəxslərin isə ən az 30%-də kolonizasiya olunmuşdur. Candida növləri arasında ən çox rast gəlinən *Candida albicans* olmuşdur. Daha az rast gəlinənlər isə *C.glabrata, C.tropicalis, C.krusei, C.parapsilosis* və s. [2].

C.albicans – pleomorf göbələklərə aiddir. Yəni,müxtəlif formalarda inkişaf edə bilər. Məsələn, qönçələnən maya formasında.uzununa birləşmiş hiflərdən ibarət olan psevdomisel formasında və s. Eyni zamanda qeyri-cinsi variasiya formasını da nümayiş etdirə bilir. Qeyri-cinsi variasiya forma fərqli xüsusiyyətlərə malik sabit koloniyalar əmələ gətirmək qabiliyyədir [3]. Penetrasiya zamanı C.albicans müxtəlif hidrolitik fermentlər ifraz edir. Bu fermentlər epitelial hüceyrə əlaqəsinə təsir edir və hüceyrə komponentlərini deqradasiyanı asanlaşdırır. Candidaların əsas virulentlik amili olan biofilmin əmələ gəlməsi müxtəlif xəstəxanadaxili infeksiyalara səbəb olur. Bir sıra tibbi alətlərin üzərində Candidalar asanlıqla biofilm əmələ gətirə bilirlər. Bunu müşahidə etmək üçün, alətlərdə ümumi istifadə edilən silikondan istifadə edilir. Belə ki, kiçik silikon parçası Candida kulturasına əlavə edilir. İlkin inokulyasiya nəticəsində yapışma baş verir. Yapışmayan hüceyrələr yuyulur və biofilmin əmələ gəlməsi üçün zaman verilir. 24 saat keçdikdən sonra silikon parçanın üzərində ağ buluda bənzər görüntü yaranır. Mikroskop altında baxdıqda ayrı-ayrı hüceyrələri görmək mümkündür [4].

C.glabrata. Daha çox ətraf mühitdə rast gəlinir; çiçəklərdə,yapraqlarda,səthlərdə və s. *Candida glabrata* vasitəsi ilə törədilən invaziv kandidozlarda ölüm göstəricisi 40-60% təşkil edir. Bu azollara qarşı aşağı həssaslıqla əlaqəli ola bilər. *C.albicans*-dan fərqli olaraq hif əmələ gətirmək qabiliyyətindən məhrumdur [5]. Virulentlik faktorlarına aiddir; yüksək temperatur və Ph diapazonunda inkişaf edə bilməsi. İnsan orqanizmində sürətlə inkişaf etməsinə səbəb optimal tempraturun 37°C olması, hətta 42°C-də belə böyümə qabiliyyətini itirməməsidir.

Göbələklərlə təmasda olan ilkin hüceyrə örtüyü VEC, yəni vagina epiteli kolonizasiyasıdır. VEC, əsasən, ilkin qoruma,müdafiə rolunda çıxış edir. Bu təbəqə müxtəlif transmembran zülalları, məsələn F11R, klaudin-1, TJP1 və s. tərəfindən bir yerdə saxlanılır. Nəticədə, göbələklərin yayılması məhdudlaşdırılır və hüceyrə bütövlüyü qorunur [6]. VEC-in həmçinin, patogen tanıyan reseptorların (PRR) aktivləşməsində rolu mühümdür. Belə ki, patogenlərin üzərində PAMP-lar sintez olunur. PAMP patogenlə əlaqəli olan molekulyar nümunələrdir. PRR-lər PAMP-larla baglandıqdan sonra göbələklərin (Candidaların) varlığının aşkar edilməsi asanlaşır. Candidaların vaginal divara məskunlaşıb yapışmasında ən böyük rol mannoproteinlərə məxsusdur [7]. Mikroorqanizmlər yapışma nəticəsində biofilmlər əmələ gətitirlər. Bu biofilmlər birhüceyrəli mikroorqanizmlərin aqreqatları olmaqla çoxhüceyrəli strukturlar əmələ gətirirlər. Müəyyən göbələk hüceyrələri və eyni zamanda vaginal selikli qişa bakteriyaları biofilmlərə təsir göstərə bilərlər. Belə ki,vulvovaginal kandidozun yaranmasına təsir edən mühüm faktorlarından biri də vaginal mayaların biofilm əmələ gətirmə qabiliyyətidir [8]. C.albicans-da biofilmin inkişafı 4 tsikldan ibarətdir. İlk mərhəlı yapışmadır. Bu mərhələdə maya hüceyrələri materialın səthinə yapışır və bazal təbəqə yaranır. Bu bazal təbəqə biofilmi səthə bağlamaq üçündür. İkincə mərhələ yayılma mərhələsidir ki,buna proliferasiya da deyilir.

Filamentləşmənin başlaması, hif və psevdohifal hüceyrələrin yaranması ilə xarakterizə olunan mərhələdir. Üçüncü mərhələ yetişmə mərhələsidir. Bu zaman hifal hüceyrələr ekzopolimer maddələr örtüyü ilə əhatə olunur. Ekzopolimerlər biofilmin bütövlüyündə mühüm rol oynayır [9].

Kandidoz premenopozal və postmenopozal dövrdəki qadınlarda müxtəlif cür təzahür edir. Belə ki, premenopozal dövr qadınlarda daha çox vulva və vestibuluma təsir etdiyi halda ,postmonopozal dövr qadınlarında qasıq nahiyəsinə daha çox təsir edir. Simptomlar isə əsasən premenopozal dövr qadınlarında mensturasiyadan əvvəl meydana çıxır [10]. Vulvovaginal kandidozun ən çox bilinən əlamətləri yanma,qaşınma hallarıdır. Bunlardan əlavə qızartıların olması, ağ kəsmiyə bənzər axıntının olması, cinsi əlaqədə olan zaman ağrıların olması,vaginal quruluq və s. Əlbəttəki hər zaman bu halların olmasının tək səbəbi kandidoz olmur [11]. İnsanların normal vaginal mikrobiomunda *Lactobacillus spp.* üstünlük təşkil edir. Belə ki, bu cins bütün bakteriyaların 70%-ni təşkil edir. Laktobakteriyaların olmasının vacibliyi ondan ibarətdir ki, laktik turşu istehsal etmək üçün qlikogeni və onun parçalanma məhsullarını emal edir. Və nəticədə vaginada ph≤4.5-ə bərabər olur [12]. Laktobasillər vaginada normanı təmin edir. Belə ki,laktobasillərin sayının azalması bir sıra xəstəlik riskini artırır [13].

Vulvovaginal kandidozun(VVC) kəskin simptomatik epizodu təkrarlanan vulvovaginal kandidoz adlanır(RVVC). RVVC təqribən VVC-a yoluxmuş qadınların 9%-də rast gəlinir. Lakin 2018-ci ildə aparılmış tədqiqat göstəmişdir ki, RVVC dünya üzrə 138 milyon qadında rast gəlinir. Bu rəqəmin irəli zamanlarda daha çox olacağı,158 milyona çatacağı güman edilir.RVVC əksər qadınlarda 1-2 il davam etsə də, 4-5 il davam etdiyi hallarda müşahidə olunmuşdur. RVVC infeksiyası baş verən zaman törədicələr Toll-bənzər reseptorlar tərəfindən tanınır [14]. Nəticə də sitokinlər situmullaşır və törədicini məhv etmək üçün faqositlər və T hüceyrələr cəlb olunur. RVVC olan qadınlarda genetik mutasiyalar müşahidə olunur. Genetik mutasiyalara aiddir; mannoz bağlayan lektin 2-də və TLR2-də polimorfizmlər . Bu dəyişkənliklər VVC- qarşı həssaslığı artırır [15].

Bir sıra araşdırmalar aparılmış və müəyyən edilmişdir ki, 20-29 yaş aralığında olan qadınlarda Candidalar tərəfindən törədilən vaginit üstünlük təşkil edir. Bir sonraki araşdırmalar göstərdiki, son zamanlar kandidoz 35 yaşdan aşağı hamilə qadınlarda kəskin surətdə artmışdır.Belə ki, 26-35 yaş aralığında hamilə qadınlarda Candida növlərinin aşkar olunması 60% təşkil etmişdir. Lakin, bu göstərici 36 yaşdan yuxarı hamilə qadınlarda daha az olmuşdur. Belə ki 36-45 yaş aralığında 12%, 46 yaşdan yuxarı isə bu göstərici 2%-ə qədər azalmışdır. Göstəricilərdə olan bu fərqlərinin başlıca səbəbləri kimi zəif gigeniya,yüksək cinsi aktivlik və s. görünür [16]. Kandidoz infeksiyalarında bir sıra dərman preparatlarından istifadə edirlər. Bunlar patogen maya hüceyrəsinə ya fungisid, ya da fungistatik təsir göstərirlər. Təsir mexanizmində əsas məsələ ya hüceyrə divarının, ya hüceyrə membranının və ya RNT-nin biosintezinə təsir etməkdir. Göbələk hüceyrələrinin əsas sterol kompenentlərinə aiddir; erqosterol, plazma və mitoxondrial membran [17]. Candida infeksiyalarında ən çox azol preparatlarından istifadə edilir. 14α-demetilaz erqosterol biosintezində mühüm yer tutur. Azolların da təsir obyekti bu fermentdir [18]. Echinocandins yeni bir dərman sinifidir ki, bütün candidalara qarşı müəyyən funqisid təsirə malik olduğu bilinmişdir. Bu dərman sinfinə aiddir; kaspofungin,mikafungin və anidulafungin [19]. Exinokandin istifadəsi zamanı göbələk hüceyrə membranında mövcud olan qlükan sintezi dayanır. Buna səbəb exinokandinlərin beta D qlükan sintatazasını inhibə etmələridir. Nəticədə hüceyrədə qlükan polimerləri azalır və anormal hüceyrə divarı yaranır [20].

C.albicans"ın dərman preparatlarına qarşı davamlı olmasının səbəblərindən biri də onun hüceyrədən kənar matrisidir. Hüceyrədən kənar matris təşkil olunmuşdur; zülal, karbohidrat, lipid və hüceyrədənkənar DNT-dən [21]. Matris 2 funksiya daşıyır. O, həm biofilmin strukturunu dəstəkləyir, həm də dərmanın nüfuz etməsinə qarşı mane törədir. Məsələn, C.albicans biofilmində olan qlükan və mannanlar [22].

ƏDƏBİYYAT

1. Thais C.F., Reginaldo dos Santos P. Alternative and complementary therapies for vulvovaginal candidiasis // Folia Microbiol., 2019, 2018(64), p.133-141.
2. Soll D.R. The role of phenotypic switching in the basic biology and pathogenesis of Candida albicans // J Oral Microbiol., 2014, 6, 22993
3. Netea M.G., Joosten L.A.B., van der Meer J.W.M. et al. Immune defence against Candida fungal infections // Nat Rev Immunol., 2015, **15**, p.630-642.
4. Kumar K., Askari F., Sahu M.S. et al. Candida glabrata: A Lot More Than Meets the Eye // Microorganisms, 2019, 7, p.39.
5. McCarty T.P., Pappas P.G. Invasive Candidiasis // Infect Dis Clin North Am., 2016, 30(1), p.103-24

6. Timmermans B., De Las Peñas A., Castaño I. Adhesins in Candida glabrata // J. Fungi., 2018, 4, p.60.
7. Schwarzmüller T., Ma B., Hiller E. et al. Systematic Phenotyping of a Large-Scale Candida glabrata Deletion Collection Reveals Novel Antifungal Tolerance Genes // PLoS Pathog. 2014, 10
8. Ardizzoni A., Wheeler R.T., Pericolini E. It Takes Two to Tango: How a Dysregulation of the Innate Immunity, Coupled With Candida Virulence, Triggers VVC Onset // Front. Microbiol., 2021, 12, 692491.
9. Mitchell K.F., Zarnowski R., Andes D.R. The Extracellular Matrix of Fungal Biofilms // Adv Exp Med Biol., 2016, 931, p.21-35.
10. Pierce C.G., Vila T., Romo J.A. et al. The Candida albicans Biofilm Matrix: Composition, Structure and Function // J Fungi (Basel), 2017
11. Mirmonsef P., Hotton A.L., Gilbert D. Free glycogen in vaginal fluids is associated with Lactobacillus colonization and low vaginal pH // PLoS ONE, 2014, 9102467
12. Aldunate M., Srbinovski D., Hearps A.C. et al. Antimicrobial and immune modulatory effects of lactic acid and short chain fatty acids produced by vaginal microbiota associated with eubiosis and bacterial vaginosis // Front. Physiol., 2015, 6, 164
13. Denning D.W., Kneale M., Sobel J.D. et al. Global burden of recurrent vulvovaginal candidiasis: a systematic review // Lancet Infect Dis., 2018, 18(11), p.339-347.
14. Sobel J.D. Recurrent vulvovaginal candidiasis // Am J Obstet Gynecol., 2016, 214(1), p.15-21.
15. Gonçalves B., Ferreira C., Alves C.T. et al. Vulvovaginal candidiasis: epidemiology, microbiology and risk factors // Crit Rev Microbiol., 2016, 42(6), p.905-927.
16. Rosati D., Bruno M., Jaeger M. et al. Recurrent vulvovaginal candidiasis: an immunological perspective // Microorganisms, 2020, 8(2), p.144
17. Bitew A., Abebaw Y. Vulvovaginal candidiasis: species distribution of Candida and their antifungal susceptibility pattern // BMC Women's Health, 2018, 18, p.94.
18. Kodedová M., Sychrová H. Changes in the Sterol Composition of the Plasma Membrane Affect Membrane Potential, Salt Tolerance and the Activity of Multidrug Resistance Pumps in Saccharomyces cerevisiae // PLoS ONE. 2015, 10, 0139306
19. Bhattacharya S., Esquivel B.D., White T.C. Overexpression or Deletion of Ergosterol Biosynthesis Genes Alters Doubling Time, Response to Stress Agents and Drug Susceptibility in Saccharomyces cerevisiae // mBio, 2018, 9, 01291-18
20. Nett J.E., Andes D.R. Antifungal agents: spectrum of activity, pharmacology, and clinical indications // Infect. Dis. Clin. North Am., 2016, 30, p.51-83
21. Grossman N.T., Chiller T.M., Lockhart S.R. Epidemiology of echinocandin resistance in Candida // Curr. Fungal Infect. Rep., 2014, 8, p.243-248
22. Nett J.E., Andes D.R. Contributions of the biofilm matrix to Candida pathogenesis // J Fungi, 2020, 6

Summary

Features of urogenital candidose diseases in women

S.H. Hasanova, G. M. Seyidova

Vulvovaginal candidiasis (VVC) is an inflammation of the vagina and vulva due to a fungal infection. This infection is primarily caused by the yeast *Candida albicans*, though other *Candida* species can also be responsible. VVC presents with symptoms in women such as itching, burning, swelling, painful urination, and painful sexual intercourse. A thick, cheese-like white discharge is also commonly observed in patients. Factors that increase the risk of infection include pregnancy, diabetes, weakened immune system, and irrational use of antibiotics.

Резюме

Особенности урогенитальных кандидозных заболеваний у женщин

С. Х. Гасанова, Г. М. Сеидова

Вульвовагинальный кандидоз — это воспаление влагалища и вульвы, вызванное грибковой инфекцией. Эту инфекцию в первую очередь вызывают дрожжи Candida albicans, хотя причиной могут быть и другие виды рода Candida. ВВК у женщин проявляется такими симптомами, как зуд, жжение, отек, болезненное мочеиспускание и болезненный половой акт. У пациенток также часто наблюдаются густые, творожистые белые выделения. Факторами, повышающими риск заражения, являются беременность, диабет, ослабленная иммунная система и нерациональное применение антибиотиков.

Daxil olub: 23.07.2024

UOT: 616.71-007

Müxtəlif mənşəli osteoporozlar zamanı adipokinlər və apoptoz faktorlarının rolu

H.E. Həsənova, N.A. Həsənova, Ü.R. Hacıyeva, M.Y. Əlizadə, Ş.Ş.Əmiraslan
Azərbaycan Tibb Universiteti, Biokimya kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: humayhasanova25@gmail.com

Açar sözlər: adipokin, adiponektin, apoptoz induksiyaedici amil, apoptoz, NO, osteoporoz, rezistin, visfatin
Ключевые слова: адипокин, адипонектин, фактор индуцирующий апоптоз, апоптоз, NO, остеопороз, резистин, визфатин.
Keywords: Adipokine, adiponectin, apoptosis-inducinq factor, apoptosis, NO, osteoporosis, resistin, visfatin.

Müasir təbabətin aktual problemlərindən biri sayılan osteoporoz sümük toxumasının zədələnməsi, sıxlığının azalması, sümüklərin kövrəkləşməsi, deformasiyası və sınığı ilə səciyyələnən sümük patologiyasıdır. Piy toxumasından ifraz edilən və metabolik homeostazın tənzimlənməsində iştirak edən adipokinlərin səviyyəsinin dəyişilməsi sümük kütləsində dəyişikliklərə səbəb olur [1]. Adipokinlərin nümayəndələrindən olan adiponektin əsasən sümük rezorbsiyasını gücləndirməklə sümük toxumasına mənfi təsir göstərir [2]. Adipokinlərin nümayəndələrindən biri olan visfatin nüvə faktoru kappa-B ligandı (RANKL) tərəfindən induksiya olunan osteoklast diferensasiyasını gücləndirir və sümük rezorbsiyasına təsir göstərir [3]. Adiponektinlərin nümayəndələrindən olan rezistin, nüvə faktoru kappa-B promotorunun aktivliyini artırmaqla osteoklastogenez prosesinə təsir göstərir və sümük rezorbsiyasını gücləndirir [4]. Beləliklə, rezistin osteoporoz riskinin qiymətləndirilməsində potensial biomarker hesab olunur [5]. Apoptoz, yəni proqramlaşdırılmış hüceyrə ölümü osteoporozun patogenezində mühüm rol oynayır. Apoptozun biomarkerlərindən olan apoptoz İnduksiyaedici amil (AİF) osteoblastların apoptotik ölümünün güclənməsinə, sümük sıxlığının azalmasına və osteoporotik sınıq riskinin artmasına səbəb olur [6]. Bioloji proseslərdə iştirak edən və oksidativ stress göstəricisi kimi tanınan azot oksidin (NO) sintezinin azalması osteoklast aktivliyini artıraraq sümük rezorbsiyasına təsir göstərir. NO sintezinin artması isə osteoblastların fəaliyyətini pozaraq sümük əmələgəlmə prosesinin zəifləməsinə gətirib çıxarır [7, 8]. Tədqiqat işi aktual problem olan osteoporozun biokimyəvi mexanizmlərinə həsr olunub.

Tədqiqatın məqsədi. Tədqiqat işinin məqsədi osteoporozlu, osteoporotik sınıqları, həmçinin şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrin qan serumlarında adipokinlərin nümayəndələrindən – adiponektin, visfatin, rezistinin, apoptozun inkişafının əsas markerlərindən – apoptoz İnduksiyaedici amilin (AİF) və oksidativ stress göstəricisi – azot-oksidin (NO) öyrənilməsi və təyin olunan parametrlərin xəstəliyin diaqnostikası və proqnozlaşdırılmasında rolunun müəyyən edilməsindən ibarətdir.

Tədqiqatın material və metodları. Tədqiqat işinə Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə və Tədris Terapevtik klinikalarına sınıqla müraciət edən xəstələr daxil edilmişdir. Laborator analizlər Azərbaycan Tibb Universitetinin Biokimya kafedrasında "Mindray BA-88A" cihazı ilə aparılmışdır.

Tədqiqata yaşı 30-80 aralığında osteoporoz mənşəli sınıqları olan 43 nəfər daxil edilmişdir. Tədqiqat işinə daxil olan ümumi 49 nəfəri 4 qrupda təsnif etmişik. Birinci qrupa praktik sağlam şəxslərdən ibarət 6 nəfər daxil edilmişdir. Yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrin daxil olduğu ikinci qrupa 10 nəfər daxil edilmişdir. Osteoporotik sınıqları olan xəstələrin daxil olduğu üçüncü qrupa 18 nəfər daxil edilmişdir. Şəkərli diabet (ŞD) fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət dördüncü qrupa isə 15 nəfər daxil edilmişdir.


Praktik sağlam, osteoporozlu, osteoporotik sınıqları və şəkərli diabet fonunda osteoporotik sınıqları olan şəxslərin qan serumlarında adipokinlərin və apoptoz göstəricilərinin səviyyəsi immunoferment analiz üsulları (İFA) ilə təyin edilmişdir. Statistik analizin zamanı parametrik üsullardan istifadə edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Tədqiqata daxil edilmiş praktiki sağlam şəxslərdən ibarət birinci qrupda (6 nəfər) adiponektinin orta səviyyəsi 232,14 pq/ml olmuşdur. Yanaşı xəstəlikləri olmayan

osteoporozlu xəstələrin daxil olduğu ibarət ikinci qrupda (10 nəfər) adiponektinin orta səviyyəsi 275,64 pq/ml olmuşdur. Üçüncü qrupda – osteoporotik sınıqları olan xəstələrdə (18 nəfər) adiponektinin orta qatılığı nisbətən yüksələrək orta hesabla 340,28 pq/ml olmuşdur. Şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət dördüncü qrupda isə (15 nəfər) adiponektinin səviyyəsi orta hesabla 289 pq/ml olmuşdur.

Kontrol qrupuna daxil olan ümumi 6 nəfərdə visfatinin orta qatılığı 9,83 pq/ml olmuşdur. Yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrdən ibarət 10 nəfərdə visfatinin orta qiyməti 13,4 pq/ml, osteoporotik sınıqları olan xəstələrdən ibarət 18 nəfərdə 15,7 pq/ml, şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət 15 nəfərdə isə 18,2 pq/ml olmuşdur.

Praktik sağlam şəxslərdən ibarət 6 nəfərdə rezistinin səviyyəsi orta hesabla 30,84 nq/ml olmuşdur. Yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrin daxil olduğu 10 nəfərdən ibarət qrupda rezistinin orta qiyməti 37,05 nq/ml, osteoporotik sınıqları olan xəstələrdən ibarət 18 nəfərdə rezistinin orta qiyməti 42,1 nq/ml olmuşdur. Şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət 15 nəfərdən ibarət qrupda isə rezistinin orta qiyməti 49,4 nq/ml olmuşdur.



Qrafik 1. Tədqiq olunan şəxslərdə adiponektin (pq/ml), visfatin (pq/ml) və rezistinin (nq/ml) qatılığının dəyişilməsi


Kontrol qrupuna daxil olan 6 nəfərdə apoptozun inkişafının əsas markerlərindən olan apoptoz İnduksiyaedici amilin səviyyəsi 0,98 nq/ml olmuşdur. Yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrdən təşkil edilmiş 10 nəfərdən ibarət qrupda AİF-in orta qiyməti 1,63 nq/ml, osteoporotik sınıqları olan xəstələrdən ibarət 18 nəfərdə 2,26 nq/ml, şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət 15 nəfərdə isə 3,7 nq/ml olmuşdur.

Praktik sağlam şəxslərin daxil olduğu 6 nəfərdən ibarət qrupda azot oksidin orta qatılığı 11,5 mmol/l, yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrdən ibarət 10 nəfərdə isə NO-nun orta qatılığı 11,8 mmol/l olmuşdur. Osteoporotik sınıqları olan 18 nəfərin daxil olduğu qrupda NO-nun orta qiyməti 13,6 mmol/l, dördüncü qrup olan şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət 15 nəfərdə isə NO-nun səviyyəsi 12 mmol/l olmuşdur.

Praktik sağlam şəxslərdən ibarət qrup ilə yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrdən ibarət qrupun müqayisəsi zamanı adiponektin, visfatin, rezistin, AİF və NO səviyyəsi müvafiq olaraq 15,8%, 26,6%, 16,7%, 39,9% və 2,5% artmışdır.

Kontrol qrupu ilə osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupun müqayisəsinə nəzər yetirsək, adiponektin 31,8%, visfatin 37,4%, rezistin 26,7%, AİF 56,6%, NO isə 15,4% artmışdır. Sağlam şəxslərin daxil olduğu qrup ilə şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupun müqayisəsi zamanı adiponektin, visfatin, rezistin, AİF və NO səviyyəsi müvafiq olaraq 19,7%, 46%, 37,6%, 73,5% və 4,2% yüksəlmişdir. Yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrdən ibarət qrup ilə osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupun müqayisəsində adiponektin 19%, visfatin 14,6%, rezistin 12%, AİF

27,9%, NO isə 13,2% artmışdır. Yanaşı xəstəlikləri olmayan osteoporozlu xəstələrdən ibarət qrup ilə şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupun müqayisəsi zamanı adiponektin, visfatin, rezistin, AİF və NO səviyyəsi müvafiq olaraq 4,6%, 26,3%, 25%, 55,9%, 1,7% artmışdır. Osteoporotik sınıqları olan xəstələrdən ibarət qrup ilə şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupun müqayisəsinə nəzər yetirsək adiponektin və NO səviyyəsi 15% və 11,8% azalmış, visfatin, rezistin və AİF səviyyəsi isə 13,7%, 14,8%, 38,9% artmışdır.



Qrafik 2. Tədqiq olunan şəxslərdə AİF (nq/ml) və NO (mmol/l) qatılığının dəyişilməsi

Yekun. Tədqiqatın nəticələrindən aydın olur ki, osteoporoz zamanı sümük rezorbsiyasının artması və sümüklərin mineral sıxlığının azalması qan serumunda adiponektin səviyyəsinin yüksək olması ilə biləvasitə əlaqədardır. Osteoporozlu xəstələrdə iltihabi prosesləri tənzimləyən visfatin və rezistinin səviyyəsində də artım müşahidə edilmişdir. Osteoporoz zamanı osteosit və osteoblastların apoptotik ölümü gücləndiyi üçün apoptoz İnduksiyaedici amilin səviyyəsində artım müşahidə edilir. Osteoporozlu xəstələrdə endotel funksiyasının dəyişməsi və qan damarlarının genişlənməsi ilə əlaqədar olaraq NO səviyyəsində artma müşahidə edilmişdir.

Müqayisəli təhlil göstərir ki, adiponektinin səviyyəsi osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupda digər qruplarla müqayisədə daha çox artmışdır (31,8%). Visfatin, rezistin və AİF səviyyəsi şəkərli diabet fonunda osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupda digər qruplarla müqayisədə daha çox artmışdır (46%, 37,6% və 73,5%). NO səviyyəsi isə osteoporotik sınıqları olan xəstələrdən ibarət qrupda digər qruplarla müqayisədə daha çox artmışdır (15,4%).

Osteoporoz zamanı sümüklərdə baş verən metabolizm pozulmalarının biokimyəvi-molekulyar mexanizmlərinin tədqiqində bu göstəricilərin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Darren M., Nikolay P., Melissa M. The relationship between adipokine levels and bone mass-A systematic review // Endocrinol Diabetes Metab. 2023, 6(3), 408.

2. Anna L., Aleksandra D. Adiponectin as a biomarker of osteoporosis in postmenopausal women: controversies / National Library of Medicine // Dis Markers, 2014, 2014, 975178.

3. Chanq Y.O., Ryuk J.K. Visfatin Enhances RANKL-Induced Osteoclastogenesis In Vitro: Synergistic Interactions and Its Role as a Mediator in Osteoclast Differentiation and Activation // Biomolecules, 2024, 14 (12)

4. Liv T., Astrid K.S. Expression and regulation of resistin in osteoblasts and osteoclasts indicate a role in bone metabolism // J Cell Biochem., 2006, 99(3), p824-34.

5. Sundus T., Saba T. Serum Resistin Levels and Related Genetic Variants Are Associated With Bone Mineral Density in Postmenopausal Women // Front Endocrinol (Lausanne). 2022, 13, 868120.
6. Erdem A. Osteoporoz ve egzersiz // Spor Hekimliği dergisi, 2014, 50(4), p.1393-402.
7. Zhao Y., Zhanq R., Li J., et all. Dysregulation of nitric oxide synthesis contributes to enhanced osteoclastogenesis in postmenopausal osteoporosis / Bone, 2021, 148, 116041
8. Wanq L., Zhou H., Chen H. Nitric oxide modulates osteoblast function and bone formation: Insights into its role in bone remodelinq // Journal of Cellular Physiology, 2020, 235(7), 5589-5600

Резюме

Роль адипокинов и факторов апоптоза в различных оригинах остеопороза

Х.Э. Гасанова, Н.А. Гасанова, У.Р. Гаджиева, М.Й. Ализада, Ш.Ш.Эмирслан

Остеопороз, встречающийся во всех странах мира, в последние годы стал интенсивным объектом исследования. Он считается одной из ведущих причин инвалидности и смертности среди пожилых людей по всему миру. Согласно данным Всемирной организации здравоохранения, остеопороз занимает четвертое место среди неинфекционных заболеваний по распространенности, уступая только сердечно-сосудистым заболеваниям, онкологическим заболеваниям и диабету, и его заболеваемость увеличивается с возрастом. Адипокины, факторы апоптоза и маркеры окислительного стресса играют важную роль в метаболизме костей и патогенезе остеопороза. В статье приведена подробная информация о адипонектине, визфатине, резистине, факторе, индуцирующем апоптоз, и оксиде азота, которые играют ключевую роль в изменениях плотности костей.

Summary

The role of adipokines and apoptosis factors in various origins of osteoporosis

H.E. Hasanova, N.A. Hasanova, U.R. Hajiyeva, M.Y. Alizade, Sh.Sh.Amirslan

Osteoporosis, which is encountered in all countries worldwide, has become an intensive research subject in recent years. It is considered one of the leadinq causes of disability and mortality amonq elderly individuals globally. Accordinq to the World Health Organisation, osteoporosis ranks fourth amonq non-infectious diseases in terms of prevalence, followinq cardiovascular diseases, oncological diseases, and diabetes mellitus, and its incidence increases with age. Adipokines, apoptosis factors, and oxidative stress markers play a significant role in bone metabolism and the pathogenesis of osteoporosis. This article provides detailed information on adiponectin, visfatin, resistin, apoptosis-inducinq factor, and nitric oxide, which play a crucial role in chanqes in bone density.

Daxil olub: 18.07.2024

UOT: 574.2:016

Ətraf mühitin mühafizəsi və ekologiyaya dair elmi ədəbiyyatın biblioqrafiyasının qısa xarakteristikası

İ.Z.Əliyeva
Azərbaycan Respublika Dövlət Elmi tibb Kitabxanası, Bakı

Müəllifin elektron poçt ünvanı: irada40@rambler.ru

Açar sözlər: ekologiya, ətraf mühit, sağlamlıq, sənəd axını, sənəd kütləsi, biblioqrafiya
Ключевые слова: экология, окружающая среда, здоровье, документальный поток, документальный массив, библиография
Key words: ecology, environment, health, document flow, document management, bibliography

Dünyada yaşayan insanların sayının yüz minlərlə ölçüldüyü dövrlərdə şüurlu insanın ətraf mühitə göstərdiyi təsir çox cüzi idi və təbiətdə əsaslı dəyişikliklərə səbəb olmurdu. Lakin insan populyasiyasının sayının milyonlara çatması insanın təbiətə göstərdiyi təsir təbiətdə destruktiv geriyədönməz dəyişikliklərə səbəb olmuşdur [1].

Azərbaycanın canlı aləminə gəldikdə isə qeyd etməliyik ki, ölkədə əhali sayının tədricən artması heyvan, quş və balıq populyasiyalarının həcminin dəfələrlə azalmasına, təbiətə olan təsirin güclənməsi nəticəsində meşələrin qırılması və sahəsinin dəfələrlə azalmasına, zəngin bitki örtüyündən məhrum olmasına səbəb olmuşdur. Məsələn, vaxtı ilə Azərbaycan ərazisində geniş yayılmış şirin son nümayəndəsi 1937-ci ildə Talış meşələrində öldürülmüşdür. Vaxtı ilə ölkəmizin çaykənarı tuqay meşələrində, qamışlıqlarda geniş yayılmış Turan pələnglərinin də aqibəti oxşar olmuşdur. XX əsrin 70-ci illərinə qədər nadir hallarda olsa da, rast gəlinən bu heyvan artıq yoxdur. Təəssüf ki, ölkəmizin ərazisində nəsli kəsilmiş belə heyvan, quş və bitki növlərinin siyahısı xeyli uzundur. "Azərbaycanın canlı aləminə dəyən ziyan nəticəsində bir çox növlərin nəslinin kəsilməsi, digərlərinin belə təhlükə qarşısında olması respublikanın "Qırmızı kitabı"nın səhifələrində öz əksini tapmışdır" [2].

При этом ткань кости распространяется от старой к временной ткани и образует мостик на поверхности имплантанта. Когда будет достигнута определенная толщина костной ткани, с параллельными волокнами и после этого пластинчатое отложение кости, окружающее множественные первичные остеоничные структуры на границе имплантанта-кости. Эти серии трансформации и увеличат контакт кости с имлантом и будет способствовать повышению вторичной стабильности [12,13].

Надо отметить, что первичная стабильность сразу после установки имплантанта со временем снижается, а вторичная (прилегание кости к поверхности имплантанта) со временем увеличивается. Это и объясняет общую стабильность зубного имплантанта [14].

Первичная стабильность имплантанта снижается на ранней стадии заживления, так как происходит образование микротрещин и некроз кости из-за процесса сверления. Сдавление имплантанта стенками созданного ложа запускает резорбцию кости.

В данных случаях апоптоз остеоцитов обеспечивает очень важную часть активации, которые запускает (сигнальные механизмы), с помощью которых остеокласты нацеливаются на кость для удаления поврежденного матрикса.

Более того, теоретически и экспериментально [12,13,14] была доказана клеточно-опосредованная резорбция кости и от первоначальной костной стенки к поверхности имплантанта. Со временем резорбированная область изменяется вновь сформированной тканью кости. Она и восстановит в конечном итоге контакт с интерфейсом имплантанта и многократно ремоделируется до пластинчатой конфигурации, что поддержит имплант на протяжении всего его срока службы.

Вышеупомянутая теория не только подтверждает, что снижение общей стабильности имлпантанта обычно наблюдается через 3-4 недели после его установки как следствие потери первичной стабильности (провал стабильности) (см.рис №1). Это также объясняет более высокие показатели клинического отказа имплантантов с немедленной или отсроченной нагрузкой [15].

Таким образом, резумируя вышеописанное, нужно отметить, что определение биомеханики дентальных имплантов, обобщение взаимосвязи между стабильностью имплантанта и его остеоинтеграцией является очень сложным решением проблемы долгосрочности всего процесса имплантации.

ЛИТЕРАТУРА

1.Jinmeng Li, Механические аспекты зубных имплантантов и остеоинтеграции: описательный обзор // J. of the Mechanical Behavior of Biomedical Mat, 2020, 103, p. 135-148

2.Bruski J.B. Biomechanical aspects of oral /maxillofacial implants // Int. J.Prostodont, 2003, 16(1), p.30-32

3.Halldin, Implant stability and bone remodeling after 3 and 13 days of implantation with an initial statie strain // Clin. Implant Dent, Relat Res, 2014, 16, p.383-393

4. Rubin C.T.Inhibition of osteopenia by low magnitude, high-freguency mechanical stimuli // Drug Discov., 2001, 6, p.848-858

5. Lee J.W. New bone formation and trabecular bone microarchitecture of highly porous tantalum compared to titanium implant threads // Clin. Oral Implant. Res, 2018, 29, p.164-174

6.Liu S.Q. Biomimetic hydrogels for chondrogenic differentiation of human mesenchymal stem cells to neocar tillage // Biomaterials, 2010, 31, p.7298-7307

7. Huebsch N. Harnessing traction –mediated manipulation of the cell/matrix interfase to control stem-cell fate // J.Nat.Mat., 2010, 9, p.518-526

8.U.Wegst, Bioinspired structural materials // J.Nat. Mat, 14, 2015, pp.23-36

9.Winter et all, A time-dependent healing function for immediate loaded implants // J.Biomech, 37, 2004, p.1861-1867

10. Norton M. Primary stability versus viable constraint – a need to redefine // Int J. Oral Maxillofac, Implant, 28, 2018, pp.19-21

11.Raghavendra S. Early wound healing around end osseous implants // Int.J.Oral Maxillofac implant, 2015, 20, p.425-431

12. Javed F., Romanos G.E. The role of primary stability for successful immediate loading of dental implants // J.Dent, 2010, 38, p.612-670

13. Salvi G.E. Temporal sequence of hard and soft tissue healing around titanium dental implants // J.Periodontology, 2000, 2015, p.135-152

14. Bosshardt D.D. Osseo integration of titanium alloy and zirconia dental implant // J.Periodont, 2000, 2017. 73, p.22-40

15. Espasito M. Intervention for Replacing Missing Teeth // Cochrane Database Syst.Rev. 2013

Xülasə
Titan diş implantlarının elastik və sabitlik modulu
E.R. Musayev, R.R. Şahmuradov, N.N.Babayeva

Məqalədə diş implantlarının biomexanikası təsvir edilir. İmplantın sabitliyi ilə onun osseointeqrasiya əlaqəsi ümumiləşdirilir. Dental implantın ümumi sabitliyi zamanla baş verən birinci sabitlik və ikinci sabitlikdən asılıdır. Onların əlaqəsi və osseointeqrasiyası uzunmüddətli implantasiya prosesi probleminin kompleks həllidir.

Summury
Modulus of elasticity and stability of titanium dental implants
E.R. Musayev, R.R. Shakhmuradov, N.N.Babayeva

The article deseribes the biomechanics of dental implants. Summarizes the relationship between the stability of the implant and its osseointegration. The overall stability of a dental implant depends on the primary stability and the secondary stability that develops over time. Their relationship is a complex solution to the problem of long-term implantation process.

Daxil olub: 17.04.2024

UOT: 616.895.4–085

Zahılıq dövrünün depressiyası olan qadınlarda doğuşun gedişat xüsusiyyətləri

G.K.Atamoğlanova
Azərbaycan Tibb Universiteti, I mamalıq və ginekologiya kafedrası, Bakı

Açar sözlər: doğuşdansonrakı depressiya, Qeysəriyyə kəsiyi, gərginlik, stress reaksiyası, preeklampsiya, doğuşun induksiyası, dölyanı mayenin vaxtından əvvəl açılması
Ключевые слова*:* послеродовая депрессия, кесарево сечение, напряженность, стрессовая реакция, преэклампсия, индукция родов, преждевременный разрыв плодных оболочек.
Key words*:* postpartum depression, cesarean section, tension, stress reaction, preeclampsia, labor induction, premature rupture of membranes

Zahılıq dövrünün depressiyası (ZDD) müasir mamalıq və psixiatriya elmlərinin aktual problemidir. Müasir şəraitində ZDD-nin rastgəlmə tezliyinin sürətlə artması tendensiyası qeyd edilir. Son illərdə ZDD-nin rastgəlmə tezliyi 80%-ə qədər çatır [1,2].

D.E.Stewart et al., [3] görə ZDD-nin rastgəlmə tezliyi 10-13% arasında tərəddüd edir. Eyni zamanda bu göstəricinin ilbə il artması müşahidə olunur. Müəllif təyin edib ki, ZDD olan qadınların emosional vəziyyəti, davranışı, ətraf mühitdə insanlarla əlaqəsi, körpə ilə münasibətinə mənfi təsir edir və gələcəkdə ana-uşaq təmasda problemlər yaradır. Digər müəlliflərə görə ZDD-nin rastgəlmə tezliyi 51-61% arasında tərəddüd edir [4,5].

ZDD-nin risk amillərinə stress, narahatçılıq, maddi problemlər, hamiləliyin və doğuşun gedişatı haqqında məlumatsızlıq, ailədə mühasibətlərdə gərginlik, planlaşdırılmamış hamiləlik, özünü şəxsiyyət kimi qiymətləndirməməsi, antenatal depressiya səbəb olur. Bu amillər 83% qadınlarda ağır antenatal depressiya ilə müşahidə edilir. Doğuşdan sonra 6-9 həftə müddətində bu amillər postnatal depressiyaya səbəb olar [6,7].

Zahılıq dövründə qadının psixoemosional vəziyyəti çoxsaylı amillərdən asılıdır, o cümlədən temperament, xarakter xüsusiyyətləri, maddi durum, ailəli olub-olmamasın qeyd edilir. Müəlliflər müəyyən etmişdir ki, keçmiş hamiləliyin və doğuşların mənfi nəticəsi, uşaq yaşında psixi travmaların olması və anamnezində psixi xəstəliklərin olması mühüm əhəmiyyət kəsb edir. Hər-hansı bir emosional sarsılma ananı depressiv vəziyyətə sala bilər.

Müəyyən edilib ki, əksər hallarda ZDD-nin yüngül əlamətləri qeyd olunur. ZDD-nin prediktorlarından maddi durumun pis olması, işsizlik, ailə tərəfindən köməyin olmaması, hamiləlik müddətində psixoloji stress, ailədaxili konfliktlər, həyat yoldaşları arasında dishormoniya, analığa hazır olmayan qadınlar aiddir [2,7,8].

ZDD-nin simptomlarından 100% hipotiniya, əhval ruliyyənin azalması, hərəki aktivliyin azalması, 64,7% həyəcan, uşağın sağlamlığına görə qorxu – 58,8%-də, yuxu pozğunluğu – 52,9%-də, yorğunluq hissi – 52,9%-də qeyd olunur. Nisbətən az tezliklə özünü günahlandırma hissi – 29,4%, angedoniya (həzz alma hissihin itməsi) – 29,4%, ağlağanlıq – 29,4%-də aşkarlanır. Lakin, 17,6% qadınlarda periodik olaraq dərinləşməmiş darıxma hissi müşahidə olunur [4,9,10].

Qeyd etmək lazımdır ki, ZDD olan qadınlarda doğuşun gedişat xüsusiyyətləri praktiki olaraq öyrənilməyib. Bu problemə aid elmi məlumatlar az və ziddiyyətlidir.

Problemin aktuallığını nəzərə alaraq hazırki tədqiqatın məqsədi təyin edilib. Tədqiqatın məqsədi ZDD olan qadınlarda doğuşun gedişat xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Məqsədə uyğun olaraq 106 hamiləlik və zahılıq dövrlərində müayinə olunmuşdur. Onlardan 35-də (33%) müxtəlif qabarıqlıqlı zahılıq dövrünün depressiyası (ZDD) müəyyən edilmişdir.

ZDD olan qadınların orta yaşı 29,74±0,05 (21-39) yaş olmuşdur. Müəyyən edilib ki, 35 xəstənin 24-də (68,6%) nevroz, nevrosteniya, 8 xəstədə (22,9%) panik ataklar və antidepressant qəbulu, 15 xəstədə (28,6%) müxtəlif mənşəli fobiyalar, 4 xəstədə isə (11,4%) epilepsiya və antikonvulsiv preparatların qəbulu təyin edilmişdir.

Reproduktiv funksiyanın vəziyyətini öyrənərkən təyin edilib ki, ZDD olan qadınlarda menarxe 13,1±0,1 (12-14) yaşında, aybaşı tsiklinin müddəti 35±0,12 (28-50), aybaşının müddəti 6,2±0,09 (3-8) gün olmuşdur. Əksər hallarda aybaşı müntəzəm, ağrısız olmuşdur.

Cinsi həyat 18,1±0,16 (20-43) yaşında olmuşdur. 35 ZDD olan qadınların 18-i (51,4%) ilk hamiləlik, 17-si də (48,6%) təkrar hamiləlik olmuşdur.

35 ZDD olan qadınların keçirilən ginekoloji xəstəliklərin tezliyi öyrənilmişdir. Müəyyən edilmişdir ki, 35 ZDD olan qadının 28-də (80%) xroniki kolpit, 16-da (45,7%) xroniki salpinqooforit, 12-də (34,3%) xroniki endometrit, 11-də (31,4%) yumurtalığın polikistoz sindromu, 8-də (22,9%) isə müxtəlif mənşəli sonsuzluq qeyd edilir.

Aparılan tədqiqatda 106 hamilə və zahı qadında hamiləliyin son həftələrində psixoloji durumu təyin etmək üçün Edinburq şkalasından istifadə edilmişdir.

Zahılıq dövründə müayinə olunan qadınlarda erkən depressiya əlamətləri aşkarlanma üçün postnatal depressiyanın skrininq şkalası tətbiq edilmişdir.

Eyni zamanda 69 zahılıq dövründə olan qadınların qan zərdabında estradiolun (E_2), deqidroepiandrosteron-sulfatın (DHEA-S), kortizolun (K), prolaktinin (Prl), tireostimulyaedici (TSH) hormonun və katoxelaminlərdən adrenalin və noradrenalin qan zərdabında təyin edilmişdir.

Tədqiqat zamanı alınan nəticələr statistik işlənilmişdir. Qrup göstəriciləri variasiya sırasında yerləşdirilmişdir. Hər qrup üçün orta qiymət (M), orta qiymətin orta kvadratik meyli (λ^2), onun standart xətası (Se), eyni zamanda sıraların minimal (min) və maksimal (max) qiymətləri müəyyən olunmuşdur. Statistik işləmə orta qiymətin parametrik və qeyri-parametrik üsullarla hesablanması üçün nəzərdə tutulmuş "Statgraph" proqramı tətbiq etməklə aparılmışdır.

Tədqiqatın nəticələr və müzakirəsi. Aparılan tədqiqatda 35 müxtəlif qabarıqlı ZDD olan qadınlarda doğuşun gedişat xüsusiyyətləri öyrənilmişdir. Təyin edilmişdir ki, 35 doğan qadının 8 doğuşu (22,9%) təbii yolla, 27-si (77,1%) qeysəriyyə kəsiyi vasitəsilə aparılmışdır. 27 qeysəriyyə kəsiyinin 5-də (18,5%) uşaqlıqda yararsız çapığı nəzərə alaraq təkrar qeysəriyyə kəsiyi aparılmışdır. 22-də isə (81,5%) ilkin qeysəriyyə kəsiyi aparılmışdır.

Beləliklə, ZDD olan qadınlarda qeysəriyyə kəsiyinin tezliyi 77,1% (n=27) olmuşdur. Bunların 62,9%-də (n=22) ilkin qeysəriyyə kəsiyi aparılıb, 14,3%-də isə (n=5) təkrar qeysəriyyə kəsiyi aparılıb.

İlkin qeysəriyyə kəsiyinə göstərişlər və onların tezliyi təyin edilmişdir. Bu göstərişlərə:

-Döl qişalarının vaxtından əvvəl cırılması 22,2% (n=8);
-Dölün intranatal kəskin hipoksiyası, 13,9% (n=5);
-Orta ağır preeklampsiya 30,6%, (n=11);
-Hestasion hipertenziya, 8,3% (n=3);
-Əkiz döl, birinci dölün sağrı gəlişində olması, 2,8% (n=1);
-Kliniki dar çanaq, 2,8 % (n=1);
-Patoloji preliminar dövr, 5,6% (n=2);
-Dölün çəp vəziyyəti, 2,8% (n=1);
-Birincili korreksiya olunmayan sancı zəifliyi, 5,6% (n=2);
-Doğuşun induksiyasının effektsizliyi, 5,6% (n=2).

Tədqiqat nəticəsində təyin edilmişdir ki, doğuş prosesində bütün qadınlar öz sağlamlığı və gələcək doğulan körpənin sağ-salamat doğuşlanması ilə əlaqədar ağır stress vəzifəsində olmuşdurlar və bu stress vəziyyəti qeysəriyyə kəsiyi əməliyyatı aparılan qadınlarda daha yüksək olmuşdur.

Müəyyən edilmişdir ki, qeysəriyyə kəsiyinin səbəblərindən döl qişalanın vaxtından əvvəl cırılması, doğuş fəaliyyətinin olmaması (22,2%), orta ağır preeklampsiya (30,6%), dölün intranatal kəskin hipoksiyası (13,9%) yüksək tezliklə qeyd edilmişdir.

Beləliklə, ZDD olan qadınlarda qeysəriyyə kəsiyinin rastgəlmə tezliyi 77,1%, onlardan ilkin qeysəriyyə kəsiyi 62,9%, təkrar qeysəriyyə kəsiyi 14,3% qeyd olunub. Qadınlarda orta ağır preeklampsiya (30,6%), döl qişalarının vaxtından əvvəl cırılması, doğuş fəaliyyətinin olmaması (22,2%) olmuşdur. Doğuş prosesində qadının stress vəziyyətdə olması qeyd edilmişdir.

Tədqiqat nəticəsində təyin edilmişdir ki, hamilə və doğan qadının yüksək gərginlik fonunda yaranan mamalıq fəsadları ZDD-nın yaranmasının risk amili kimi qiymətləndrilə bilər.

ƏDƏBİYYAT

1. Макарова М.А., Тихонова Ю.Г., Авдеева Т.И., Игнатко И.В. Послеродовая депрессия – факторы риска развития, клинические и терапевтические аспекты // Ж.Неврология, нейропсихиатрия, психосоматика, 2021, вып.13, №4, с.75-80.
2. Rasmussen M.H., Strom M., Wohlfahrt J. Risk, treatment duration, and recurrence risk of postpartum affective disorder in women with no prior psychiatric history: A population-based cohort study // PloS Med., 2017, vol.14, №9, p.1002392.
3. Stewart D.E., Vigod S.N. Postpartum depression: Pathophysiology, treatment, and emerging therapeutics // Annu. Rev. Med., 2019, №70, p.183-196.
4. Горьковая И.А., Коргожа М.А. Влияние течения беременности и качества жизни женщин на развитие послеродовой депрессии // Азимут научных исследований: педагогика и психология, 2018, т.7, №4 (25), с. 293-296.
5. Vigod S.N., Stewart D.E. Postpartum Depression // N.Engl J Med., 2017, 376, №9, p.895.
6. Муштенко Н.С. Послеродовая депрессия женщины как психологическая проблема // Коллекция гуманитарных исследований. Электронный научный журнал. Тематический выпуск, посвященный 30-летию социальной работы в России, 2021, №4, вып.29, с.40-45.
7. Stewart D.E., Robertson E., Cindy-Lee Dennis., Sherry L.Grace. Postpartum Depression: Literature Review Of Risk Factors and Interventions// Prepared for: Toronto Public Health, 2023, p.1-8.
8. Di Florio A., Putnam K., Altemus M. The impact of education, country, race and ethnicity on the self-report of postpartum depression using the Edinburgh Postnatal Depression Scale // Psychol Med, 2017, vol.47, №5, p.787-799.
9. Корвижных И.В., Суровцева Д.А., Кудрявцева Е.В. Выявление предикторов послеродовой депрессии // Актуальные вопросы современной медицинской науки и здравоохранения: сборник статей V Международной (75 Всероссийской) научно-практической конференции, Екатеринбург, 2020, с.76-80.
10.Коргожа М.А. Динамика эмоциональных состояний у женщин в послеродовом периоде // Автореф. дис. к.м.н, Санкт-Петербург, 2019, 26 с.
11.Фоменко А.Н., Гречаный С.В. Немедикаментозные методы терапии послеродовых аффектных расстройств в аспекте сохранения психического здоровья детей// Вопросы психического здоровья детей и подростков, 2020, №1, с.90-99.

Резюме
Особенности течения родов у женщин с послеродовой депрессией
Г.К.Атамогланова

Целью исследования яилось изучение особенностей течения родов у родильниц с послеродовой депрессией. Обследовано 106 беременных и родильниц, из которых у 35-и (33%) различной выраженности клинические проявления послеродовой депрессии (ПД). В анамнезе женщин с ПД из 35-и больных у 24 (68,6%) отмечались невроз и неврастения, у 8 (22,9%) панические атаки и прием антидепрессантов, (28,6%) различного генеза фобии, у 4 (1,4%) эпилепсия и прием антикоагулятивных препаратов. Средний возраст родильниц с ПД составил 29,7±0,05 лет, 18 больных (51,4%) были первобеременные, 17 (48,6%) - повторнобеременные. Всем родильницам при беременности для оценки психологического состояния применялась шкала Эдинбурга. В послеродовом периоде для выявления клинических проявлений ПД применялась шкала постнатальной депрессии. В послеродовом периоде у 69 больных в сыворотке крови определялись показатели эстрадиола ($Э_2$), дегидроэпиандестерона-сульфата (ДГЭА-С), кортизола (К), пролактина (Прл), тиреостимулирующего гормона (ТСГ), а также показатели адреналина и норадреналина. Установлено, что частота кесарева сечения у больных с ПД составляет 77,1%, при этом частота первичного кесарева сечения была в пределах 62,9%. Повторное кесарева сечение определялась у 14,3% родильниц. Показаниями к абдоминальному родоразрешению у 30,6% была преэклампсия средней тяжести, у 22,2% рожениц преждевременный разрыв плодных оболочек, отсутствие родовой деятельности. У всех рожениц в динамике родового процесса отмечались напряженность, испуг, стрессовая реакция. Установлено, что высокая частота эмоциональных

нарушений, страх, стрессовые ситуации в динамике родового процесса, а также осложненное течение родов увеличивает вероятность развития ПД в послеродовом периоде.

Summary
Features of the course of labor in women with postpartum depression
G.K.Atamoglanova

Purpose of the study - to study the characteristics of the course of labor in women with postpartum depression. A total of 106 pregnant and women in postpartum period were examined, of which 35 (33%) had clinical manifestations of postpartum depression (PD) of varying severity. In the anamnesis of women with PD, out of 35 patients, 24 (68.6%) had neurosis and neurasthenia, 8 (22.9%) had panic attacks and took antidepressants, (28.6%) had phobias of various origins, 4 (1.4%) had epilepsy and took anticoagulants. The average age of 35 women in postpartum period with PD was 29.7±0.05 years, 18 pregnant women (51.4%) were primiparous, 17 (48.6%) were multiparous. The Edinburgh scale was used to assess the psychological state of all postpartum women during pregnancy. In the postpartum period, the postnatal depression scale was used to identify clinical manifestations of PD. In the postpartum period, 69 patients had serum levels of estradiol (E2), dehydroepiandrosterone sulfate (DHEAS), cortisol (C), prolactin (Prl), thyroid-stimulating hormone (TSH), as well as adrenaline and noradrenaline. It was found that the frequency of cesarean sections in patients with PD was 77.1%, while the frequency of primary cesarean sections was within 62.9%. Repeat cesarean sections were determined in 14.3% cases. Indications for abdominal delivery in 30.6% were moderate preeclampsia, in 22.2% premature rupture of membranes, absence of labor activity. All women in labor experienced tension, fear, and stress reactions during the labor process. It was found that a high frequency of emotional disorders, fear, stressful situations during the labor process, as well as complicated labor, increases the likelihood of developing PD in the postpartum period.

Daxil olub: 30.07.2024

UOT: 615.322:582

Ruta graveolens bitkisinin xammalında flavonoidlərin miqdarının təyini

S.Ş. Əliyeva, V.V. Məmmədova, N.T.Babayeva
Azərbaycan Tibb Universiteti, Farmakoqnoziya kafedrası, Bakı

Açar sözlər: flavonoidlər, Ruta graveolens, spektrofotometrik üsul, rutinin standart məhlul, miqdari təyinat
Ключевые слова: флавоноиды, Ruta graveolens, спектрофотометрический метод, стандартный раствор рутина, количественное определение,
Key words: flavonoids, Ruta graveolens, spectrophotometric method, rutin standard solution, quantitative analysis

Flavonoidlər bitkilərin tərkibində geniş yayılmış, bioloji fəallığı ilə seçilən təbii birləşmələrdir. Onlar bitkilərin inkişafı, müdafiəsi və adaptasiya proseslərində mühüm rol oynayır. İnsan sağlamlığına olan müsbət təsirləri, xüsusilə antioksidant, antimikrob, iltihabəleyhinə və kardioprotektiv xüsusiyyətləri ilə flavonoidlər dərman bitkilərində mühüm yer tutur. Bu səbəbdən müxtəlif bitkilərdə flavonoidlərin miqdarının təyini əczaçılıq, qida sənayesi və tibbi tədqiqatlarda vacib əhəmiyyət kəsb edir [6].

Ruta graveolens (ətirli sədo) bitkisi xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə edilən bitkilərdən biridir. Bitkinin flavonoid tərkibi yüksək antioksidant və iltihab əleyhinə təsirə malikdir ki, bu da onun müalicəvi dəyərini artırır. Belə xüsusiyyətləri nəzərə alaraq, bitkinin xammalında flavonoidlərin miqdarının müəyyən edilməsi elmi baxımdan mühüm əhəmiyyət kəsb edir [5].

Bu tədqiqatda *Ruta graveolens* bitkisinin xammalında flavonoidlərin miqdarı spektrofotometrik üsulla təyin edilmişdir.


Tədqiqatın məqsədi Azərbaycanda bitən *Ruta graveolens* (ətirli sədo) bitkisinin flavonoidlərin spektrofotometrik üsulla yerinə yetirməkdirvə onun farmakoloji dəyərini təsdiq etməkdir.

Ətirli sədo bitkisinin xammalının – otunun analitik nümunəsi o qədər xırdalanır ki, məsamələrinin diametri 1 mm olan ələkdən ələnsin. Xırdalanmış və ələnmiş xammaldan 5 qr (dəqiq çəki) həcmi 100 ml olan cilalanmış kolbaya tökülür və üzərinə 30 ml 50 %-li etil spirti əlavə edilir. Kolba əks soyuducuya birləşdirilir, qaynar su hamamı üzərində 30 dəq. müddətində qızdırılır. Kolbanın divarlarına yapışmış xammal hissəciklərini islatmaq üçün aradabir çalxalanır. İsti çıxarış pambıqdan həcmi 100 ml olan ölçülü kolbaya elə süzülür ki, xammal hissəcikləri pambığın üzərinə tökülməsin. Süzmək üçün istifadə olunmuş pambıq ekstarksiya gedən kolbaya yerləşdirilir, üzərinə 30 ml 50 %-li etil spirti əlavə edilir. Ekstraksiya yuxarıda göstərilən qaydada daha 2 dəfə təkrarlanır və çıxarışlar ölçülü kolbaya süzülür. Soyuduqdan sonra çıxarışın həcmi 50 %-li etil spirti ilə ölçüyə çatdırılır və qarışdırılır (A məhlulu) [2].

Həcmi 25 ml olan ölçülü kolbaya A məhlulundan 1 ml tökülür, üzərinə 2 ml alüminium-xloridin 95 %-li etil spirtindəki məhlulu əlavə edilir və kolbanın həcmi 95%-li etil spirti ilə ölçüyə çatdırılır. 40 dəq-dən sonra məhlulun optiki sıxlığı spektrofotometrdə (*Agilent UV/VIS spectrophotometer*) 415 nm dalğa uzunluğunda, qatının qalınlığı 10 mm olan küvetdə ölçülür. Müqayisə məhlulu kimi 25 ml-lik ölçülü kolbaya tökülmüş 1 ml çıxarışdan, 1 damcı duru sirkə turşusundan və həcmi 95 %-li etil spirti ilə ölçüyə çatdırılmış qarışıqdan istifadə olunur [10].

Paralel olaraq yuxarıda göstərilən qaydada hazırlanmış rutinin standart nümunə məhlulunun optiki sıxlığı da eyni şəraitdə ölçülür [9].

Rutinin standart nümunə məhlulunun hazırlanması. 0,05 qr-a yaxın (dəqiq çəki) standart rutin nümunəsi qabaqcadan 130-135°C temperaturda 3 saat müddətində qurudulur. Həcmi 100 ml olan ölçülü kolbada 85 ml 95 %-li etil spirtində qızdırmaqla həll edilir. Soyudulur, miqdari cəhətdən 100 ml-lik ölçülü kolbaya keçirilir, kolbanın həcmi 95 %-li etil spirti ilə ölçüyə çatdırılır və qarışdırılır. [6]. Flavonoidlərin miqdari təyinatı 6 dəfə təkrarlanmışdır [4].



Şəkil 1. A) rutinin standart məhlulunun udma spektri,
b) *Ruta graveolens* xammalının spirtli çıxarışının udma spektri

Mütləq quru xammalda flavonoidlərin rutinə nisbətən faizlə miqdarı aşağıdakı düsturla hesablanır:

$$x = \frac{D \cdot m_0 \cdot 100 \cdot 100 \cdot 100}{D_0 \cdot m \cdot 100 \cdot (100 - W)}$$

Burada, D – tədqiq olunan məhlulun optiki sıxlığı, D_o – rutinin standart nümunə məhlulunun optiki sıxlığı; m – xammalın çəkisi, qr-la; m_o– rutinin standart nümunəsinin çəkisi, qr-la, W – xammalı qurutduqda çəkidə itki, %-lə (bu göstərici 13,3 % olmuşdur). [7].

Yerinə yetirilmiş spektrofotometrik tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Ətirli sədo bitkisinin kökünün tərkibində 0,465±0,0,12 % flavonoid məcmuyu vardır.

Ruta graveolens bitkisinin xammalında flavonoidlərin miqdarının təyin edilməsi, onun tibbi preparatların hazırlanmasında istifadəsi üçün elmi əsas verir və bitkinin farmakoloji potensialını təsdiq edir. Alınmış nəticələr bitki əsaslı dərman preparatlarının hazırlanmasında faydalı ola bilər.

ƏDƏBİYYAT

1. Baird, M. S., Preparation of Standard Solutions. Analytical Procedures, 2009, s. 10-25.
2. Cernigliaro, A., et al., Extraction Techniques for the Isolation of Bioactive Compounds from Plant Materials. Journal of Food Science, 2019, s. 200-215.
3. Field, A., Discovering Statistics Using IBM SPSS Statistics. SAGE Publications, 2013, s. 200-250.
4. Guidelines for Quantitative Analysis in Pharmacognosy, s. 1-30.
5. Harborne, J.B., Flavonoids: Advances in Research Since 1986. Phytochemistry, 1998, s. 1-150.
6. Javadzadeh, Y., et al., The Medicinal Uses of Ruta graveolens. Iranian Journal of Pharmaceutical Research, 2013, s. 15-30.
7. Makkar, H.P.S., Siddiqui, S., Quantification of Flavonoids: Methods and Applications. Food Chemistry, 2011, s. 300-320.
8. McDonald J. H., Handbook of Biological Statistics, 2014, s. 75-120.

9. Tsuchiya, Y., et al., Rutin: Properties and Applications. International Journal of Molecular Sciences, 2016, s. 120-135.
10. Watanabe, K., Spectrophotometry and its Applications. Analytical Chemistry, 2020, s. 50-80.

Резюме
Определение количества флавоноидов в сырье растения Ruta graveolens
С.Ш. Алиева, В.В. Мамедова, Н.Т.Бабаева

В данном исследовании с помощью спектрофотометрического метода было определено количество флавоноидов в сырье растения *Ruta graveolens* (рута обыкновенная). Среднее содержание флавоноидов в сырье составило 0,465%. Эти флавоноиды обладают высокой биологической активностью, что подтверждает лечебный потенциал растения. Результаты исследования создают научную основу для использования растения в фармацевтической промышленности, а также подтверждают его потенциал для изготовления лекарственных препаратов. Ruta graveolens, благодаря высокому содержанию флавоноидов, может быть использована в различных терапевтических целях.

Summary
Determination of the amount of flavonoids in the raw material of the plant Ruta graveolens
S.Sh. Aliyeva, V.V. Mammadova, N.T.Babayeva

In this study, the amount of flavonoids in the raw material of the *Ruta graveolens* (common rue) plant was determined using a spectrophotometric method. The average flavonoid content in the raw material was found to be 0.46%. These flavonoids exhibit high biological activity, confirming the plant's therapeutic potential. The findings provide a scientific basis for the use of the plant in the pharmaceutical industry and confirm its potential for the production of medicinal preparations. Due to its high flavonoid content, Ruta graveolens can be utilized for various therapeutic purposes.

Daxil olub: 17.06.2024

UOT: 616.89-008: 615.214.32

Antidepressantların istifadəsinin muasir tendensiyaları və Azərbaycanda perspektivləri

R.R.Məmmədova, L.N. Mansurova
Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Azərbaycan Tibb Universiteti

Müəllifin elektron poçt ünvanı: ramella.mamedova01@mail.ru

Açar sözlər: antidepressantlar, antidepressantların təyini, antidepressantların farmakoepidemioloji tədqiqatları.
Ключевые слова: Антидепрессанты, назначение антидепрессантов, фармакоэпи- демиологические исследования антидепрессантов.
Keywords: Antidepressants, prescription of antidepressants, pharmacoepidemiological studies of antidepressants

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarıına görə, "dünyada yetkinlərin təxminən 5%-i, yəni 280 million insan depressiyadan əziyyət çəkir" [4], belə xəstələrin sayı artmaqdadır, Bu isə, öz növbəsində, antidepressant dərman preparatlarına olan tələbatı artırır. Antidepressant dərman bazarının ölçüsü böyüməkdədir, bu göstərici 2020-ci ildə 13,5 milyard ABŞ dolları təşkil edirdisə, onun 2021-ci ildən 2027-ci ilə qədər 7,2%-dən çox artacağı gözlənilir [1,4]

Tədqiqatın məqsədi. Müasir dövrdə böyüklər arasında antidepressantların təyinatı və istifadəsi ilə əlaqəli tendensiyaları, bu sahədə beynəlxalq təcrübəni təhlil etmək, Azərbaycan əczaçılıq bazarı üçün perspektivləri xarakterizə etmək.

Depressiya – həyəcan, yüksək halsızlıq, gərəksizlik hissi, intihara dair fikirlər, iştahanın azalması, yuxusuzluq, psixomotor tormozlanma və ya həyəcan, həmçinin müxtəlif somatik simptom və şikayətlərlə müşayiət olunan, əhval-ruhiyyənin enməsi ilə səciyyələnən psixi pozuntudur [2].

Depressiv pozuntular müxtəlif yaş dövrlərində rast gəlinə bilər. Daha çox 25-30 yaş arası depressiyaya rast gəlinir. Əsasən depressiya təkrarlanan (residiv) xəstəlikdir. Birinci epizoddan sonra təkrarlanma ehtimalı 50%, ikinci epizoddan sonra 75%, üçüncü epizoddan sonra 90% təşkil edir [2].

Antidepressantlar (AD) - müxtəlif mənşəli depressiyaların müalicəsində istifadə olunan psixotrop dərmanlar qrupuna aid edilir. Bu dərmanlar neyromediatorların, xüsusilə serotonin, noradrenalin və dopaminin səviyyəsinə təsir göstərir. Depressiyadan əziyyət çəkən insanlarda bu preparatlar əhval-ruhiyyəni yaxşılaşdırır, kədər hissini, passivliyi, apatiyanı, narahatlıq və gərginliyi azaldır, psixi fəaliyyəti artırır, həmçinin yuxu və iştahanın normal fazasını və davamlılığını tənzimləyir. Bu dərmanların hər birinin özünəməxsus yan təsirləri və əks göstərişləri var, buna görə də onları həkim nəzarəti olmadan qəbul etmək qadağandır.

Antidepressantlar adətən təsir mexanizminə görə 5 sinifə təsnif edilir: trisiklik antidepressantlar (TCA), selektiv serotonin geri udulmasının inhibitorları (SSRI), serotonin və noradrenalin geri udulmasının inhibitorları (SNRI), noradrenergik və spesifik serotonergik antidepressantlar (NASSA), monoaminoksidazanın inhibitorları (MAOI). Lakin dərman bazarı və istifadəsində tendensiyaları öyrəndikdə antidepressantları nəsillərə görə təsnif edilməsi ilə qarşılaşmaq olar [3,16].

Antidepressantların inkişaf tarixini nəzərdən keçirdikdə, onları beş nəsilə ayırmaq mümkündür. Bu yanaşma, antidepressantların qruplaşdırılmasını öyrənmək və analiz etmək üçün dərman bazarını tədqiq edərkən daha yüksək əlverişlilik təmin edir [5].

Araşdırmalar bunu göstərir ki, hər il təyin olunan antidepressantların sayına görə son 20 ildə bu göstərici üç dəfədən çox artmışdır. Köhnə nəsil, yəni TCA və MAOI-lərin təyini azalıb, yeni nəsil antidepressantların isə təyin edilməsi artıb. Siniflər və spesifik dərmanlar (xüsusilə: Paroxetine, Dosulepin, Trimipramine) arasında təyin edilməsində əhəmiyyətli fərqlər var. Hər üç dərmana yazılan reseptlərin sayı zamanla azalıb.

Paul Bogowiczin (2021) məlumatına görə təyin edilmiş antidepressantların əksəriyyəti SSRI (53,9%), sonra TCA (21,9%), "digər" yerdə qalan yarım qruplara daxil olan antidepressantlar (14,6%), SNRI (9,5%) və MAOI (0,1%) idi. Citaloprama yazılmış reseptləri 1998-2011-ci illər arasında nəzərəçarpacaq dərəcədə artaraq 28,9%-ə çatmışdır. 2012-ci ildən bəri sertralinə aid reseptlərin sayı əhəmiyyətli dərəcədə artmışdır (2018-ci ildə 20,9%). Sertraline 2018-ci ildə ən çox təyin edilən antidepressant kimi Citalopramı geridə qoydu. Mirtazapinə aid yazılmış reseptləri 1998-ci ildən 2020-ci italə qədər davamlı olaraq artmışdır (0,5%-dən 12,6%-ə qədər) [6].

Cədvəl 1
Antidepressantların nəsillərə bölünməsi

Nəsil	İllər	Dərmanlar	Xüsusiyyətlər
Birinci nəsil	1950-1960	Amitriptyline, Imipramine, Anafranil (Clomipramine), Nialamide, Phenelzine.	Tsikiklik antidepressantlar və monoaminoksidaza inhibitorları; klassik və ilk sintez olunmuş antidepressantlar
İkinci Nəsil	1970-1980	Fluoxetine, Pirlindole, Maprotiline.	Selektiv serotonin geri udulma inhibitoru (SSRI), geri dönən monoaminoksidaza inhibitorları, tetrasiklik monoamin inhibitorları
Üçüncü nəsil	1980-1990	Fluvoxamine, Sertraline, Paroxetine, Citalopram, Escitalopram, Moclobemide.	Geniş istifadə olunan selektiv serotonin geri udulma inhibitorları və monoaminoksidaza inhibitorları
Dördüncü nəsil	1990-2000	Venlafaxine, Milnacipran, Duloxetine.	Selektiv serotonin və noradrenalin geri udulma inhibitorları, psixiatriyada geniş istifadə olunur
Beşinci nəsil	2000 və sonrası	Valdoxan – Agomelatine.	Melatonin reseptorlarının inhibitorları; təkmilləşdirilmiş terapevtik profil, ürək-damar və reproduktiv sistemlərə mənfi təsir göstərmədən istifadəsi mümkündür

Bir çox dərmanların daha aktiv formalarının təyin edilməsinin artması tendensiyası var, məsələn, sertralin və mirtazapine daha yüksək dozada təyinatlarının artdığı müşahitə olunur. Eyni zamanda yüksək dozalı amitriptilinin təyin edilməsindən aşağı dozalı formalara keçid əhəmiyyətli dərəcədə baş verdiyi müşahidə olunur.

Rogério Hoeflerin (2023) məlumatına görə antidepressantların satışının artım müşahidə olunur ən böyük artımlar SSRI sinifində və, o cümlədən, SNRI sinfi üçün müşahidə edilir, TCA aid satış həcmi isə sabit olaraq qalır. Escitalopram və Sertraline tərkibli dərman preparatları ən çox satılan antidepressantlar kimi müəyyənləşdirilmişdir. SSRI-nın bazar payı, xüsusən paroksetinin (13,1%-dən 6,5%-ə qədər) azaldığı halda, "digər" antidepressantların bazar payı 21,9%-dən 33,3%-ə, xüsusilə Desvenlafaxine (2,9% artaraq 14,3%-ə qədər çatıb) [7].


2020-ci ildə aparılan araşdırma bunu gösdərir ki, Azərbaycanda bu gösdəricilər belə paylanmışdır: ən yuksək 66.88% - SSRI-lərə aiddir, 0.43% SARI (serotoninin antoqonisti və geriyə neyronal udulmasının inhibitoru), 21.45% SNRI, 1.97%TeCA (tetrasiklik antidepressantlar), 9.08%TCA-ın payına düşür [3].

Azərbaycan əczaçılıq bazarında antidepressant dərman vasitələrinin istehlakı üzrə aparılmış təhlili zamanı məlum olmuşdur ki, 2 qrup (SSRI və SNRI). Belə ki, gəlir məbləği digərlərindən kəskin şəkldə fərqlənən, bununla yanaşı satış sayında da lider pozisiyada olan SSRI-lər antidepressant dərman bazarının yarısından çoxunu əhatə edir. Lakin, bu göstəricini verən SNRI qrupunun nümayəndələri, çeşid göstəriciləri də digər qruplara nisbətən yüksəkdir. 7 BPA(generik), 28 ticarət adı ilə markalanmış yarımqrup, bazara 58.7 %-lə qrupda başçılıq etməsinə baxmayaraq, 22.65%-lə ikinci mövqedə qərarlaşan TCA-lar isə Azərbaycan əczaçılıq bazarında yalnız 3 BPA, 4 ticarət adı ilə markalanmış preparatla təmsil olunurlar [3].

Azərbaycan əczaçılıq bazarında olmayan ancaq dünya praktikasında istifadə olunan yeni nəsil antidepressant preparatlar mövcuddur. Bunlara Zulresso (brexanolone) və Spravato (esketamin) misal gösdərmək olar. Zulresso (brexanolone) - qadınlarda doğuşdan sonrakı depressiyanın müalicəsi üçün nəzərdə tutulmuşdur. Spravato (eskatamin) - isə, digər dərmanlara cavab verməyən, yetkin xəstələrdə depressiyanı müalicə etmək üçün oral antidepressant ilə birlikdə istifadə üçün nəzərdə tutulub.

Koronavirus (COVID-19) pandemiyası zamanı sosial məhdudiyyətlər psixi sağlamlıq üçün ciddi təhlükə yaratdı və antidepressantların istifadəsinə təsir göstərdi. İngiltərədə COVID-19 pandemiyası zamanı

aparılmış müxtəlif antidepressant dərmanların təyin edilməsi və qiymətlərindəki tendensiyalarının araşdırılması nəticəsində məlum olmuşdur ki, COVID-19 pandemiyası zamanı (2020-ci ilin yanvar-dekabr ayları) antidepressantlara aid yazılmış reseptlərinin ümumi sayı 2019-cu ilə müqayisədə 4 milyon artaraq 78 milyon olub və İngiltərəyə 2019-cu illə müqayisədə 139 milyon funt-sterlinq daha baha başa gəlib.



Şəkil. Antidepressantların illik dövriyyəsinin qrafik təsviri

Təkcə SSRI qrupuna aid antidepressant sertralinin satış həcmi 2019-cu ilə nisbətən 2020-ci ildə 113 milyon funt sterlinq daha çox təşkil etmişdir. AD-nın ən yüksək dozada təyin 2020-ci ilin martında, ümumi antidepressant dərman xərcləri isə 2020-ci ilin aprelində pik nöqtəsinə çatmışdır [8].

Antidepressant dərman preparanlarını xüsusi pasiyent qruplarına aid olan insanlarda, həmçinin hamilə qadınlarda təyinatı böyük maraq kəsb edir. Çində 15-50 yaş aralığında hamilə qadınlar arasında aparılan araşdırma nəticəsində məlum olmuşdur ki 466 358 hamiləlikdən 3019-u (0,67%) hamiləlikdən əvvəl 3 ay ərzində, 2700-ü (0,58%) isə hamiləlik dövründə antidepressant qəbul edib. Zamanla prenatal dövrdə antidepressant istifadəsində əhəmiyyətli artım tendensiyası müşahidə edildi (bu gösdərici 2003-cü ildə 0,6% 2018-ci ildə 1,3%-idi). Hamiləlikdən 3 ay əvvəldən ikinci trimestrə qədər ümumi antidepressant istifadəsində ardıcıl azalma, üçüncü trimestrdə isə cüzi artım müşahidə edilmişdir. Hamiləlikdən əvvəl 3 ay ərzində antidepressant qəbul edən 1918 qadının təxminən yarısı birinci trimestrdən sonra mualicəni davam etdirmişdir. Xəstələrin cəmi 8,2%-i hamiləlikdən 3 ay əvvəl və ya birinci trimestrdə antidepressant qəbul etməyi dayandırıb və hamiləlikdən sonra müalicəni bərpa edib [9,22].

Depressiya və ürək-damar xəstəlikləri bir-biri ilə sıx əlaqəli klinik olan xəstəlikləklər hesab ounur. Depressiya həm ürək-damar xəstəliklərinə səbəb olur, həm bu xəstəlikdən əziyyat çəkən insanın vəziyyətini ağırlaşdırır. Ürək-damar xəstəliklərinin yaranma səbələrindən biridə depressiya hesab olunur. Depressiya ürək-damar xəstəliklərində və miokard infarktı (MI) və insultdan sonra ölüm hallarının artmasının səbəbi hesab olunur. Bir çox antidepressantlar kardiotoksik xüsusiyyətlərə malikdir. Trisiklik antidepressantlar həddindən artıq dozada istifadə olunanda ürək-damar xəstəliklərinə səbəb ola bilər və müəyyən edilmiş ürək-damar xəstəliklərinin nəticələrini pisləşdirə bilər. Reboxetine, Duloxetine, Venlafaxine qan təzyiqini artırdığı bilinir. Sertraline, Fluoxetine, Citalopram, Bupropion və Mirtazapine Mİ-dən sonra istifadə üçün təhlükəsizdir; Sertralinin istifadəsi, Citalopram və Mirtazapin ölüm nisbətini azalda bilər. Paroxetine və Citalopram koronar arteriya xəstəliyi olan xəstələr üçün təhlükəsiz olduğu artıq sübuta gətirilmişdir [10, 19].

Epilepsiyadan əziyyət çəkən insanlar tez-tez komorbid əhval-ruhiyyə və narahatlıq pozğunluqlarından əziyyət çəkirlər. Depressiya epilepsiyadan əziyyət çəkən insanların həyat keyfiyyətinə mənfi təsir göstərən əsas psixi xəstəliklərdən biridir.Epilepsiya xəstələri üçün dörd antidepressant tövsiyə edilmir: Amoxapine, Bupropion, Clomipramine, Maprotiline. Epilepsiya xəstələrində depressiya üçün antidepressantlardan istifadə edən həkimlər SSRI və ya SNRI-lərin, xüsusilə Sertraline, Citalopram, Mirtazapine, Reboxetine, Paroxetine, Fluoxetine, Escitalopram, Fluvoxamine,Venlafaxine,Duloxetine istifadəsini düşünməlidirlər.

Depressiya olan xəstələrdə antidepressantların istifadəsinə Valproate, Carbamazepine, Lamotrigine, Gabapentin, Pregabalin kimi antiepileptik dərmanlar daxil edilməlidir [11].

Dünya praktikasında populyasiyada dərman vasitələrinin istifadəsinin və tətbiqinin xüsusiyyətlərinin tədqiqi üçün müasir sayılan farmakoepidemioloji tədqiqatlardan tez-tez istifadə olunur. Farmakoepidemiologiya dərmanların istifadə şərtlərini, yanlış istifadəsini, klinik effektivliyini, dərmanların mənfi reaksiyalarını və risklərini xarakterizə etməyə imkan verir. Farmakoepidemiologiyanın inkişafı dərmanların istifadəsini daha yaxşı optimallaşdırmağa imkan verir [12].

Rusiyada 2007-ci ildə antidepressantların geniş farmakoepidemiolojı analizi aparılmışdır. Bu araşdırma nəticəsində müəlum olmuşdur ki, eyni zamanda iki və daha artıq antidepressantın təyini əlavə yan təsirlərin riskini artırır. Hər bir xəstəyə individual yanaşma önəmlidir. Depressiya ilə narahatlıq və həyacan müşahidə olunursa sedativ təsiri olan antidepressantların təyininə üstünlük verilməlidir. Sedativ təsiri olan antidepressantlara Azafen, Amitriptyline, Mianserin, Trimipramine, Trazodone, Fluvoxamine daxildir. Stimulyator tipli antidepressantlara isə Imipramine, Moclobemide, Reboxetine, Fluoxetine aid edilir. Antidepressantlara daha geniş, balanslaşdırılmış təsir spektri isə Maprotiline, Clomipramine, Paroxetine, Sertraline, Citalopram, Tianeptine kimi preparatlarda müşahidə edilir [13].

Azərbaycanda antidepressantların istifadəsinin farmakoepidemioloji analiz vasitəsi ilə tədqiqinin böyük və maraqlı perspektivləri var. Farmakoepidemioloji analizin əsas məqsədi – antidepressantların istifadəsi ilə bağlı fayda və risklərin başa düşülməsini artırmaq, nəticədə klinik qərarların qəbulu və ictimai səhiyyə siyasətini məlumatlandırılmasından ibarətdir. Digər məqsədi isə antidepressant dərman preparatlarının gözlənilməz təsirlərindən irəli gələn iqtisadi təsir və sağlamlıq üstünlüklərini qiymətləndirməkdir [18].

ƏDƏBİYYAT

1.Antidepressant Drugs Market Size - By Drug Class (SSRIs, SNRIs, Tricyclic Antidepressants), By Application (Major Depressive Disorder, Obsessive-compulsive Disorder, Generalized Anxiety Disorder, Panic Disorder), Competitive Market Share & Forecast, 2021 - 2027 // Global Market İnsights 2021.

2. Gəraybəyli G., İsmayılov F. Depressiyanın diaqnostika və müalicəsi üzrə klinik proktokol. Bakı, 2021, 52 s.

3. L.Mansurova, K.Cəlilova, N. Zülfüqarova "Antidepressant dərman vasitələrinin istehlak xüsusiyyətlərinin təhlili" // "Əczaçılığın müasir problemləri " müvzusunda 5-ci Beynəlxalq Elmi Konqress materialları , Bakı , 2021 , s.251-253.

4.World Health Organization. Depression. Retrieved from https://www.who.int/ru/news-room/fact-sheets/detail/depression

5. DeBattista C. Antidepressant Agents." // Katzung's Basic & Clinical Pharmacology, 16th Edition Ed. Todd W. Vanderah. McGraw-Hill, 2024.

6. Bogowicz P., Curtis H.J., Walker A.J. Trends and variation in antidepressant prescribing in English primary care: a retrospective longitudinal study // BJGP Open, 2021, 5(4).

7. Hoefler R., Tiguman G.M.B., Galvão T.F. et al. Trends in sales of antidepressants in Brazil from 2014 to 2020: A time trend analysis with joinpoint regression // J Affect Disord, 2023, p 213-218.

8. Rabeea S.A., Merchant H.A., Khan M.U. et al. Surging trends in prescriptions and costs of antidepressants in England amid COVID-19// Daru, 2021, p 217-221.

9. Hung C., Chan J.K.N. Antidepressant utilization patterns and predictors of treatment continuation in pregnant women: A 16-year population-based cohort // Aust N Z J Psychiatry, 2023, p 686-697.

10. Taylor D. Antidepressant drugs and cardiovascular pathology: a clinical overview of effectiveness and safety // Acta Psychiatr Scand 2008, p 434-442

11. Górska N., Słupski J. Antidepressants in epilepsy // Neurologia i Neurochirurgia Polska, 2018, 52, p.657-661

12. Nour S., Plourde G. Pharmacoepidemiology and pharmacovigilance //Academic Press, 2019, 224p.

13. Давыдов А.Т., Петрова Н.Н., Литвинцев С.В. и др. Современные антидепрессанты, их роль и место в психиатрической и общемедицинской практике // Обзоры по клинической фармакологии и лекарственной терапии, изд. №2, с. 49-62

14. Pericaud A., Straczek C., Montastruc F. et al. Use of antidepressants in unipolar depression in the elderly// Encephale 2022, p. 445-454

15. Woody C.A., Ferrari A.J. A systematic review and meta-regression of the prevalence and incidence of perinatal depression // Journal of Affective Disorders, 2017, 219, p.86-92.

16. Hillhouse T.M., Porter J.H. A brief history of the development of antidepressant drugs: from monoamines to glutamate // Clin Psychopharmacol., 2015, p. 1-21.
17. Courtet P., Lopez-Castroman J. Antidepressants and suicide risk in depression // World Psychiatry, 2017, p. 317-318.
18. Garbe E., Suissa S., Douros A. Pharmacoepidemiology // Handbook of Epidemiology, 2022 , p. 1-55
19. Wang Sheng-Min, Han Changsu, Bahk Won-Myoung et al. Addressing the Side Effects of Contemporary Antidepressant Drugs: A Comprehensive Revien // Chonnam Medical Journal, 2018, p. 101-112
20. Olumuyiwa F.J. Neuropharmacological Classification of Antidepressant Agents Based on their Mechanisms of Action // Archives of Medicine and Health Sciences, 2018, 6(1), p 81-94.
21. Henshall C., Cipriani A., Ruvolo D. et al. Implementing a digital clinical decision support tool for side effects of an-tipsychotics: a focus group study // Evid Based Ment Health, 2019, p. 56-60.
22. Усова А.А., Напалков И.В., Иванова Т.И. Рациональная терапия депрессивных расстройств у беременных (обзор литературы"// Омский психиатрический журнал, 2017, 2 (12), с. 19-23.

Резюме
Современные тенденции и перспективы применения антидепрессантов в Азербайджане
Р.Р. Мамедова, Л.Н. Мансурова

Рост числа людей, страдающих депрессией, привел к глобальному увеличению спроса на антидепрессанты, и повышенному вниманию к данному классу лекарств. В настоящем исследовании анализируются современные тенденции назначения и использования антидепрессантов среди взрослых, а также оцениваются перспективы развития фармацевтического рынка Азербайджана. Исследование представляет собой систематический анализ научной литературы за последние десять лет, посвященной назначению и использованию антидепрессантов в международной практике. Особое внимание уделено особенностям применения фармакоэпидемиологического анализа для оценки характера применения и использования лекарственных средств. Также были представлены специфические показатели распространенности и использования антидепрессантов в Азербайджане.

Summary
Current trends and perspectives of the use of antidepressants in Azerbaijan
R.R. Mammadova, L.N. Mansurova

The increasing number of people suffering from depression has led to a global increase in demand for antidepressants and increased attention to this class of drugs. This study analyzes current trends in the prescription and use of antidepressants among adults and assesses the prospects for the development of the pharmaceutical market in Azerbaijan. The study is a systematic analysis of the scientific literature over the past ten years on the prescription and use of antidepressants in international practice. Particular attention is paid to the specifics of the use of pharmacoepidemiological analysis to assess the nature of the use and prescribing of medicinal drugs. Specific indicators of the prevalence and character of use of antidepressants in Azerbaijan were also presented.

Daxil olub: 17.06.2024

UOT: 574.2:016

Ətraf mühitin mühafizəsi və ekologiyaya dair elmi ədəbiyyatın biblioqrafiyasının qısa xarakteristikası

İ.Z.Əliyeva
Azərbaycan Respublika Dövlət Elmi tibb Kitabxanası, Bakı

Müəllifin elektron poçt ünvanı: irada40@rambler.ru

Açar sözlər: ekologiya, ətrafh mühit, sağlamlıq, sənəd axını, sənəd kütləsi, biblioqrafiya
Ключевые слова: экология, окружающая среда, здоровье, документальный поток, документальный массив, библиография
Key words: ecology, environment, health, document flow, document management, bibliography

Dünyada yaşayan insanların sayının yüz minlərlə ölçüldüyü dövrlərdə şüurlu insanın ətraf mühitə göstərdiyi təsir çox cüzi idi və təbiətdə əsaslı dəyişikliklərə səbəb olmurdu. Lakin insan populyasiyasının sayının milyonlara çatması insanın təbiətə göstərdiyi təsir təbiətdə destruktiv geriyədönməz dəyişikliklərə səbəb olmuşdur [1].

Azərbaycanın canlı aləminə gəldikdə isə qeyd etməliyik ki, ölkədə əhali sayının tədricən artması heyvan, quş və balıq populyasiyalarının həcminin dəfələrlə azalmasına, təbiətə olan təsirin güclənməsi nəticəsində meşələrin qırılması və sahəsinin dəfələrlə azalmasına, zəngin bitki örtüyündən məhrum olmasına səbəb olmuşdur. Məsələn, vaxtı ilə Azərbaycan ərazisində geniş yayılmış şirin son nümayəndəsi 1937-ci ildə Talış meşələrində öldürülmüşdür. Vaxtı ilə ölkəmizin çaykənarı tuqay meşələrində, qamışlıqlarda geniş yayılmış Turan pələnglərinin də aqibəti oxşar olmuşdur. XX əsrin 70-ci illərinə qədər nadir hallarda olsa da, rast gəlinən bu heyvan artıq yoxdur. Təəssüf ki, ölkəmizin ərazisində nəsli kəsilmiş belə heyvan, quş və bitki növlərinin siyahısı xeyli uzundur. "Azərbaycanın canlı aləminə dəyən ziyan nəticəsində bir çox növlərin nəslinin kəsilməsi, digərlərinin belə təhlükə qarşısında olması respublikanın "Qırmızı kitabı"nın səhifələrində öz əksini tapmışdır" [2].

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbərliyinin həm sovet dövründə, həm də müstəqillik illərində ölkəmizdə ətraf mühitin mühafizəsi məsələsinə, ekoloji problemlərə böyük diqqət yetirilmişdir. Bu diqqət Azərbaycanın dünya siyasi-iqtisadi sisteminə inteqrasiya olmasından sonra daha da artmışdır. Məhz onun rəhbərliyi ilə müstəqil Azərbaycanda ətraf mühitin mühafizəsi üzrə dövlət idarəetmə sisteminin əsas prinsipləri formalaşmışdır. O, öz fəaliyyəti dövründə bu məsələyə xüsusi əhəmiyyət verirdi. Məsələn, Heydər Əliyev 2001-ci il mayın 28-də Azərbaycana səfər edən Avropa Parlamentinin nümayəndə heyətinin üzvlərini qəbul edərək onlarla digər məsələlərlə yanaşı, ekoloji problemləri də müzakirə etmişdir [3].

Azərbaycan Respublikası ozon təbəqəsinin qorunması üzrə dünya ictimaiyyətinin bütün səylərini dəstəkləyir və qəbul etdiyi öhdəlikləri ardıcıl olaraq yerinə yetirməyə çalışır. "Azərbaycan Respublikası ozon qatının mühafizəsi haqqında Vyana Konvensiyasını (1985), Monreal Protokolunu (1987), London (1990), Kopenhagen (1992) və Monreal (1997) düzəlişlərini ratifikasiya etmişdir" [4,5,6].

Yuxarıda sadalananlar bu sahə üzrə informasiya təminatı sistemini yaratmaq zərurətini qarşıya qoymuşdur.

Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya üzrə yaranmış ilkin sənəd kütləsi və sənəd axını dinamik şəkildə sürətlə inkişaf etməkdədir. Sənəd kütləsi və axınına elektron resursların da daxil edilməsi bir tərəfdən onun həcminin artmasına, digər tərəfdən bu mənbələrin axtarışının mürəkkəbləşməsinə gətirib çıxarmışdır [7].

Sənəd-kommunikasiyaları sistemində ikinci səviyyə olmaq etibarilə sahə üzrə biblioqrafik ehtiyatın rolu daha da artmış, onun sisteminin yaranması, inkişafı və müasir vəziyyətinin öyrənilməsi biblioqrafiyaşünaslıq elmi qarşısında mühüm vəzifə kimi qarşıya qoyulmuşdur. Məhz bu səbəblər "Müasir dövrdə Azərbaycanda ekoloji problemlərin biblioqrafik informasiya təminatı" adlı dissertasiya işinin mövzusunun aktuallığını şərtləndirir.

Müasir dövrdə sənədşünaslıq, informasiya nəzəriyyəsi, biblioqrafiyaşünaslıqda və bir sıra yaxın elm və fəaliyyət sahələrində informasiya tələbatının təzahür formalarına və digər əlaqədar məsələlərə xüsusi diqqət yetirilir. Bu səbəbdən də həmin tələbat dərindən təhlil edilir.

İnformasiya tələbatı probleminə dair tanınmış rus biblioqrafiyaşünas alim S.P.Koqotkov tərəfindən müdafiə edilmiş dissertasiya işi bu sahəyə aydınlıq gətirmişdir. Ətraf mühitlə bağlı problemlərin kəskinləşməsi, tədqiqatların intensivləşməsi XX əsrin ən xarakterik fenomenlərindən biridir. "Bu fenomen cəmiyyətin ətraf mühitin mühafizəsi və ekologiya mövzusuna dair alim və tədqiqatçıların informasiya tələbatının artmasına səbəb olur" [8].

Bu istiqamətdə respublikanın qabaqcıl kitabxanaları olan Azərbaycan Milli Kitabxanası, AMEA Mərkəzi Elmi Kitabxanası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, Azərbaycan Respublikası Elmi-Tibb Kitabxanası və BDU-nun Elmi Kitabxanasında mühüm işlər görülmüşdür.

Ətraf mühitin qorunması üzrə dövlət idarəetməsi, praktiki fəaliyyət, ekologiya elminin və təhsilinin fəaliyyət göstərməsi üçün informasiya tələbatının öyrənilməsi vacibdir.

Tədqiqat çərçivəsində tərəfimizdən bəhs edilən sahənin aparıcı müəssisələrinin kontingentinin peşə, vəzifə və digər parametrləri öyrənilmiş və ilk dəfə olaraq bu sahə üzrə anket sorğusu keçirilmiş, 330 sahə mütəxəssisinə xüsusi tərtib edilmiş anket sorğusu paylanmışdır. Məlum olmuşdur ki, tələbatçıların əksəriyyəti - 80%-dən çoxu informasiya axtarışı üçün kitabxanalara (ilk növbədə elmi) müraciət edir, biblioqrafik vəsaitlərdən - göstəricilərdən, kataloq və kartoteka sistemindən istifadə edir. Tələbatçılar təkcə ekologiyanın ayrı-ayrı sahələri, həm də təbiət elmlərinə dair informasiya tələbatlarının intensivliyi ilə seçilir. Respondentlər ənənəvi mənbələrlə yanaşı, onlayn informasiya resurslarına da tez-tez müraciət edirlər [9].

Respublikanın bu sahə üzrə ixtisaslaşmamış aparıcı kitabxanalarının fondlarında ekologiya üzrə kitabların faiz payı çox azdır. Tədqiq edilən fondların tərkibində öyrəndiyimiz sahəyə dair kitabların içərisində dil baxımdan ilk yeri rus dilində, ikinci yeri isə Azərbaycan dilində kitablar təşkil edir. AMEA Mərkəzi Elmi Kitabxanası və Azərbaycan Milli Kitabxanasının dövri nəşrlər fondu bu baxımdan daha zəngindir və bura respublikada çıxan dövri nəşrlərlə yanaşı, xarici dövri nəşrlər də daxil olur [10].

İndiyədək ən erkən zamanlardan müasir dövrə kimi Azərbaycanda nəşr edilmiş sənədlərdən ibarət sənəd kütləsinin tərkibində ətraf mühitin mühafizəsi və ekologiya üzrə sənəd kütləsinin yeri və rolunu əks etdirən retrospektiv vəsait hazırlanmamışdır. Bu funksiyanı qismən də olsa və çox dar xronoloji əhatədə 2009-cu ildə Azərbaycan Milli Kitabxanası tərəfindən tərtib və nəşr edilmiş "Azərbaycan ekologiyası - 10 ildə" adlı retrospektiv elmi-köməkçi biblioqrafik göstərici yerinə yetirmişdir.

Aşkara edilmişdir ki, idarə aidiyyətindən asılı olmayaraq Respublikada 8.507 kitabxana mövcud olmuşdur. Bu kitabxanaların fondunda cəmi 110.994.331 nüsxə sənəd olmuşdur. Tədqiq olunan mövzu üçün əhəmiyyət kəsb edən 8 aparıcı kitabxana və bir ixtisalaşdırılmış fondda formalaşmış sənəd kütləsinin ümumi parametrləri və onun tərkibində bizi maraqlandıran sənədlərin payı araşdırılmışdır.

Məlum olmuşdur ki, bizi maraqlandıran tematikaya dair sənədlərin ən yüksək konsentrasiyası Orhus Proqramı çərçivəsində yaradılmış İctimai Ekoloji İnformasiya Mərkəzinin sənəd fonduna məxsusdur. Bu fond bizim tədqiq etdiyimiz kitabxananın ümumi fondunda ətraf mühit və ekologiya üzrə kütlənin, onun aparıcı hissəsi olan kitabların xüsusi çəkisinin ən yüksək göstəricilərinə malikdir ki, bu da faiz baxımdan müvafiq olaraq 46% və 31,4% təşkil edir.

Növbəti yerdə Ekologiya və Təbii Sərvətlər Nazirliyində Arxiv İnformasiya Fondunun Elmi-Texniki Kitabxanasının fondu durur. Burada sahə üzrə kitabların xüsusi çəkisi gözlənilən qədər də yüksək deyildir və 2,4% təşkil edir.

Azərbaycan Milli Kitabxanasının fonduna yönələn sənəd axını nəticəsində 25 il ərzində ətraf mühitin mühafizəsi və ekologiya üzrə Azərbaycan dilində kitablar intensiv artaraq 49 addan 430 ada qədər, rus dilində kitablar artaraq 610 addan 1650 ada qədər çoxalmışdır.

AMEA Mərkəzi Elmi Kitabxanasının fonduna daxil olan sənəd axını 1,5-1,2% arasında dəyişir. Respublika Elmi-Tibb Kitabxanasının fondunda 2011-ci illə müqayisədə 2012-ci ildə kitabxananın fonduna daxil olan sənəd axınının ayrı-ayrı tərkib hissələri 0,35%-dən 2,46%-ə qədər artım nümayiş etdirmişdir.

AMEA akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun kitabxanasının fondunda 2014-cü ilin məlumatlarına əsasən bütün növdən olan sənədlərin miqdarı 55.000 nüsxə olmuşdur və 2014-cü il ərzində fonda 60 nüsxəsi kitab olmaqla 437 nüsxə yeni sənəd daxil olmuşdur. Kitabxananın sənəd kütləsinə daxil olan sənəd axınının 1,146% olması müəyyənləşdirilir.

Son illər ərzində Respublika Elmi-Kənd Təsərrüfatı Kitabxanasının fonduna daxil olan sənəd axını orta hesabla 0,28% artım nümayiş etdirir ki, bu da fondun daima yeniləndiyini sübut edir.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının fonduna son 13 il ərzində daxil olan sənəd axının tərkibində ekologiya mövzulu kitabların ən yüksək faiz dərəcəsi 2005-ci ilə - 1,15%, daha sonra 2008-ci ilə - 1,13%, ən aşağı pay isə 2003-cü ilə - 0,51% və 2010-cu ilə - 0,50% aiddir.

Azərbaycanın bu sahə üzrə ən əsas kitabxanalarının təcrübəsi ümumiləşdirilmiş və onların sənəd kütləsi və axını baxımından fəaliyyəti təhlil edilmiş və müəyyənləşdirilmişdir ki, bu kitabxanalarda biblioqrafik təminatın bir çox istiqamətləri həyata keçirilməkdədir. Həmin kitabxanaların əksər hissəsi bəhs etdiyimiz sahə üzrə soraq-biblioqrafiya aparatını (SBA) təşkil edir, soraq biblioqrafiya xidməti, tövsiyə-biblioqrafiya fəaliyyəti həyata keçirirlər.

Apardığımız tədqiqatlar nəticəsində respublikanın bir sıra aparıcı kitabxanalarında bəhs edilən sahə üzrə formalaşmış sənəd kütləsi, onların fondlarına daxil olan sənəd axınının xüsusiyyəti, sənəd axınının tərkibində bəhs edilmiş mövzu üzrə sənədlərin (o cümlədən elektron sənədlərin) xüsusi çəkisi müəyyənləşdirilmiş, bu sahədə aparılan biblioqrafik fəaliyyətin (o cümlədən elektron formada), biblioqrafik təminatın müxtəlif istiqamətləri təhlil edilmişdir.

Beləliklə, aparılan araşdırmalar belə bir fikrə gəlməyə əsas verir ki, tədqiq etdiyimiz kitabxanaların böyük əksəriyyətində həm bütün fond, həm də onun tərkib hissəsi olan təbiətin mühafizəsi və ekologiya üzrə kitab kolleksiyalarına aid sənəd axını stabil müsbət parametrlərə malikdir və bu sahə üzrə tələbatçıların yeni ədəbiyyatla təminatı məsələsinin öhdəsindən qismən də olsa gələ bilir.

Azərbaycanda ətraf mühitin mühafizəsi və ekologiya elmi sahəsində kitabxana-biblioqrafik təminat mövcud ictimai informasiya tələbatını müəyyən qədər ödəyə bilir. Lakin bu vəziyyət kitabxanaçıları, biblioqrafları arxayın etməməli, bu sahədə işin yaxşılaşdırılması üzrə mövcud ehtiyat imkanları nəzərə alınmalı, qabaqcıl dünya təcrübəsi öyrənilməli və tətbiq edilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan SSR-in Qırmızı kitabı: nadir və nəsli kəsilmək təhlükəsi olan heyvan və bitki növləri / red. hey. Ç.M.Adıgözəlov, U.K.Ələkbərov, tərt. H.S.Abbasov [və b]. – Bakı: İşıq, c. 30, – 1989. – 543 s.

2. Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair milli strategiya və fəaliyyət planı // Xalq qəzeti, 2006, 23 mart, s. 2-4.

3. Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram // Xalq qəzeti, 2003, 18 fevral, s. 2-4.

4. Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunması və davamlı istifadəsinə dair milli strategiya və fəaliyyət planı // Xalq qəzeti. – 2006, 23 mart, s. 2-4.

5. Atmosferin çirklənməsi problemi: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasının rəsmi saytı.URL: http://files.preslib.az/projects/ azereco/az/eco_m2_5.pdf

6. Коготков С.Д. Некоторые вопросы теории информационных потребностей // НТИ. Сер.1.– 1979. №2, с.1-8.

7. Зубов А.А. Становление и первоначальное расселение рода «Homo». СПб: Алетейя, 2011, с. 44-57.

8. İsmayılov N.İ Azərbaycan SSR-də tibb işçilərinin peşə tələbatının öyrənilməsi əsasında təbabət üzrə məhəlli sənəd axınının təhlili // Sənəd axını və elmin müxtəlif sahələrinin biblioqrafik biblioqrafik təminatı problemləri, Elmi əsərlərin mövzu məcmuəsi, 1986, s. 73.

Резюме
Краткое описание библиографии научной литературы
по охране окружающей среды и экологии
И.З. Алиева

Экология - это синтетическое биологическое учение или наука о взаимодействии живых организмов с окружающей их средой. Основной задачей экологии является изучение взаимодействия энергии и вещества в экосистемах. Важно изучать информационные потребности для государственного управления, практической деятельности, деятельности науки об окружающей среде и образования по охране окружающей среды. Основной задачей учреждений, действующих в системе экологических документальных коммуникаций, в первую очередь, основной задачей библиотек является удовлетворение информационных потребностей в этой области, в Азербайджане и за рубежом были проведены строгие исследования в этой области, и мы предоставили обзор мыслей и

научных публикаций по этому поводу. Было известно, что респонденты часто обращаются к традиционным источникам и онлайн-информационным ресурсам. Полученные результаты имеют большое значение для улучшения документальной информации и библиографического обеспечения пользователей информации в этой области. Поток документов по этой области относительно низкий в других библиотеках и относительно высокий в других. Например, годовой поток документов составил 0,2% по титулам и 0,15% по экземплярам в фонде Научной библиотеки, созданной в Министерстве экологии и природных ресурсов Азербайджанской Республики. Поток периодических изданий в экземплярах составил 0,07% от соответствующей массы. Учитывая исключительное положение общества в предоставлении первичной документной и библиографической информации, ее наличие в крупных городах, начиная с самых отдаленных регионов страны, ее доступность для граждан и другие факторы, несомненно, библиотеки являются основным институтом системы документальной коммуникации в обсуждаемой нами области. Действительно, практически все документы по данной обсуждаемой нами области собираются в библиотеках посредством документооборота, тем самым формируется и развивается документная масса. Библиотеки не только формируют фонд-массу в соответствии со своими общественными функциями, но и структурируют этот фонд, раскрывают его состав перед потенциальными потребителями библиографическими методами и организуют максимально эффективное использование общественностью этого ценного ресурса.

Summary

Brief description of the bibliography of scientific literature on environmental protection and ecology

I.Z. Aliyeva

Ecology is a synthetic biological training or science about the interaction between living organisms and their environment. The main task of ecology is to study the interaction of energy and matter in ecosystems. It is important to study the information needs for public administration, practical activity, the activity of the science of environment and education on environment protection. The main task of the institutions operating in the system of ecological documentary communications, first of all, the main task of libraries is to meet the information needs on this field, strict researches have been conducted in Azerbaijan and in abroad on this field and we provided the review of thoughts and scientific publications about it. It was known that, respondents often appeal to traditional sources and online information resources. The obtained results have great importance for the improvement of documentary information and bibliographic provision of information users of the field. The flow of documents on this area is relatively low in other libraries and relatively high in others. For example, the annual document flow constituted 0.2% on title and 0.15% on copies in the fund of the Scientific Library established in the Ministry of Ecology and Natural Resources of the Republic of Azerbaijan. The flow of periodical publications on copies constituted 0.07% of the appropriate mass. Taking into account the exclusive position of the society in the provision of primary document and bibliographic information, its existence in major cities starting from the most remote regions of the country, its accessibility for citizens and other factors, undoubtedly, the libraries are the main institution of the documentary communication system on the field we discussed. Indeed, almost all of the documents on this area we discussed are collected in libraries through the document flow, thus document mass forms and develops. The libraries do not only form the mass-fund according to their public functions, but also structure this fund, disclose their composition before potential consumers with bibliographic methods and organize the efficient public use this valuable resource as possible. \

УДК: 616.24-002.5:616-002.77

Случай туберкулезного менингоэнцефалита у больной с ревматоидным артритом

А.А. Алекперова С.А.Фараджева, Ш.М.Велиева
Азербайджанский медицинский университет,
кафедры Легочных болезней, г.Баку

Адрес электронной почты автора: veliyeva_safa@mail.ru

Açar sözlər: steroidli vərəm, vərəm mənşəli meninqoensefolit, hüceyrə immuniteti
Ключевые слова: стероидный туберкулез, туберкулезный менингит, клеточный иммунитет
Key words: steroid tuberculosis, tuberculosis meningoencephalitis, cellular immunity

Ревматоидный артрит - хроническое системное заболевание, характеризующееся воспалением суставов с постепенным их разрушением в результате деструкции хряща и костей, что наряду с внесуставными проявлениями болезни приводит в конечном итоге к хронизации процесса, потери трудоспособности, обездвижению больного и преждевременной его смерти. Применяемые при данной патологии кортикостероидные гормоны обладают противовоспалительным и десенсибилизирующим действиями. Они нормализуют обмен веществ, регулируют физиологические и патологические процессы в организме. Но, наряду с положительным влиянием глюкокортикостероиды обладают и отрицательным действием. Одним из тяжелых и нередких осложнений стероидной терапии является оживление инфекции в организме, в том числе и туберкулезной, вследствие угнетения клеточного иммунитета. Также было установлено, что образующийся при ревматоидном артрите фактор некроза опухоли, стимулирует выработку цитокинов, рекрутирует и активирует лейкоциты в очаге воспаления. При этом усиливается пролиферация, повышается синтез простагландинов, а также резорбция костей и хрящей. Развившийся туберкулезный процесс протекает с наклонностью к казеозному некрозу [1-5].

Таким образом, подтверждая тяжесть течения туберкулезного процесса у больных, страдающих ревматоидным артритом, приводим пример собственного клинического наблюдения.

Больная Х, 32 лет, поступила в менингитное отделение противотуберкулезного диспансера (ПТД) №4 г. Баку, куда была направлена врачом частной клиники, где получала лечение по поводу ревматоидного артрита. Данной патологией пациентка страдает более 8 лет и на протяжении всего этого времени ей был назначен курс терапии, состоящий из приема глюкокортикостероидов. Со слов больной в начале марта 2022 года у нее появились общая слабость и головные боли. Неоднократно обращалась в частные клиники, где она получала противовоспалительное лечение. Однако состояние наблюдаемой не улучшалось. При появлении высокой температуры, судорог, неукротимой рвоты по направлению частного врача была госпитализирована в менингитное отделение ПТД №4.

Данные объективного обследования. Состояние больной тяжелое. Тип телосложения нормостенический. Сознание сопорозное. Кожные покровы и видимые слизистые чистые, бледной окраски. Подкожно-жировая клетчатка развита удовлетворительно. Периферические лимфатические узлы не пальпируется. Костно-мышечная система без видимой патологии. Грудная клетка без деформации. При пальпации голосовое дрожание в верхней части правого легкого ослаблено. В этой же зоне перкуторный звук укорочен. Аускультативно – в легких выслушивается жесткое дыхание. Тоны сердца приглушены. Артериальное давление - 110/80 мм рт. ст., пульс - 96 ударов в минуту. При пальпации живота, он мягкий и безболезненный. Печень и селезенка не увеличены. Симптом Пастернацкого «отрицательный» с обеих сторон. Мочеиспускание самопроизвольное, безболезненное. Отмечается задержка стула. Наблюдается ригидность шейных мышц, положительные симптомы Кернинга и Брудзинского.

Данные лабораторных и инструментальных методов исследования. Общий анализ крови: гемоглобин – 11,4 г/л, эритроциты $4,15\times10^{12}$, цветной показатель - 0,7%, лейкоциты $7,7\times10^{9}$/л,

палочкоядерные нейтрофилы - 3%, сегментоядерные нейтрофилы - 75%, эозинофилы - 0%, лимфоциты - 19%, моноциты - 3%, скорость оседания эритроцитов - 50 мм/ч.

Биохимический анализ крови: общий белок - 70 г/л, общий билирубин - 2,8 мкмол/л: свободный билирубин - 1,0 мкмол/л, связанный билирубин - 1,8 мкмол/л, аланинаминотрансфераза-6021 u/l, аспартатаминотрансфераза - 534,1 u/l, креатинин - 51 мкмол/л, глюкоза - 4,9 ммол/л, С-реактивный белок в пределах нормы. При проведении анализа мочи было установлено, что биологический материал желтого цвета, прозрачный, белок в нем не выявлен, удельный вес равен 1015, реакция кислая. В поле зрения – единичный плоский эпителий, 10-12 лейкоцитов, 1-2 неизмененных эритроцитов и в незначительном количестве слизь

На обзорной рентгенограмме грудной клетки в верхней доле правого легкого на фоне очагово-инфильтративных изменений была выявлена полость распада. Магнитно-резонансная томография мозга выявила в височной области туберкулому размером 7 мм в диаметре. В паренхиме мозга на фоне диффузного отека в теменной и височной областях определялись очагово - подобные тени.

При трехкратном заборе мокроты с последующим бактериоскопическим исследованием по методу Циль-Нильсена микобактерии туберкулеза (МБТ) не были обнаружены. Культивирование на твердой питательной среде методом Левенштейна-Йенсена и при использовании катриджной технологии GeneXpert МТБ/RIF удалось определить резистентность к рифампицину. Примененный молекулярно-генетический метод с использованием полимеразно-цепной реакции (ПЦР) выявил видовую идентификацию M.tuberculosis. При проведении спинномозговой пункции, жидкость вытекала под высоким давлением и была мутной. Анализ ликвора установил следующие изменения: реакция Панди - 3 «+», белок - 0,66 q/l, цитоз - 506×10^6/l, через 24 часа выпала фибриновая пленка. При микробиологическом обследовании обнаружены МБТ, устойчивые к рифампицину.

Результаты клинико-рентгенологических и лабораторно-инструментальных исследований позволили нам поставить следующий диагноз больной. Основной: туберкулезный менингоэнцефалит, БК (+) в ликворе. Сопутствующий инфильтративный туберкулез верхней доли правого легкого в фазе распада БК (+). В стационаре, согласно протоколу Министерства Здравоохранения Азербайджанской республики «Химиотерапия устойчивых форм туберкулеза», в лечение больной были включены линезолид, бедаквилин, левофлаксацин, протионамид и пиразинамид. Однако, проводимая терапия не дала положительных результатов. Больная умерла от нарастающей легочно-сердечной недостаточности через 22 дня.

Заключение. Таким образом, результат проведенного клинического наблюдения пациентки с туберкулезным менингоэнцефалитом, свидетельствует о том, что специфический процесс, развывшийся на фоне приема стероидных препаратов, многократно усложняет лечение больных.

ЛИТЕРАТУРА

1. Байбородова Т.И., Байбородова И.П., Корягина Н.В. и др. Клиническое проявление туберкулеза в современных условиях// Клиническая медицина, 2003, №1, с.30-31

2. Барканова О.Н., Гагарина С.Г., Калуженина А.А. Стероидный туберкулез // ФГБОУ «Волгоградский государственный медицинский университет», 2020, с.52-54

3. Борисов С.Е., Лукина Г.В., Слогоцкая Л.В. Скрининг и мониторинг туберкулезной инфекции у ревматологических больных, получающих генно-инженерные препараты // Туб. и болезни легких, 2011, №6, с.42-50

4. Порохов Е.П. Стероидный туберкулез. Порохов Е.П.-М.ЦОЛИВ, 1981, с.21

5. Тещенков А.В., Шумилов П.В., Мякишева Т.В., Авдеев Т.Г. Возникновение и течение латентной туберкулезной инфекции у детей с ревматоидным артритом // Вестник Смоленской Государственной мед. академии, 2016, №15, с.64-71.

Xülasə
Revmatoid artriti olan xəstələrdə vərəm mənşəli meninqoensefolitin halı

A.A Ələkbərova S.Ə. Fərəcova, Ş.M.Vəliyeva

Beləliklə, vərəm meninqoensefoliti olan xəstənin klinik müşahidəsi spesifik prosesin steroid preparatların uzun müddətli qəbulu fonunda yarandığını eyni zamanda hüceyrə immunitetinin zədələnməsi

ilə müşayiət olunan ağır patologiya olduğunu göstəirir. Bu isə öz növbəsində orqan və toxumalarda geridönməyən dəyişikliklərə gətirib çıxarır.

Summary
Case of tuberculosis meningoencephalitis in a patient with rheumatoid arthritis
A.A. Alakbarova, S.A.Farajova, Sh.M.Veliyeva

The results of the clinical observation of a patient with tuberculosis *meningoencephalitis* indicate that a specific process developing against the background of taking steroid drugs is a severe pathology in which cellular immunity suffers. This, in turn, leads to irreversible processes of dysfunction of organs and tissues

UOT: 616-053.31-022.6

Neonatal sepsisin klinik və immunopatogenetik xüsusiyyətləri

N.T. Kərimova
Azərbaycan Tibb Universiteti, Biokimya kafedrası;
K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Bakı

Müəllifin elektron poçt ünvanı: etplaboratoriya@mail.ru

Açar sözlər: sepsis, vaxtından əvvəl və vaxtında doğulanlar, AMP-alfa defenzinlər, endotoksin, IL-6, IL-8
Ключевые слова: сепсис, недоношенные и доношенные дети, AMP-альфа дефензины, эндотоксин, IL-6, IL-8
Key words: sepsis, preterm and term babies, AMP-alpha defensins, endotoxin, IL-6, IL-8

Yenidoğulan uşaqlarda ölüm hallarının aparıcı səbəblərindən biri yoluxucu xəstəliklər sayılır. Statistikaya nəzər salsaq, dünyada hər il 7 mln yaxın uşaqda neonatal infeksiyalar aşkar olunur, hansı ki 600 000 çox yenidoğulanın ölümünə gətirib çıxarır [1,2]. Neonatal sepsisin müxtəlif formaları zamanı yenidoğulanlarda antimikrob peptidlərin (Defenzinlər, Endotoksinlər) sitokinləri IL-6, IL-8 təyini erkən diaqnostikanın və müalicə taktikasının seçilməsinin təkmilləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Sepsisli yenidoğulan uşaqlarda antimikrob peptidlərin və sitokinlərin klinik-biokimyəvi göstəricilərlə qarşılıqlı əlaqələri qeyd edilir ki, bunlar xəstəliyin müxtəlif gedişini və ağırlaşmaların inkişaf riskini müəyyənləşdirir.

Geniş miqyaslı tədqiqatlarda göstərilmişdir ki, kultural müayinə ilə sübut olunmuş neonatal sepsisin yayılması müxtəlif tədqiqatlarda meyarlardan və nümunə götürmə texnikasından, eləcə də müxtəlif ölkələrdə səhiyyə və xəstəxana xidmətlərinin keyfiyyətindən asılı olaraq 10%-dən 50%-ə qədər tərəddüd edir [3]. Bundan başqa, qızılı stafilokoklara, Haemophilus influenzae və entrokokklara da rast gəlmək olar [4,5,6]. Vacib bir fakt ondan ibarətdir ki, əvvəllər tanınmamış, kultivasiyası mümkün olmayan və ya çətin olan törədicilər də erkən NS-in etiologiyasında rol oynayır. Bu baxımdan, F. nucleatum E. coli ilə eyni əhəmiyyətə malik etioloji amil hesab edilə bilər [7].

Çox az kütləli yenidoğulanlarda gecikmiş sepsisin yaranma riski daha çox olur.Bu da onların immun sisteminin tam formalaşmaması, intensiv terapiya şöbəsində ağciyərlərin süni ventilyasiysında uzun müddət qalması, endotraxial boruların, kateterlərin və başqa invaziv prosedurların tətbiqi ilə izah edilir [8].

Bir sıra tədqiqatlarda göstərilmişdir ki, CD4+ T-hüceyrələri sepsisli xəstələrdə sağlam insanlara nisbətən əhəmiyyətli dərəcədə yüksəlir. Müəlliflərin təklifinə əsasən, CD4+ T-limfositlərin miqdarı sepsisli xəstələrin nəticələrini proqnozlaşdırılması üçün istifadə edilə bilər [9]. Sepsisli xəstələrdə CD3+, CD4+ və CD4+/CD8+ səviyyələri sağlamlardan əhəmiyyətli dərəcədə fərqləndiyinə görə, və xəstəlik ağırlaşdıqca daha da qabarıq şəkildə fərq nümayiş etdiyinə əsasən bu markerləri müalicənin effektivliyini və sağalma ehtimalını dəyərləndirmək üçün də faydalı saymaq təklif olunmuşdur [10].

Antimikrob peptitlər (AMP) immun sistemin anadangəlmə qeyri-spesifik humoral amillərindən sayılır. AMP orqanizmin bir sıra patogenlərdən (viruslar, bakteriyalar, göbələklər və s.) müdafiəsini təmin edir [11, 12]. Bu peptidlərin əsas lokalizasiyası neytrofillərin lizosomlarıdır. Geniş bioloji aktivliyə malik olan AMP iltihabi proseslərdə dendrid hüceyrələrinin, mikro– və makrofaqların hemotaksisini təmin edir, tosqun hüceyrələrin deqranulyasiyasını stimulə edir. İnsanlarda 3 növ AMP ayırd edilir: defenzinlər; katelisidinlər; histatinlər [13,14,15].

Tədqiqatın material və metodları:Tədqiqat Bakı şəh. K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun və Bakı şəhəri 7 saylı doğum evinin nəzdində aparılıb. Müayinələr K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun yenidoğulanlarn patologiyası, anesteziologiya və reanimasiya şöbələrində və elmi-tədqiqat laboratoriyasında həyata keçirilib. Tədqiqat zamanı 130 yenidoğulan uşaq müayinə edilmişdir. Bunlardan 100 nəfər sepsis diaqnozu ilə stasionar müalicə alan uşaqlar və 30 nəfər sağlam yenidoğulan uşaqlar. Müayinədə iştirak edən uşaqlar aşağıdakı qruplara bölünmüşdür:

I qrup - sepsis diaqnozlu, hestasiya yaşı 38-41 həftə olan yenidoğulan uşaq (n=35);

II qrup - sepsis diaqnozlu, hestasiya yaşı 27-37 həftə olan yenidoğulan uşaq (n=65);

Nəzarət qrupu: sağlam yenidoğulan uşaqlar (n=30), bunlardan 23-ü vaxtında, 7-si isə vaxtından əvvəl doğulanlar olmuşdur.

Tədqiqatın məqsədi. Antimikrob peptidlərin, sitokinlərin informativliyinin təyini əsasında vaxtında və vaxtından əvvəl doğulan uşaqlarda sepsis zamanı immun sistemdə baş verən dəyişikliklərin patogenetik mexanizmlərinin öyrənilməsi olmuşdur.

Tədqiqatın material və metodları. Doğuş yollarını müqayisə etdikdə vaxtında doğulanların arasında təbii yolla 19 (54,3%) uşağın dünyaya gəldiyi qeyd edilmişdir. Qalan doğuşlar (16 (45,7%)) keysəriyyə əməliyyatı vasitəsilə həyata keşirilmişdir. Vaxtından əvvəl doğulanların qrupunda daha çox təbii yolla doğuş qeydə alınmışdır (38 (58,5%)), keysəriyyə əməliyyatı isə 27 (41,5%) halda tətbiq edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Tədqiqatımızın vəzifələrinindən irəli gələn məsələrdən biri də erkən və gecikmiş neonatal sepsis zamanı patoloji prosesin səciyyələndirən biokimyəvi göstəricilərin plazma səviyyələrində dəyişikliklərini müəyyənləşdirmək yolu ilə sepsisin müxtəlif gedişində proqnozlaşdırmağı təkmiləşdirməkdir. Sepsis zamanı qaraciyər zədələnməyə məruz qalan əsas orqanlardan biri olaraq nəyinki xəstəliyin ağırlığı haqqında məlumat verir, həmçinin öz funksiyalarını adekvat yerinə yetirmə qabiliyyəini müxəlif dərəcədə itirdiyi ilə bağlı qanda diqər göstəricilərin səviyyəsində müəyyən dəyişikliklərə səbəb olur.

Belə ki, ÜB qanda səviyyəsi erkən sepsis zamanı gecikmiş sepsisli VD yenidoğulanlardan əhəmiyyətli aşağı olmuşdur. Eyni xarakterli dəyişikliklər QDB səviyyəsində də müşahidə edilmidir. Hər iki halda göstəricilər yarımqruplar arasında dürüst fərq nümayiş etməsədə, statistik dürüstlük əmsalının çox yaxın qiymətləri ilə səciyyələnmişdir (müvafiq olaraq, p=0,413 və p=0,464).

Nəzərə alsaq ki, bakterial endotoksin qram-mənfi bakteriyaların xarici hüceyrə divarının daimi struktur komponentidir, onlar məhv edildikdə bu AMP azad olunur və endotoksinin qanda artmasına səbəb olur. Ehtimal etmək olar ki, erkən sepsis zamanı bu prosess daha tez və aşkar formada təzahür edərək, heləcə də sürətlə azalmaya meyl göstərir. Sitokinlərin miqdarını və dinamikasını təhlil edərək müəyyən etdik ki, IL-6 vaxtından əvvəl doğulan neonatal sepsisli uşaqlarda erkən formada 44,5±6,5 pq/ml təşkil edərək, nəzarət qrupundan dürüst yüksək olmuşdur (p<0,001). Bu parametr gecikmiş sepsis zamanı da nəzarət rəqəmlərindən yüksək olmuşdur (50,8±2,7 pq/ml). IL-8 analoji tendensiya ilə səciyyələnmişdir. Belə ki, ilk yoxlamada bu sitokinin miqdarı erkən sepsis zamanı 306,59±14,09 pq/ml olaraq, gecikmiş sepsisdə yaxın rəqəmlərdə özünü biruzə vermişdir (307,22±8,17 pq/ml). Hər iki nəticə nəzarət qrupunun qiymətlərindən yüksək olmuşdur (p<0,001). Təkrar yoxlama zamanı IL-8 azalmağa meyillik göstərsədə, alınmış nəticələr (müvafiq olaraq, 193,3±10,7 pq/ml və 188,5±9,4 pq/ml) hələ də müqayisə məqsədilə müayinəyə cəlb edilmiş VƏD uşaqların rəqəmlərindən dürüst fərqlənmışdır.

Cədvəl 1

Vaxtında doğulan sepsisli uşaqlarda AMP və sitokinlərin göstəriciləri

Göstəricilər	Nəzarət qrupu (n=23)	Neonatal sepsis (n=35)		p1	p2
		Birinci yoxlama	Təkrar yoxlama		
α-defenzin, nq/ml	48,4±1,3 (31,2-58,4)	771,8±37,6 (323,9-1098,0)	380,0±21,1 (113,4-625,7)	<0,001	<0,001
Endotoksin, BV/ml	0,410±0,018 (0,27-0,57)	1,500±0,024 (1,24-1,77)	1,151±0,073 (0,37-1,68)	<0,001	<0,001
IL- 6, pq/ml	3,3±0,2 (1,7-5,6)	51,3±3,7 (11,2-77,2)	26,6±1,4 (10,9-36,7)	<0,001	<0,001
IL-8, pq/ml	11,6±0,4 (6,7-15,1)	325,1±8,0 (229,6-398,4)	203,0±12,1 (111,3-381,0)	<0,001	<0,001

Qeyd: P- statistik dürüstlük əmsalı: P1– nəzarət qrupu ilə; P2 – neonatal sepsisli xəstələrdə yoxlmalar arasında

Tədqiqatımızın məqsəd və vəzifələrinə müvafiq olaraq neonatal sepsisli uşaqlarda antimikrob peptidlərin (defenzinlər və endotoksin) və sitokinlərin (IL-6 və IL-8) səviyyəsini dinamikada təyin etmişik. Statistik əhəmiyyətli artım həm erkən sepsis, həm də gecikmiş sepsis zamanı müşahidə edilmişdir (müvafiq olaraq, 716,7±53,3 nq/ml və 731,3±31,8 nq/ml). Göstəricilərin belə yüksək olması iltihabin ilk günlərdə hər iki formada aşkar təzahür etməsi ilə bağlıdır. Təkrar ölçmədə isə bu göstərici daha çox erkən sepsis olan

uşaqlarda zamanı azalmışdır, bu fərq əvvəlki rəqəmlərlə dürüst olmuşdur (müvafiq olaraq, 1,487±0,034 EU/ml və 0,987±0,110 EU/ml; p<0,001). Gecikmiş sepsisli VƏD uşaqlarda isə endotoksinin miqdarı ilk nəticəyə nisbətən cüzi azalaraq, nəzarət qrupundan yüksək qiymətlərdə qalmışdır (müvafiq olaraq, 1,526±0,015 EU/ml və 1,318±0,037 EU/ml).

Cədvəl 2

Vaxtından əvvəl doğulan sepsisli uşaqlarda AMP və sitokinlərin xüsusiyyətləri

Göstəricilər	Nəzarət qrupu (n=7)	Neonatal sepsis (n=65)			
		Erkən NS (n=15)		Gecikmiş NS (n=50)	
		İlk yoxlama	Təkrar yoxlama	İlk yoxlama	Təkrar yoxlama
α-defenzin, nq/ml	41,9±4,2 (25,8-58,4)	716,7±53,3 (448,7-1033)	336,7±31,6 (155,5-521,5)	731,3±31,8 (397,2-1076)	371,2±16,2 (189,4-655,8)
Endotoksin, BV/ml	0,337±0,019 (0,25-0,39)	1,487±0,034 (1,28-1,73)	0,987±0,110 (0,46-1,61)	1,526±0,015 (1,27-1,69)	1,318±0,037 (0,45-1,61)
IL- 6, pq/ml	3,1±0,3 (2,1-4,5)	44,5±6,5 (11,6-76,9)	24,2±2,49 (10,2-35,2)	50,8±2,7 (16,8-74,3)	27,03±1,09 (13,4-39,1)
IL-8, pq/ml	12,27±0,45 (10,8-14,5)	306,6±14,1 (173,2-378,7)	193,3±10,7 (119,4-233,9)	307,22±8,17 (134-396,1)	188,5±9,4 (53,8-378,3)

Qeyd: p- statistik dürüstlük əmsalı: P1– nəzarət qrupu ilə; P2 – neonatal sepsisli xəstələrdəyoxlalar arsında arasında.

Tədqiqatın nəticələri. Apardığımız tədqiqatın nəticələrinə əsasən demək olar ki, alfa defenzinlərin endotoksinlərin, interleykinlərin markerlərin əhəmiyyətini qiymətləndirərkən nəzərə almaq lazımdır ki, sepsisli xəstələrin immun statusuna həm patoloji prosesin özü, həm də ağır infeksiyaya xas olan bir çox parametrlər təsir edir. Vaxtında və vaxtından əvvəl doğulanlarda sepsisin erkən başlanğıcı AMP və sitokinlərin yüksək səviyyəsi (xüsusən də, IL-6) ilə əlaqələndirilir ki, bu da hamilə qadının orqanizmində viral, bakterial, göbələk təbiətli infeksion amillərin və ya bağırsaq disbiozu zamanı yoluxucu agentin uzun müddət ərzində persistensiya edilməsi nəticəsində homeostazının pozulmaları və bu fonda reaktivliyinin xüsusiyyətlərindən irəli gələn fetal monositlərin/makrofaqların preaktivləşməsi ilə əlaqələndirilə bilər [16,17]. Sepsis diaqnozu təsdiqlənmiş VD uşaqlarda α-defenzin xəstəliyin ilk günlərində 771,8±37,6 nq/ml təşkil edərək, nəzarət qrupunun nəticələrindən dürüst fərqlənmişdir (p<0,001). Dinamikada bu göstərici iltihabi prosesin zəifləməsinin təcəssümü olaraq azalmışdır və 380,0±21,1 nq/ml təşkil etmişdir.). VƏD uşaqlarda analoji dinamika həm α-defenzin (müvafiq olaraq, 727,9±27,2 nq/ml və 363,2±14,5 nq/ml; p<0,001) olmuşdur.

Nəticələrə əsasən, həm AMP, həm sitokinlər sepsisli xəstələrdə sağlam yenidoğulanlarda təyin edilən qiymətlərdən fərqlənmişdir. Sepsis diaqnozu təsdiqlənmiş VD uşaqlarda α-defenzin xəstəliyin ilk günlərindən nəzarət qrupunun nəticələrindən 15,9 dəfə yüksək olaraq dürüst fərqlənmişdir (p<0,001). Eyni kontingentdə endotoksinin səviyyəsi 3,7 dəfə nəzarət qrupundan yüksək olmuşdur (p<0,001). VƏD uşaqlarda analoji dinamika həm α-defenzin (nəzarət qrupundan 17,4 dəfə artıq, p<0,001), həm də endotoksinin səviyyələrində (4,5 dəfə yüksək; p<0,001) izlənilmişdir. AMP alfa defenzinlərinlərin statistik əhəmiyyətli artım həm erkən sepsis, həm də gecikmiş sepsis zamanı müşahidə edilmişdir Göstəricilərin yüksək olması iltihabin ilk günlərdə hər iki formada aşkar təzahür etməsi ilə bağlıdır.

Neonatal sepsisli VD uşaqlarda IL-6 səviyəsi ilk günlərdən nəzarət qrupundan 15,7 dəfə dürüst yüksək olmuşdur (p<0,001), IL-8 səviyyəsi analoji dəyişikliklərlə səciyyələnmişdir (28 dəfə yüksək, p<0,001). VƏD sepsisli YD-da eyni istiqamətli dəyişikliklər qeyd edilmişdir: IL-6 (15,9 dəfə yüksək; p<0,001); IL-8 (25 dəfə yüksək; p<0,001)

YD da sepsis zamanı α-defenzin ən yüksək həssaslıq NEK (92,9%), pnevmoniya (85,7%), septik şok (91,7%) və neonatal ölümlə (92,3%) bağlı, yüksək spesifiklik isə ventrikulit (77,6%) və enterokolit (74,4%) ilə bağlı nümayiş etdirmişdir. Endotoksinin prediktiv dəyəri enterokolit (78,6%), NEK (100,0%) və neonatal ölümə (71,8%) qarşı yüksək həssaslıqla, ventrikulitə qarşı isə yüksək spENSifikliklə (71,8%) səciyyələnmişdir.IL-6 sepsisli YD informativliyi ventrikulit (100,0%), NEK (100,0%), pnevmoniya (80,4%), septik şok (83,3%), neonatal ölümə (79,5%) qarşı yüksək həssaslıqla, enterokolitə qarşı isə yüksək spesifikliklə (86,0%) təzahür etmişdir. IL-8 prediktiv baxımdan dəyərləndirilməsi onun NEK və neonatal ölümlə bağlı yüksək həssaslığını (müvafiq olaraq, 92,9% və 89,7%) və ventrikulit və septik şokla bağlı yüksək spENSifikliyini (müvafiq olaraq, 84,7% və 92,0%) göstərmişdir.Neonatal sepsisli yenidoğulan uşaqlarda ÜB α-defenzinlə (müvafiq olaraq, r=-0,465;p=0,015 və r=-0,384;p=0,048), QDB α-defenzinlə

(müvafiq olaraq, r=-0,498;p=0,008 və r=-0,421;p=0,029), AlAT IL-6 ilə (müvafiq olaraq, r=0,518;p=0,028 və r=0,607;p=0,008) xəstəliyin dinamikasında dürüst korrelyasiya göstərmişdir.

Ümumilikdə, tədqiqatımızın nəticələrinə əsasən, demək olar ki, neonatal sepsis olan yenidoğulanlarda klinik təzahürlərlə biokimyəvi göstəricilər arasında çoxşahəli, müxtəlif istiqamətli mürəkkəb əlaqələr mövcuddur. Bu qarşılıqlı əlaqələr həm diaqnostik, həm proqnostik əhəmiyyət daşıyaraq rutin hesab etdiyimiz biokimyəvi müayinələrin ciddi və dəqiq, detallı təhlilinin mühüm rolunu təsdiqləyir.

Beləliklə, AMP hər bir iltihab prosesinin fəal iştirakçısı olaraq, sepsis kimi generalizə olunan iltihabi patologiyanın gedişində mühüm dəyişiklilə təzahür edən göstəricilərdilər. Ümumilikdə, tədqiqatımızın nəticələrinə əsasən, demək olar ki, neonatal sepsis olan yenidoğulanlarda klinik təzahürlərlə biokimyəvi göstəricilər arasında çoxşahəli, müxtəlif istiqamətli mürəkkəb əlaqələr mövcuddur. Bu qarşılıqlı əlaqələr həm diaqnostik, həm proqnostik əhəmiyyət daşıyaraq rutin hesab etdiyimiz biokimyəvi müayinələrin ciddi və dəqiq, detallı təhlilinin mühüm rolunu təsdiqləyir.

Tədqiqatımızın nəticələrinə əsasən demək olar ki, vaxtında və vaxtından əvvəl doğulmuş septik uşaqlarda AMP alfa defenzinlər immun vəziyyətini və sepsisdə iltihab prosesini xarakterizə etmək, nəticələri proqnozlaşdırmaq və immun çatışmazlığı dərəcəsini qiymətləndirmək üçün əlavə meyar kimi istifadə edilə bilər.

Beləlikə, aldığımız nəticələr göstərir ki, vaxtından əvvəl doğulan uşaqlarda erkən və gecikmiş sepsis fonunda biokimyəvi göstəricilərin dəyişiklikləri arasında müəyyən fərqlər qeyd edilir. Bu fərqlər sespsisin yaranma vaxtından asılı olaraq orqan və sistemərin müxtəlif dərəcəli zədələnmələri, prosesin çoxşahəli olması ilə əlaqəli ola bilər, bu da daha neonatal sepsisin erkən diaqnostikası üçün daha həssas və informativ markerlərin aşkar edilməsi zərurətinin diktə edir.

AMP səviyyəsinin təhlili bu göstəricilərin neonatal sepsisin ilk günlərindən əhəmiyyətli artaraq, iltihabın yüksək informativ markeri qismində çıxış edə biləcəyini təsdiq edir.

ƏDƏBİYYAT

1. van Well G.T.J., Daalderop L.A., Wolfs T. et al. Human perinatal immunity in physiological conditions and during infection // Mol Cell Pediatr. 2017, 4(1)
2. Schupp T. Weidner K., Rusnak J. [et al.] The Neutrophil-to-Lymphocyte-Ratio as Diagnostic and Prognostic Tool in Sepsis and Septic Shock // Clin Lab, 2023. v.69(5), p. 912-924.
3. Hartman E., Linde-Zwirble W.T., Angus D.C. [et al.] Trends in the epidemiology of pediatric severe sepsis //Pediatr Crit Care Med., 2013, 14(7), p. 686- 693.
4. Валеева В.А., Стрельцова Е.И., Верещагин Е.И. Диагностическая ценность маркеров сепсиса на этапах интенсивной терапии // Journal of Siberian Medical Sciences, 2018. №4, с.34-41.
5. Berka I., Korček P., Straňák Z. Serial Measurement of Interleukin-6 Enhances Chance to Exclude Early-Onset Sepsis in Very Preterm Infants // Clin Pediatr (Phila), 2023, 62(4), p. 288-94
6. Verstraete E.H., Mahieu L., De Coen K. et al. Impact of healthcare-associated sepsis on mortality in critically ill infants // Eur J Pediatr., 2016,175(7), p. 943-952.
7. Wang X., Buhimschi C.S., Temoin S. et al. Comparative microbial analysis of paired amniotic fluid and cord blood from pregnancies complicated by preterm birth and early-onset neonatal sepsis // PLoS ONE, 2013, 8
8. Rojas-Garcia P., van der Pol S., van Asselt A.D.T. et al. Diagnostic Testing for Sepsis: A Systematic Review of Economic Evaluations // Antibiotics (Basel), 2021, 11(1), p. 27
9. Wang L., Zhang Z., Chen X. et al. Relationship Between the Expression of PD-1 and CTLA-4 on T Lymphocytes and the Severity and Prognosis of Sepsis // Int J Gen Med, 2023, 16, p. 1513-1525.
10. Li X., Duan D., Yang J. et al The expression of human· β-defensins (hBD-1, hBD-2, hBD-3, hBD-4) in gingival epithelia // Arch Oral Biol., 2016, 66, p. 15-21.
11. Лебедева О.П., Рудых Н.А., Полякова И.С. и др. Антимикробные пептиды - первая линия антиинфекционной защиты женских половых путей // Научные ведомости БелГУ. Серия Медицина. Фармация, 2010, 22 (12), с. 25-30.
12. Albuali WH. Procalcitonin Biomarker for Sepsis in Postoperative Pediatric Trauma Patients: Three Years of Experience from a Tertiary University Hospital // Curr Pediatr Rev., 2023. v. 19(3), p. 296-303.
13. Звягин А.А., Демидова В.С., Смирнов Г.В. Динамика биомаркеров сепсиса как показатель эффективности интенсивной терапии // Хирургия. Журнал им. Н.И. Пирогова, 2019. №2, с. 53-57.

14. Gounder A.P., Myers N.D., Treuting P.M. [et al.] Defensins potentiate a neutralizing antibody response to enteric viral infection // PLoS Pathog, 2016. v.12, e1005474.

15. Gounder A.P., Wiens M.E., Wilson S.S. et al. Critical determinants of human alpha-defensin 5 activity against non-enveloped viruses // J Biol Chem., 2012. 287, p. 24554-24562

16. Лебедева О.П., Рудых Н.А., Полякова И.С. и др. Антимикробные пептиды - первая линия антиинфекционной защиты женских половых путей // Научные ведомости БелГУ. Серия Медицина. Фармация, 2010, 22 (12), с. 25-30.

17. Опарина О.Н. Роль эндотоксина грамотрицательных бактерий кишечника в физиологических и патологических проявлениях стресса //Современные научные исследования и инновации, 2014,№ 5.

Резюме
Клинические и иммунопатогенетические особенности неонатального сепсиса
Н.Т. Керимова

Целью исследования было изучение роли антимикробных пептидов (AMP)-альфа-дефензинов, а также цитокинов IL6 и IL8 в патогенезе и диагностике сепсиса. Проведённые исследования были выполнены в иммунологической лаборатории Научно-исследовательского института педиатрии методом ИФА с использованием полностью автоматического анализатора Elisys UNO-Human. Определение AMP-альфа-дефензинов и цитокинов IL6 и IL8 позволяет прогнозировать течение сепсиса и степень тяжести инфекционного процесса у новорождённых, рождённых как до срока, так и в срок. Новорожденные были разделены на три группы: Первая группа - новорождённые с диагнозом сепсиса, гестационный возраст 38-41 неделя (n=35); Вторая группа - новорождённые с диагнозом сепсиса, гестационный возраст 27-37 недель (n=65); Третья группа (контрольная) - здоровые новорождённые (n=30). В целом, на основании результатов нашего исследования можно утверждать, что у новорождённых с неонатальным сепсисом существуют многогранные и сложные взаимосвязи между клиническими проявлениями и биохимическими показателями. Эти взаимосвязи имеют как диагностическое, так и прогностическое значение, подтверждая важную роль тщательного и детального анализа биохимических исследований, которые мы считаем рутинными.

Summary
Clinical and Immunopathogenetic Features of Neonatal Sepsis
N.T. Karimova

The aim of the study was to study the role of antimicrobial peptides (AMP)-alpha-defensins, IL6, IL8 in the pathogenesis and diagnosis of sepsis. The examinations we conducted were carried out in the immunological laboratory of the Scientific Research Institute of Pediatrics using the IFA method on the Elisys UNO-Human IFA fully automatic analyzer. The determination of AMP-alpha defensins, cytokines, IL6, IL8 makes it possible to predict the course of sepsis and the severity of the infectious process in children born prematurely and on time. Newborns were divided into 3 groups: Group I - newborns diagnosed with sepsis, gestational age 38-41 weeks (n=35); Group II - newborns diagnosed with sepsis, gestational age 27-37 weeks (n=65); Group III - control group: healthy newborn children (n=30). Overall, based on the results of our study, it can be concluded that there are multifaceted and complex relationships between clinical manifestations and biochemical indicators in neonates with neonatal sepsis. These interactions have both diagnostic and prognostic significance, emphasizing the important role of thorough and detailed analysis of biochemical tests that are considered routine.

Daxil olub: 17.04.2024

UOT: 161.248

Erkən və məktəbəqədər yaşlı uşaqlarda bronxial astmanın inkişaf riskinin proqnozlaşdırılmasına dair müasir baxışlar

T.T.Pənahova
Azərbaycan Tibb Universiteti, Uşaq xəstəlikləri - II kafedrası, Bakı

Müəllifin elektron poçt ünvanı: panahovatahira@yahoo.com

Açar sözlər: bronxial astma, kiçik yaşlı uşaqlar, bronxobstruksiya sindromu, allergenlər
Ключевые слова: бронхиальная астма, дети раннего возраста, бронхообструктивный синдром, аллергены
Key words: bronchial asthma, young children, broncho-obstructive syndrome, allergens

Uşaqlarda (xüsusilə erkən yaşlı) aşağı tənəffüs yollarının xəstəlikləri bəzən obstruktiv sindromun inkişaf etməsi ilə müşayiət olunur. Bəzilərində respirator infeksiyaların təkrarlanan epizodları ilə şərtlənən residivləşən bronxial obstruksiya bronxial hiperreaktivliyin formalaşmasına və BA-nın əmələ gəlməsinə gətirib çıxara bilər, digər şəxslərdə isə bronxobstruksiya sindromu (BOS) tranzitor xarakter daşıya və simptomların azalması erkən məktəb yaşlarında baş verə bilər. Erkən yaşlı uşaqlarda BA-nın reallaşması riskinin uzunmüddətli proqnozlaşdırılması nəzərə alınmaqla yalnız xəstəliyin klinik mənzərəsinin əsasında residivləşən bronxial obstruksiya sindromunun fenotipləşdirilməsini aparmaq çətindir. Hazırda erkən yaşlı uşaqlarda BA-nın diaqnozunun qoyulması üçün valid diaqnostik meyarlar mövcud deyildir, baxmayaraq ki, məhz bu yaş intervalında 70-80% hallarda xəstəlik ilk dəfə aşkar edilir. Bununla əlaqədar olaraq, erkən yaşlı uşaqlarda klinikaönü mərhələdə BA-nın inkişaf riskinin proqnozlaşdırılması, diaqnostikası üsullarının axtarılması (diaqnostik prediktor biomarkerlərdən istifadə etməklə) öz aktuallığını itirmir [1,2,3,4].

Bu problemə həsr olunmuş və koqort tədqiqatlara əsaslanmış bir sıra elmi işlər vardır. 2000-ci ildə işlənib hazırlanmış və J. A. Castro-Rodriguez et al. tərəfindən təklif olunmuş astmaya meyllik indeksinin (API - Asthma Predictive Index) tədqiqinə əsaslanmış üsul daha geniş istifadə edilir. Bu üsul uşaqlarda həyatının ilk 3 ili ərzində, 1246 uşaq üzərində katamnestik müşahidə dövründə, doğulduqdan 13 yaşa qədər aşkar edilmiş amillərdən istifadə etməklə məktəb yaşlarında BA-nın proqnozlaşdırılması məqsədilə tətbiq edilir. Astmaya meyllik indeksi (API) 2007-ci il nəşri olan astmanın diaqnostikası və müalicəsi üzrə Rəhbərlikdə (NHLBI), 2008-ci ildə BA-nın müalicə və profilaktikası üzrə Qlobal strategiyasında (GINA) şərh olunmuş, 2017-ci ildə dərc olunan müasir nəşrdə isə astmaya meyllik üzrə modifikasiya olunmuş İndeks (mAPI) təklif edilmişdir [5, 6, 7, 8, 9].

Astmaya meyllik İndeksini son ildə BOS-un 4-dən çox epizodu olan uşaqlarda istifadə edirlər. Məktəb yaşlarında 76% uşaqda böyük kriteriyalardan (anada BA, atopik dermatit (ekzema), aeroallergenlərə qarşı təsdiq edilmiş sensibilizasiya) və ya 2 kiçik kriteriyalardan (allergik rinit, təsdiq edilmiş qida allergiyası, qanda 4% və daha çoz eozinofillər (eozinofiliya), respirator infeksiyalarla əlaqədar olmayan BOS) birinin olması zamanı BA-nın reallaşmasının yüksək ehtimalı vardır [6, 10, 11]. BA-nın prediktorlarının əhəmiyyətini öyrənən çoxsaylı tədqiqatlara əsaslanaraq, proqnozlaşdırma metodunun həssaslığının artırılması məqsədi ilə modifikasiya olunmuş və daha obyektiv kriteriyalara malik API (mAPI) işlənib hazırlanmışdır [12, 13, 14]. BA-nın əsas və əhəmiyyətli risk amillərinə belə aydınlıq gətirilmişdir ki, təkcə ananın xətti ilə deyil, həmçinin atada, qardaş və bacılarda verifikasiya olunmuş BA-ya qarşı irsi meyllik BA-nın reallaşması riskində eyni rol oynayır. Təkcə inhalyasion allergenə qarşı aşkar edilmiş sensibilizasiya deyil, uşaqda qeyd edilən qida allergiyası da BA-nın ən mühüm prediktoru sayılır. Kiçik risk amillərinin təsviri zamanı RS-infeksiya ilə bağlı meydana gələn BOS-u istisna edən məqamların izahı verilmişdir. 2013-cü ildə F. Singer et al. həssaslığın artırılması məqsədi ilə astmaya qarşı meyllik indeksində - API-də müəyyən dəyişikliklər etmiş və bu zaman daha az invaziv test kimi qanın eozinofillərinin öyrənilməsinin əvəzinə nəfəs verilən havada azot oksidini (FeNO) təyin etməyi təklif etmişlər. P. Amin et al. [5] 2014-cü ildə Çinçinnatidə tədqiqat işini apararaq astmaya qarşı ilkin meyllik indeksini - API yeniləmişlər ki, bu zaman məktəb yaşlarında fenotiplərin daha dəqiq xarakteristikası üçün diaqnostikada bronxların

hiperreaktivliyinin metaxolinlə təyin edilməsi testindən istifadə etmişlər ki, o, sonralar Çinçinnati Universitetinin API İndeksi (uc API) adlandırılmışdır [6,8,11].

Bundan başqa, BA-nın reallaşdırılması riskinin təklif olunmuş kriteriyalarından hər birinin həssaslığını, spesifikliyini, proqnostik dəyərini qiymətləndirən çoxlu sayda tədqiqat işləri vardır [5,14,15]. C. E. Rodriguez-Martinez fikrincə, metodun ən yüksək müsbət proqnostik dəyəri modifikasiya olunmuş API-də təyin edilmişdir. Bununla belə, orijinal API-indeks hazırda klinik proqnozlaşdırmanın bütün qaydalarını dəstəkləyən yeganə metod hesab edilir [14, 15].

Ədəbiyyat məlumatlarını təhlil edərək erkən və məktəbəqədər yaşlı uşaqlarda BA-nın proqnozlaşdırılması mexanizminin öyrənilməsinə həsr olunmuş daha bir neçə tədqiqat işlərinin adını çəkmək olar. Belə ki, R.J.Kurukulaaratchy et al. 2003-cü ildə uşaqların qrupunu (n=1456) doğuşdan etibarən tədqiq edərək, bronxobstruksiyanın verifiksiya olunmuş fenotipinə müvafiq olaraq həmin koqortanı xəstəliyin debütünün məlumatlarına və simptomların yaşlar üzrə meydana gəlməsinə əsasən 4 qrupa ayırmışlar: BOS aşkar edilməyən uşaqlar; erkən tranzitor BOS olan uşaqlar; persistensiya edən BOS olan uşaqlar; 10 ildən sonra BOS gec başlamış uşaqlar.

Hər bir fenotip üçün ən əhəmiyyətli risk amillərini təhlil edərək onlar uşaqlarda BOS-un persistensiyasını təyin edən prediktorları müəyyən etmişlər. Belə ki, qida allergiyası, atopik dermatit, valideynlərdə, qardaş və bacılarda BA , allergenlərə qarşı sensibilizasiya və 4 yaşında allergik rinitin formalaşması – bunların hamısı məktəb yaşlarında BOS-un persistensiyasının yüksək riski ilə bağlıdır [6, 13, 16].

C. S. Devulapalli et al. tərəfindən 2008-ci ildə Norveçdə BOS-un 2-dən çox epizodları olan 2 yaşlı uşaqlarda (10 illik katamnez nəzərə alınmaqla) «hadisə-kontrol» tip (n=449) tədqiqat işi yerinə yetirilmişdir. Proqnostik model təqdim edilmişdir ki, bu zaman təkcə erkən yaşın prediktorlarının qiymətləndirilməsi qeydə alınmamış, eyni zamanda fiziki yüklə (qaçış zolağında 6-8 dəqiqə ərzində qaçmaq) aparılan testdən istifadə edilmiş, 10 yaşlı uşaqlarda bronxların hiperreaktivliyinin metaxolinlə tədqiqi həyata keçirilmişdir.

Niderlandda D. Caudri et al., 2009-cu ildə PIAMA koqortasını (n=3963) doğuşdan etibarən 8 yaşa qədər tədqiq edərək BA-nın proqnozlaşdırılması modelində istifadə olunan 8 əsas prediktorları ayırd etmişlər ki, onlara aiddirlər: valideynlərdə allergik xəstəliklər, atopik dermatit/ qida allergenlərinə qarşı sensibilizasiya, allergik rinit/aeroallergenlərə qarşı sensibilizasiya, kişi cinsi, valideynlərin təhsili, respirator infeksiya ilə induksiya olunmamış BOS, hestasiya yaşı, tez-tez baş verən respirator infeksiya.

K. D. Van de Kant et al. öz tədqiqat işində 2011-ci ildə 5 yaşlı uşaqlarda bronxobstruksiyanın 3 fenotipini (bronxobstruksiyanın tranzitor fenotipi, bronxobstruksiyanın persistensiya edən fenotipi, BOS olmayan fenotip) verifikasiya etmiş və bu zaman BOS-un persistensiyasının prediktolarını və nəfəsverilən havanın kondensatında iltihab markerlərini qiymətləndirmişlər [14, 15].

Beləliklə, müasir dövrdə BA-nın əlavə risk amilləri qismində proqnostik kriteriyaların effektivliyinin artırılması məqsədi ilə aşağıdakıların öyrənilməsi təklif olunmuşdur: uşağın genom profili, valideynlərin siqaret çəkmələri (xüsusilə də hamiləlik dövründə), erkən uşaq yaşlarında keçirilmiş rinovirus və ya RS-virus infeksiyaları, BOS epizodlarının tezliyi və ağırlıq dərəcəsi, eozinofil aktivlik (eozinofil kation zülal), ümumi və spesifik IgE, ağciyələrin funksiyasının, erkən yaşlı uşaqlarda bronxların hiperreaktivliyinin və nəfəsverilən havanın kondensatında bomarkerlərin təyin edilməsi [14, 15].

Bəzi müəlliflər tərəfindən belə fikirlər söylənir ki, erkən və məktəbəqədər yaşlı uşaqlarda residivləşən bronxial obstruksiya sindromunun patogenezində bir neçə mexanizm və çoxlu sayda prediktorlar iştirak edir ki, onların assosiasiyaları bir-birinin təsirini qarşılıqlı şəkildə artıra bilər və əvvəllər təklif olunmuş modellər az informativ hesab edilərək zaman intervalında dəyişə bilər [14, 15, 17, 18, 19].

Beləliklə, erkən uşaq yaşlarında BA-nın yeni inkişaf mexanizmlərinin aşkar edilməsi ilə əlaqədar olaraq, proqnozun qoyulması modeli daima modifikasiya edilir. BA-nın proqnozunun təkmilləşdirilməsi üçün erkən yaşlarda bu xəstəliyin inkişafının əsasını təşkil edən prediktorların gələcəkdə tədqiq olunması vacibdir.

ƏDƏBİYYAT

1. Kim W.J., Choi I.S., Kim C.S. et al. Relationship between serum IgA level and allergy/asthma. Korean J. Intern. Med., 2017, 32 (1), p. 137-145.
2. Luo G. A systematic review of predictive models for asthma development in children // BMC medical informatics and decision making, 2015, 15 (1), p.99-107.

3. Greenough A., Alexander J., Boelke G. Recurrent obstructive bronchitis and its impact on the development of asthma in early childhood: A comprehensive review // Pediatric Allergy and Immunology. 2020, 31(6), p.605-612.

4. Martinez F.D., Wright A.L., Taussig L.M. Asthma and wheezing in early childhood: Recurrent bronchitis as a predictive factor //The New England Journal of Medicine. 2021, 384(10), 973-981.

5. Amin P. Levin L., Epstein T. et al. Optimum predictors of childhood asthma: persistent wheeze or the asthma predictive // Allergy Clin Immunol Pract., 2014, 2 (6), p. 709-715.

6. Castro-Rodriguez, J. A. The Asthma Predictive Index // Current Opinion in Allergy and Clinical Immunology, 2011, 11 (3), p.157-161.

7. Kim H., Ellis A.K., Asthma D. biomarkers in the age of biologics // Asthma & Clinical Immunology. 2017,13, p. 48-65.

8. Luo G., Nkoy L., Stone B.L. A systematic review of predictive models for asthma development in children // BMC Medical Informatics and Decision Making, 2015, 15, p 99

9. Van de Kant K.D., Klaassen E., Jöbsis Q. et al. Early diagnosis of asthma in young children by using non-invasive biomarkers of airway inflammation and early lung function measurements: study protocol of a case-control study // BMC Public Health, 2009, p. 210.

10.Ng Wai M.C., How How C. Recurrent wheeze and cough in young children: is it asthma? // Singapor Med J., 2014. 55 (5), p. 236-241.

11.Wi C.I., Krusemark E.A., Voge G. et al. Usefulness of asthma predictive index in ascertaining asthma status of children using medical records: An explorative study // Allergy, 2018, 736, p.54.

12.Guilbert T.W., Mauger D.T., Lemanske R.F Childhood asthma-predictive phenotype // Allergy Clin Immunol Pract., 2014, 2 (6), p.664-670.

13.Pité H., Gaspar M. Preschool-age wheezing phenotypes and asthma persistence in adolescents // Allergy Asthma Proc, 2016, 37(3), p.231-241.

14.Rodríguez-Martínez C.E., Sossa-Briceño M.P., Castro-Rodriguez J.A. et al. Factors predicting persistence of early wheezing through childhood and adolescence: a systematic review of the literature // Asthma Allergy, 2017, 10, p. 83-98.

15.Savenije O.E.M., Kerkhof M., Koppelman G.H. et al. Predicting who will have asthma at school age among preschool children // Allergy and Clinical Immunology, 2012, 130 (2), p.325-331.

16.Kurukulaaratchy R. J., Evans S., Arshad S.H. Early-life wheeze: “the Child is father of the Man” // European Respiratory Journal, 2014, 43, p. 648-650.

17.Karaman M.E., Sarica A. Using artificial intelligence to predict asthma onset and development in children // Journal of Asthma and Allergy, 2022, 15, p.167-176.

18.Griffiths B., Hargrave D. Predictive analytics and machine learning in asthma management: Review of current applications and future prospects // Clinical & Experimental Allergy. 2021, 51(4), p.518-532.

19.Karaman M.E., Sarica A. Using artificial intelligence to predict asthma onset and development in children // Journal of Asthma and Allergy, 2022, 15, p.167-176.

Резюме

Современные взгляды на прогнозирование риска развития бронхиальной астмы у детей раннего и дошкольного возраста

Т.Т.Панахова

Заболевания нижних дыхательных путей у детей (особенно раннего возраста) иногда сопровождаются развитием обструктивного синдрома. Учитывая отдаленный прогноз риска развития бронхиальной астмы у детей раннего возраста, провести фенотипирование синдрома рецидивирующей бронхиальной обструкции, основываясь только на клинической картине заболевания, затруднительно. Некоторые авторы предполагают, что в патогенезе рецидивирующего синдрома бронхиальной обструкции у детей раннего и дошкольного возраста участвуют несколько механизмов и большое количество предикторов, ассоциации которых могут взаимно усиливать влияние друг друга, а предложенные ранее модели могут меняться с течением времени, считаясь менее информативными. В связи с открытием новых механизмов развития БА в раннем детстве модель прогнозирования постоянно модифицируется. Для улучшения прогноза БА важно изучить предикторы, лежащие в основе развития этого заболевания в раннем возрасте в будущем.

Summary
Modern views on predicting the risk of developing bronchial asthma in young and preschool children
T.T.Panahova

Lower respiratory tract diseases in children (especially young children) are sometimes accompanied by the development of obstructive syndrome. Given the long-term prognosis of the risk of developing bronchial asthma in young children, it is difficult to phenotype recurrent bronchial obstruction syndrome based only on the clinical picture of the disease. Some authors suggest that several mechanisms and a large number of predictors are involved in the pathogenesis of recurrent bronchial obstruction syndrome in young and preschool children, the associations of which can mutually enhance each other's influence, and previously proposed models can change over time, being considered less informative. Due to the discovery of new mechanisms for the development of bronchial asthma in early childhood, the prediction model is constantly being modified. To improve the prognosis of bronchial asthma, it is important to study the predictors underlying the development of this disease at an early age in the future.

Daxil olub: 17.06.2024

UOT: 615.457

Azərbaycanda oftalmoloji dərman vasitələri bazarının təhlili

K.İ.Cəlilova, D.F.Yusifova
Azərbaycan Tibb Universiteti, Əczaçılıq fakültəsi,
Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı

E-mail: dianayusifova1@gmail.com

Açar sözlər: oftalmologiya, göz xəstəlikləri, oftalmoloji preparatlar, bazar
Ключевые слова: офтальмология, глазные болезни, офтальмологические препараты, рынок
Key words: ophthalmology, eye diseases, ophthalmological preparations, market

Son illərdə müxtəlif faktorların təsiri ilə göz xəstəliklərinin geniş yayılması, xüsusilə rəqəmsal cihazların uzunmüddətli istifadəsi, ətraf mühitin çirklənməsi, yaşlı əhali sayının artması, bir sıra infeksiyon xəstəliklər (COVID-19, qızılca, traxoma, toksoplazmoz, onxoserkoz (çay korluğu)), şəkərli diabet xəstələrinin sayının artması, genetik faktorlar, qeyri-sağlam qidalanma və həyat tərzi kimi amillər insanların görmə problemləri ilə daha çox üzləşməsinə gətirib çıxarır. Quru göz sindromundan tutmuş katarakta və qlaukoma kimi ciddi xəstəliklərə qədər geniş spektrdə rast gəlinən bu problemlər oftalmoloji xidmətlərə və preparatlara olan tələbatın əhəmiyyətli dərəcədə artmasına səbəb olur. Bundan başqa, müasir dövrdə insanların öz sağlamlığına daha çox diqqət yetirməsi, vaxtında profilaktik tədbirlər görmək istəyi də oftalmoloji dərman vasitələrinə marağın artmasına təkan verir. Qlaukoma əleyhinə preparatlar, süni gözyaşı və digər müalicəvi vasitələr həm yaşlı əhali arasında, həm də rəqəmsal cihazlardan asılılığı yüksək olan gənc nəsil arasında geniş istifadə olunur.

Eyni zamanda, əhali arasında göz sağlamlığı ilə bağlı maarifləndirmə kampaniyalarının güclənməsi, klinikaların və apteklərin bu preparatlara daha geniş çıxış təmin etməsi də tələbin dinamik artımını dəstəkləyən mühüm amillərdəndir. Artan tələbat fonunda istehsalçı şirkətlər bazara daha innovativ və effektiv məhsullar çıxararaq, rəqabət mühitini daha da gücləndirir və istehlakçı tələblərinə uyğunlaşmağa çalışırlar. Nəticədə, göz xəstəliklərinin yayılması ilə oftalmoloji preparat bazarı arasında sıx əlaqə yaranır və bu sahənin inkişafı davamlı xarakter alır. Belə ki, ÜST-ün 2023-cü il məlumatlarına əsasən Qlobal miqyasda ən azı 2,2 milyard insan yaxın və ya uzaqdan görmə qabiliyyətindən əziyyət çəkir. Bu insanların təxminən 1 milyardının korluq və ya ciddi görmə problemlərinin əsas səbəbi bir sıra göz xəstəliklərəridir ki, bunlara aşağıdakılar aiddir:

- Kataraktq (94 milyon)
- Refraktiv qüsur (88,4 milyon),
- Yaşa əlaqəli makulya degenerasiyası (8 milyon),
- Qlaukoma (7,7 milyon)
- Diabetik retinopatiya (3,9 milyon)
- Presbiopiyadır (826 milyon) [1,8,3]

Dövrün bəlasına çevrilmiş COVID-19 pandemiyası da göz xəstəliklərinin artmasına səbəb olmuşdur. ÜST nın məlumatlarına əsasən COVİD-19 pandemiyası dövründə göz xəstəliklərinin yayılması və ya mövcud göz xəstəliklərinin pisləşməsi ciddi şəkildə müşahidə olunmuşdur bu da birbaşa virusun təsiri, müalicə imkanlarının məhdudlaşması ilə əlaqədardır və ən çox yayılan konyunktivit və quru göz xəstəlikləri idi [2]. Göz xəstəliklərinin qlobal miqyasda artması, müalicəsi üçün innovativ dərmanların hazırlanması, yeni texnologiyaların tətbiq olunması, dövlət və özəl təşkilatlar tərəfindən artan investisiyalar bazarın böyüməsinə daha da artırır. ÜST- nın verdiyi məlumatlara görə Qlobal oftalmoloji dərmanlar bazarının həcmi 2023-cü ildə 37,82 milyard ABŞ dolları həcmində təxmin edilirdi və 2024-cü ildən 2030-cu ilə qədər 8,34% illik artım tempi (CAGR) ilə artacağı proqnozlaşdırılır. Qeyd olunanları nəzərə alaraq Azərbaycanın oftalmoloji dərman vasitələri bazarının təhlili və inkişaf perspektivlərinin müəyyənləşdirilməsi çox aktual və maraqlıdır.

Tədqiqatın məqsədi Azərbaycanda göz xəstəliklərinin yayılması, bu xəstəliklərin artmasına səbəb olan amillərin müəyyənləşdirilməsi, oftamoloji dərman bazarının marketinq təhlilidir.

Tədqiqatın material və metodları. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST), Korluğun Qarşısının Alınması üzrə Beynəlxalq Agentliyin və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illik statistik göstəricilərinə əsaslanaraq, Azərbaycanda göz xəstəliklərinin yayılma dinamikası və artım meyilləri təhlil edilmiş, bu sahədəki əsas problemlər və risk faktorları araşdırılmışdır.

Tarif şurasının materiallarından istifadə edərək kontent analiz üsulu ilə Azərbaycanda göz xəstəliklərinin müalicəsində istifadə edilən dərman vasitələri bir neçə parametrlər üzrə (ən çox oftalmoloji dərman idxal edən istehsalçı ölkələr, şirkətləri və dərman vasitələrinin qiymət aralığı) təhlil edilmişdir.

Bakı (120 aptek), Gəncə şəhərində (12 aptek) və Qax rayonunda (6 aptek) fəaliyyət göstərən aptek müəssisələrinin əməkdaşları arasında oftalmoloji dərman preparatlarının çeşidinin bir neçə göstəriciləri üzrə marketinq analizi aparılmış (Azərbaycan əczaçılıq bazarında ən çox istifadə olunan oftalmoloji preparatlar) və nəticələri təhlil edilmişdir.

Nəticələr və onların müzakirəsi. Oftalmoloji dərman bazarını araşdırmazdan əvvəl göz xəstəliklərinin yayılmasının tendensiyanı analiz edilmişdir. Son illərdə dünya üzrə xroniki xəstəliklərin, xüsusən də şəkərli diabetin yayılması ciddi sağlamlıq problemlərinə, o cümlədən göz xəstəliklərinin artmasına səbəb olur. Şəkərli diabet xəstələrinin sayının artması ilə əlaqədar olaraq, Amerika Milli Göz İnstitutu 2050 və 2030-cu illərdə ABŞ-da müvafiq olaraq təxminən 14 və 10 milyon insanın diabetik retinopatiyadan əziyyət çəkəcəyini proqnozlaşdırır. Bu isə oftalmoloji dərman bazarına tələbatın əhəmiyyətli dərəcədə artmasına təkan verir. [5,9,15] Dərman formaları olaraq göz damcıları bazarının həcmi 2022-ci ildə təxminən 15,22 milyard ABŞ dolları dəyərində olub və 2023-2030-cu illər arasında təxminən 5,5% illik artım tempi (CAGR) ilə 2030-cu ildə 23,11 milyard ABŞ dollarına çatacağı proqnozlaşdırılır [7,12,14]. Bu dərman bazarında fəaliyyət göstərən şirkətlər arasında: AbbVie, Inc. (Allergan), Novartis AG, Regeneron Pharmaceuticals, Inc. və Alcon kimi nəhənglər yer alır. Bazarın inkişafında yalnız tanınmış şirkətlər deyil, həm də bazara yeni daxil olan oyunçular da mühüm rol oynayır. Bunlara aiddir: Eyenovia, Inc., TearSolutions, Coherus BioSciences, Inc. və Aldeyra Therapeutics kimi şirkətlər bu sahədə diqqət çəkən yeni iştirakçılar arasındadır. Onlar dövlət qurumları və səhiyyə təşkilatlarından maliyyə dəstəyi əldə etməyə, həmçinin innovativ məhsul buraxmaqla bazardakı boşluqlardan faydalanmağa çalışırlar. Bu şirkətlər, müasir tələblərə cavab verən innovativ məhsullar təqdim etməklə bazarın inkişafını sürətləndirirlər. Həmçinin, müştəri məmnuniyyətini artıraraq və strateji əməkdaşlıqlar quraraq sektorda rəqabət üstünlüyü əldə etməyə çalışırlar [5,10]. Belə qlobal dinamika Azərbaycandakı oftalmoloji dərman bazarına da əhəmiyyətli təsir göstərir. Qlobal şirkətlərin və yeni iştirakçıların fəaliyyəti, bazara daha keyfiyyətli və müxtəlif məhsulların çıxmasına təkan verir, bu da yerli bazarın inkişafına və istehlakçılar üçün daha geniş seçim imkanlarının yaranmasına şərait yaradır. Oftalmoloji preparatlar aptek müəssisələrindən həm reseptlə həm də reseptsiz buraxılır. Belə ki, reseptli və OTC oftalmoloji dərmanların bazar təhlilinə əsasən reseptlə satılan dərmanlar 2023-cü ildə bazarda lider mövqeyə sahib olub və səhiyyə xərclərinin artmasında önəmli bir amil hesab olunur. Bununla yanaşı göz xəstəliklərinin profilaktikası və müalicəsində istifadə edilən OTC dərman preparatlarının yaxın illərdə sürətlə inkişaf edəcəyi gözlənilir. Ən çox satılan OTC dərmanlara Otrivine-Antistin (Novartis), Alaway (Bausch & Lomb), Golden Eye Ointment (Sigma Pharmaceuticals), Zaditor (Alcon), Brolene (Sanofi), GelTears (Bausch & Lomb); və Viscotears (Alcon) daxildir. Yeni müalicələrə olan tələbin artması səbəbindən 2023-cü ildə brend dərmanlar bazarda öz yerini tutmuşdur [5,16].

Azərbaycan əczaçılıq bazarında oftalmoloji preparatların xüsusi çəkisi günü-gündən artır. Buna səbəb isə göz xəstəliklərinin artım tendensiyasının açıq şəkildə müşahidə olunmasıdır. Korluğun qarşısının alınması üzrə Beynəlxalq Agentliyin (The International Agency for the Prevention of Blindness) məlumatlarına əsasən 2020-ci ildə Azərbaycanda görmə itkisi olan təxminən 1,3 milyon insan olub, onlardan 37 min insan görmə qabiliyyətini itirmişdir. Maraqlıdır ki, bu sayın 700 mindən çoxunun əksəriyyətini qadınlar təşkil etmişdir, 500 mindən çoxunu isə kişilər təşkil etmişdir [3].

Bundan əlavə Azərbaycan statistika komitəsinin məlumatlarına əsasən göz və gözün əlavə aparatının xəstəlikləri üzrə qeydə alınmış xəstələrin sayı və cəmi son beş il üzrə (2019-2023) aşağıdakı cədvəldə göstərilmişdir. Cədvəldəndə göründüyü kimi hər il xəstələrin sayında artım müşahidə olunmuşdur. 2019-cu ildə bütün yaş qrupları üzrə cəmi 80 379 nəfər, 2023-cü ildə bu sayda 119 094- ə qədər artım müşahidə olunmuşdur. Son beş il ərzində ən çox artım 2022-ci ildə 119 936 nəfər olmuşdur. Ən çox göz xəstəliklərinə məruz qalma 30 yaş və yuxarı xəstələr (233 286) sonrakı yerdə isə 0-13 yaş aralığı xəstələr (142 411) olmuşdur [4].

Belə ki, göz xəstəliklərin artması ilə paralel olaraq Azərbaycan oftalmoloji dərman bazarı da sürətlə böyüyür. Nanotexnologiyaların və biotexnologiyaların tətbiqi də bu dərmanların effektivliyini yüksəldir.

Tarif Şurasının dövlət qeydiyyatına alınmış dərman vasitələrinin siyahısına əsasən, Azərbaycana 79-dan çox tərkibdə, 247 ticarət adı altında oftalmoloji preparatlar ölkəyə idxal edilir. Bu dərmanlardan ən ucuzu Taufon-0.47 AZN (Taufon, Farmak İSC. Ukrayna), ən bahalısı Alfam-124.03 AZN (Alfam, Bema Farma GMHB. Almaniya) təşkil edir.[6] Tarif şurasının məlumatlarına əsasən Azərbaycana ən çox oftalmoloji dərman ixrac edən ölkələr arasında ilk beşliyə daxil olan istehsalçı ölkələr və şirkətləri aşağıda göstərilmişdir: Türkiyə, Rumıniya, Banqladeş, İtalya, Misir və burada Türkiyə birinci yerdədir.

Cədvəl 1
2019-2023-cü illərdə Azərbaycan əhalisi arasında qeydə alınan göz xəstəliklərinin kəmiyyət göstəriciləri

İllər	0-13 yaş	14-29 yaş	30 yaş və yuxarı	Cəmi
2019	32 236	19 864	28 293	80 393
2020	22 685	18 611	31 175	72 471
2021	27 323	22 709	53 199	103 231
2022	32 803	30 488	56 645	119 936
2023	27 364	27 756	63 974	119 094
Cəmi	142 411	119 428	233 286	

Cədvəl 2
Oftalmoloji prepartların istahsalçı adı

	Dərmanlar	İstehsalçı şirkətlər
1	Lubris protekt	Omisan Farmaceutici S.r.l İtalya
2	Dicloftil	Farmigea S.p.A., İtaliya
3	Deksametazon	Belmedpreparatı RUM,Belarus Respublikası, Belarus; Warsaw Pharmaceutical Works Polfa S.A., Polşa
4	Tobrex	S.A. Alcon-Couvreur N.V., Belçika (orijinal), Alkon Kuzi Sa, İspaniya
5	Tolon	Samchundang Pharm. Co. LTD., Koreya Respublikası
6	Dexat	Cooper S.A, Yunanıstan. Bema Farma Gmbh, Almaniya
7	Delooky T	Bema Farma Gmbh, Almaniya. Kuper Sa, Yunanıstan
8	Alfam	Bema Farma Gmbh, Almaniya. Kuper Sa, Yunanıstan
9	Brifan	İdol ilaç Dolum San. Ve Tic. A.Ş Türkiyə
10	Timoglau	Laboratorio Edol-Produtos Farmaceuticos Sa, Portuqaliya
11	Bqlau	Laboratorio Edol-Produtos Farmaceuticos Sa, Portuqaliya
12	Emoksibel	Belmedpreparatı Rum, Belarus
13	Xiloial	Farmıgea Spa İtalya
14	Omk 1	Omikron İtalya
15	Predac	Orchidia Pharmaceutical Industries, Misir
16	Augenştok Nevan	Aristopharma Ltd., Banqladeş
17	Augenştok Kombipres	Aristopharma Ltd, Banqladeş
18	Augenstock Neopred	Aristopharma Ltd, Banqladeş
19	Regenopia	Surpobion Sp.z o o,Poland
20	Dorzasopt	World Medicine İlaç San. Ve Tic. A.Ş.Türkiyə. Romfarm Kompani Srl, Rumıniya
21	Protizol	Rafarm Sa, Yunanıstan. Laboratorio Edol-Produtos Farmaceuticos Sa, Portuqaliya
22	Azarga	S.A. Alcon-Couvreur N.V., Belçika, (Orijinal)
23	Oftan timolo	Nekstfarma Sc / Santen Sc, Finlandiya
24	Britosopt	World Medicine İlaç San. Ve Tic. A.Ş., Türkiyə
25	Taufon	Farmak SC, Ukrayna
26	Taurin	Jurabek Laboratories Mm Mmc, Özbəkistan
27	Slezol forte	Eipi Ko, Misir. Vörld Medisin İlaç San Ve Tic Aş, Türkiyə
28	Omk 2	Omikron İtalya

1.Türkiyə: Vörld Medisin İlaç San Ve Tic Aş, İdol İlaç Dolum San Ve Tic Aş, Deva Holdinq Aş,Vem İlaç San Ve Tic Aş, Mefar İlaç San Aş, Romfarm İlaç Ve San Tic Aş, Bilim İlaç San Ve Tic Aş.

2. Rumıniya: Romfarm Kompani Srl.

3.Banqladeş: Opsonin Pharma Limited, Aristopharma Ltd, Square Pharmaceutıcals Ltd.

4. İtaliya: Farmigea Spa, Tubilyuks Farma Spa, Alfa İntes İndustrıa Terapeutıca Splendore Srl

5. Misir: Orchidia Pharmaceutical İndustries, Eipi Ko, Siqmatek Farmasyutikal İnd. [6]

Bakı şəhərində 120, Gəncədə 12, Qax rayonunda fəaliyyət göstərən 6 aptekdə aparılan sorğu göstərir ki, Azərbaycan əczaçılıq bazarında ən çox istifadə olunan oftalmoloji preparatlar əsasən qlukoma, iltihabəleyhinə, quru göz sindromu, allergiya kimi xəstəlikləri müalicəsində tətbiq edilir. Bu dərmanlar ticarət adları ilə aşağıdakı cədvəl 2-də göstərilmişdir

Yuxarıdakı cədvəldə göstərilən dərmanların əksəriyyəti reseptlə satılır və generik preparatlar qrupuna aiddir. Generik dərmanların geniş yayılması həm xəstələrə dərmanların əlçatanlığını artırır maliyyə baxımından sərfəli seçimlər təqdim edir.

ƏDƏBİYYAT

1.World Health Organization. Blindness and vision impairment. Retireved from https://www.who.int/news-room/fact-sheets/detail/blindness-and-visual-impairment

2.World Health Organization. COVİD-19 and eye care. Retireved from https://www.who.int/publications/i/item/9789240087415

3. “Universal eye health: a global action plan 2014–2019 and national indicators “ // The International Agency for the Prevention of Blindness 2024 https://www.iapb.org/learn/vision-atlas/magnitude-and-projections/countries/azerbaijan/

4.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə,sosial müadifə,idman. “Əhalinin xəstələnməsi”. https://www.stat.gov.az/source/healthcare/

5. “Ophthalmic Drugs Market Size, Share & Trends Analysis Report By Drug Class (Steroidal drugs, Anti-VEGF Agents), By Disease, By Dosage Form, By Route of Administration, By Product Type, By Product, By Region, And Segment Forecasts, 2024 - 2030 “ // Grand View Research 2024

6. Azərbaycan Respublikası Tarif (Qiymət) Şurası. Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətləri. “ Təsiredici maddənin adına görə əlifba sırası ilə ” https://tariff.gov.az/haqqimizda/derman-vasiteleri-normativ-huquqi-baza

7.Eye Drops Market by Type, Application, and Distribution Channel: Global Industry Perspective, Comprehensive Analysis, and Forecast, 2023–2030 // Zion Market Research, 2024

8. “World market of ophthalmological drugs and devices by type (diagnostic and monitoring devices, surgical devices), by use (cataracts, glaucoma), by geographical coverage and forecast” // Verified Market Reports 2024

9. Соколова В. Российский рынок офтальмологических препаратов // Ремедиум. Журнал о российском рынке лекарств и медицинской технике, 2008, № 7, с.16-19.

10. Окоменко Т.И., Антропова Г.А., Макаров С.В. Региональные особенности продаж офтальмологических лекарственных средств // Вестник Новгородского государственного университета им. Ярослава Мудрого 2014 , 78, с. 115-118.

11. Уварова Ю. Рынок препаратов для лечения заболеваний глаз // Ремедиум. Журнал о российском рынке лекарств и медицинской технике, 2010, №11, с.29-34.

12. "Global Ophthalmology Drugs and Devices Market – Industry Trends and Forecast to 2030." Data Bridge Market Research.

13. Захарова М.А., Куроедов А.В. Отечественный опыт применения препаратов дженериков при лечении больных с глаукомой // Национальный журнал глаукома, 2015, № 14 (4), с.78-87.

14. Чупандина Е.Е., Куролап М.С. Анализ экономической доступности лекарственных препаратов для лечения глаукомы на фармацевтическом рынке Воронежской области. - Текст : непосредственный /// Актуальные проблемы медицины, 2012, № 10, с. 129.

15. Quigley H.A. Glaucoma // Lancet, 2011, 377, p.1367-1377

Малишевская О.И. Анализ рынка лекарственных средств, применяемых для лечения глаукомы //Молодая фармация - потенциал будущего: сб. материалов Всерос. научн. конф. с междунар. Участием, 2011, с. 26-27.

Резюме
Анализ рынка офтальмологических препаратов Азербайджана
К. И. Джалилова, Д.Ф. Юсифова

Согласно данным ВОЗ, объем глобального рынка офтальмологических препаратов оценивался в 37,82 миллиарда долларов США в 2023 году, и прогнозируется, что он будет расти с ежегодным темпом роста (CAGR) в 8,34% в период с 2024 по 2030 год. Кроме того, согласно данным Государственного комитета статистики Азербайджана, в период с 2015 по 2023 год наблюдался значительный рост заболеваний глаз и придаточного аппарата глаза. Так, параллельно с ростом глазных заболеваний быстро развивается и азербайджанский рынок офтальмологических препаратов. Согласно списку лекарственных средств, зарегистрированных Тарифным советом, в Азербайджан импортируется более 79 наименований офтальмологических препаратов под 247 торговыми марками. Основными странами-импортерами являются Турция, Румыния, Бангладеш, Италия и Египет, при этом Турция занимает первое место.

Summary
Analysis of the market of ophthalmic drugs in Azerbaijan
K. I. Jalilova, D.F. Yusifova

Global ophthalmic drugs market size was estimated at USD 37.82 billion in 2023 and is projected to grow at a compound annual growth rate (CAGR) of 8.34% from 2024 to 2030, according to WHO. In addition, according to the data of the Statistical Committee of Azerbaijan, a high increase was observed in the diseases of the eye and accessory apparatus of the eye in 2015-2023. So, in parallel with the increase in eye diseases, the market of ophthalmic drugs in Azerbaijan is also growing rapidly. According to the list of state-registered drugs of the Tariff Council, ophthalmic drugs in more than 79 ingredients and under 247 trade names are imported into the country, and among the main importing countries, Turkey, Romania, Bangladesh, Italy and Egypt are in the top five, where Turkey is in the first place.

Daxil olub: 23.07.2024

УДК: 616.34-089.2

Процесс жевания у людей с различными ортопедическими конструкциями и зубо-челюстными аномалиями

Ю.Г. Ахундов, Г.М. Архмамедова, О.М.Садыгов
Азербайджанский Медицинский Университет,
кафедра ортопедической стоматологии

***Ключевые слова**:* жевание, снижение функции, протезы с имплантами, зубо-челюстные аномалии, сила укуса
Açar sözlər: çeynəmə, funksiyasının azalması, protezlər implantlarla, diş-üz anomaliyaları, dişləmə güvvəsi
Keywords: chewing, decreased function, the prosthesis with implants, dentofacial anomalies, bite force

Известно, что жевание – это акт механического размельчения пищевых веществ при посредстве жевательного аппарата, состоящего из челюстей, зубов и жевательных мышц.

Механическая обработка пищи осуществляется между верхними и нижними рядами зубов, благодаря перемещению нижней челюсти относительно верхней. Отсутствие зубов приводит к неполноценному процессу жевания и затруднению образования пищевого комка (болюса).

В литературе указывается, что жевательная способность тесно связана с количеством зубов и считается нарушенной, если у пациента менее 20 хорошо расположенных зубов [1].

В данном случае пациенты обычно жаловались на жевательную функцию: им приходилось жевать дольше, они глотали более грубые частицы пищи и не могли жевать твердую пищу. Зубной ряд, в котором отсутствует большая часть задних зубов, определяется как укороченная зубная дуга [1].

Укороченные зубные дуги с 3-4 парами смыкающихся премоляров и ассиметричные дуги приводили к нарушению жевательной способности, особенно твердой пищи. Такой зубной ряд был недостаточным для пережевывания твердой пищи и приводил с большему количеству жалоб на жевательную функцию. Трудно количественно определить минимальное количество зубов, необходимое для удовлетворения функциональных потребностей.

Это индивидуально и варьирует от человека к человеку. Однако исследования различных ученых показало, что людям с укороченной зубной дугой требовалось в два раза больше жевательных движений, чем людям с полными естественными зубными рядами, чтобы измельчить тестовую пищу до определенного размера.

Способность носителей зубных протезов расщеплять пищу очень низкая по сравнению с людьми с естественными зубами. Носителям полных съемных протезов требовалось в среднем в четыре раза, в шесть раз и даже в восемь раз больше количество жевательных движений, чем у людей с зубами, чтобы достичь той же степени измельчения [2]. Было обнаружено, что разница в эффективности жевания у людей и у тех, кто носит зубные протезы, зависит от консистенции пищи [3]. Плохое жевание у носителей зубных протезов компенсировалось более длительным жеванием и проглатыванием более грубых частиц пищи. Одним из факторов, ведущих к снижению жевательной функции, является снижение силы прикуса. Они могут развиваться у носителей протезов из-за недостаточной фиксации и стабильности протеза.

Таким образом, естественно, что у людей с полной адентией нарушена жевательная функция и даже высококачественные полные съемные протезы не могут заменить естественные зубы.

И, хотя объективная жевательная способность у носителей полных съемных протезов была низкой, по самооценке примерно 80% носителей полных съемных протезов считали свою жевательную способность хорошей, [4].

Установка съемных протезов на имплантах является успешным методом лечения для тех, кто носит полные съемные протезы. В последние годы все больше изучается влияние имплантации на жевательную функцию.

Пациенты, протезированные с помощью имплантов, сообщили о высоком уровне удовлетворенности различными аспектами функции протезов. Они были более удовлетворены, чем пациенты с полными съемными протезами без опоры на импланты [6].

Кроме всего, лечение имплантами особенно на нижней челюсти, улучшает качество жизни, связанное со здоровьем полости рта, по сравнению с обычными лечением. Оценка пациентами своих протезов с фиксаций на имплантах оставалось высокой в течение длительного периода времени, что было описано в 10 летней оценке протезов нижней челюсти с фиксацией на имплантах [4,5,6]. Указано, что максимальная сила укуса у субъектов с нижнечелюстным протезом, поддерживаемым имплантами, была на 60-200% выше, чем у пациентов с обычными протезами.

Так, в группе из 12 пациентов со съемными протезами с опорой на импланты средняя максимальная сила укуса увеличилась со 116Н до имплантации на 200Н уже через три месяца после операции имплантации [7].

Даже пять лет спустя, средняя максимальная сила укуса все еще оставалась на том же высоком уровне после протезирования. Функции жевания также значительно улучшилась.

Сообщалась, что среднее количество жевательных циклов, которое необходимо для того, чтобы вдвое уменьшить первоначальный размер исследуемого продукта, уменьшилось с 47 до 25 циклов после имплантации [8].

Таким образом, после имплантации требовалось лишь вдвое меньше жевательных циклов, чем до операции. Однако указывается, что активность мышц челюсти во время жевания существенно не изменилась после имплантации. Долгосрочные эффекты имплантации на функцию полости рта оказались тоже хорошими.

Так, даже через 10 лет после процесса имплантации, параметры активности мышц челюсти и кинезиографические параметры (вертикальное раскрытие, фронтальная экстензия и скорость закрытия) приблизилась к значениям здоровых людей с зубами. Кроме того, максимальная сила прикуса и жевательные функции значительно увеличились после имплантации и оставались неизменным в течение следующих 10 лет. Таким образом, лечение имплантатами значительно улучшает жевательную функцию и удовлетворенность пациентов в течении длительного периода времени.

Интересен также вопрос процесса жевания у пациентов с зубо-челюстными аномалиями.

В последние годы мы сталкивались с обзором функционального дефицита у пациентов после ортогнатической хирургии. Естественно, что зубочелюстные деформации могут нарушать функцию жевательной системы.

Многими исследователями сообщалось действительно о более низких чем обычно максимальных усилиях прикуса у пациентов после ортогнатической хирургии до лечения. Кроме того, у ортогнатических пациентов были продемонстрированы значительно более низкие жевательные способности, чем у контрольной группы [9]. Конечно же, хирургическая коррекция зубочелюстной деформации часто приводила к увеличению максимальной силы прикуса.

Так, в исследовании с участием 15 женщин с ретрогнатией, максимальная сила прикуса значительно была увеличена после операции, приблизившись уже даже к нормальным значениям в течении двух лет (10).

Однако, в тоже время, последствия хирургических коррекцией в жевательной функции противоречивы.

В группе пациентов со смешанными зубо-челюстными деформациями через три года после операции жевательная активность не увеличилась. Хирургическая же коррекция нижечелюстного прогнатизма часто приводит к повышению жевательной функции, но контрольные значения не достигаются.

Корреляция между жевательной функцией и оценкой жевательная силы была слабой. Это позволяет предположить, что сила мышц челюсти не является основным фактором, определяющим жевательную функцию [9,10].

Другими факторами, влияющими на эффективность жевания, могут быть окклюзионные соотношения и механическое преимущество. Поэтому, это наводит на мысль, что различные виды аномалией и их коррекция имела показатели различной интенсивности жевательной функции.

В заключении, хотелось бы так же отметить, что и у пожилых людей наблюдается нарушение жевательной функции. Это происходит из-за снижения мышечной силы, потери зубов, неправильного прикуса, заболеваний пародонта и даже снижения двигательных навыков. Кроме всего этого, у пожилых людей скорость слюноотделения может снижается, хотя у здоровых людей, не принимающих лекарств, снижение было умеренным. Известно также, что острота ощущений с возрастом снижается, особенно обоняние и чувство вкуса.

Как следствие, считается, что возрастные изменения сенсорного восприятия и предпочтений оказывают большое влияние на аппетит и потребление пищи.

В числе последних исследований [11] оценивалось влияния возраста на жевательную функцию, которую более подробно мы опишем в последующих своих статьях.

В проведенном [11] исследовании ротовая функция группы из 14 молодых людей с полным зубным рядом (37 лет) сравнивалась с функцией 14 пожилых людей с аналогичным зубным рядом (69 лет). Пожилая группа людей использовали значительно больше жевательных движений, чтобы достичь порога глотания. В результате чего они глотали более мелкие частицы пищи, чем молодые люди. Это исследование продемонстрировало сохранение высоких жевательных функций несмотря на возрастные значения.

Пожилые испытуемые увеличивали количество жевательных движений для подготовки пищи к проглатыванию. Причем, носящие зубные протезы, пожилая группа испытуемых совершали значительно больше жевательных движений перед глотанием, чем соответствующая группа, имеющие зубы. Однако средний размер частиц проглоченной пищи был значительно больше у пожилых людей с зубными протезами по сравнению с имеющими зубы. Хотя количество жевательных циклов, естественно, при этом увеличивалась.

Таким образом, жевательная функция адаптировалась к возрасту, но была нарушена у носителей зубных протезов, которые не смогли компенсировать нарушенную жевательную функцию [11].

Резюмируя все вышеизложенное, мы хотим подчеркнуть, что процесс жевания у людей, имеющие зубы и ортопедические протезы на имплантах, значительно выше, чем имеющие обычные зубные протезы. Пациенты с хирургическими челюстными аномалиями после операций также восстанавливали свою жевательную функцию.

ЛИТЕРАТУРА

1.Anderson K. The effects of bolus hardness on masticatory kinematics // J.Oral Retabil 2012, 29, 689-696

2.Wilding R.J., Lewin A. The determination of optimal human jaw movement based on their association with chewing performance // Arch.Oral Biol., 2004, 39, 333-343

3.Nielsen C.D., Nanda R.S., Skeletal and dental changes associated with the treatment of deep bite malocclusion // Am.J.Orthod Dentofac.Orthop., 2005, 128, 382-393

4.Crippaudo C. Orthodontic treatment need in the Italian child population // Eur.J.Paediatr.Dent 2008, 9, 71-75

5.Ng J., Major P.W. True incisor intusion attained during orthodontic treatment // Am.J.Orthod.Dentofac Ortod. 2005, 128, 212-219

6.Shaw W.C., Richmond S, Quality contror in orthodont indices of treatment need and treatment standards, Br.Dental J., 1991, 170, 107-112

7.Roweerson A, Raoul G, Fiber-type differes in massetar muscle associated with different facial morphologies, Am.J.Ortod.Dentofac Orthop 2005, 127, 37-46

8.Parker C.D. Skeletal and dental chages associated with the treatment of deep bite malooclusion // Am.J.Ortodon Dentofac Orthop 1995, 107, 382-393

9.Buchang P.H., Chewing cycle kinematic of subjects with deep bite malooclusion // Am J.Ortod. Dentofac. Orthop, 2007, 131, 627-634

10.Uslu O, Muscular response to functional treatment of skeletal open-bite and deep-bite cases // World J.Orthod 2010, 11, 85-93

11.Piacino M.G., Understanding Masticatory Function in Unilateral Gross bites. John Wiley and Sons: Hoboken, NJ, USA, 2016

Xülasə

Müxtəlif ortopedik protezlər və diş-çənə anomaliyalar olan insanlarda çeynəmə prosesi

Y.H. Axundov, G.M. Arxməmmədova, O.M.Sadıqov

Məqalədə müxtəlif növ protezlər və diş-çənə anomaliyaları olan insanlarda çeynəmə prosesi təsvir olunur. Protez istifadə edənlərdə çeynəmə funksiyasının azalması onun zəif funksiyası və sabitliyi səbəbindən baş verir. İmplantlardan istifadə edən protezlər isə çeynəmə funksiyasını əhəmiyyətli dərəcədə

yaxşılaşdırır. Diş-çənə anomaliyaların cərrahi əməliyyatlarından sonra xəstələrdə də çeynəmə prosesində əhəmiyyətli yaxşılaşma müşahidə edilmişdir.

Summury
Chewing process in people with various orthopedic dentures and dental anomalies
Y.H. Axundov, G.M. Arxmammadova, O.M. Sadıqov

The article describes the chewing process in people with various types of dentures and dental anomalies. A decrease in chewing function in denture wearers occurs due to its poor fixation and stability. Prosthetics using implants significantly improves chewing function. A significant improvement in the chewing process was observed in patients after dental surgery.

Daxil olub: 17.04.2024

UOT: 65.011.1: 65.012.1

Aptek təşkilatlarında dayanıqlı inkişaf məqsədləri

N.M.Naibov, V.A.Qulizadə
Azərbaycan Tibb Universiteti, Əczaçılıq texnologiyası və idarəçiliyi kafedrası, Bakı

Açar sözlər: aptek təşkilatı, dayanıqlı inkişaf, aptek müdiri, dayanıqlı inkişaf məqsədləri
Ключевые слова: фармацевтическая организация, устойчивое развитие, заведующий аптека, цели устойчивого развития
Key words: pharmaceutical organization, sustainable development, pharmaceuticals manager, sustainable development goals

Dayanıqlı inkişaf məqsədləri barədə qısa xülasədə qeyd edilir ki, BMT Baş Assambleyasının 2015-ci il tarixli A/RES/70/1 nömrəli qətnaməsi ilə növbəti 15 il müddətinə insan inkişafı üçün son dərəcə əhəmiyyətli imkanların yaradılmasına,planetimizi qorumaqla qlobal inkişafın dayanıqlılığına təkan verəcək 17 məqsəd və 169 hədəfdən ibarət "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində gündəlik təsdiq edilmişdir [1,2].

Dayanıqlı inkişafın hədəflərindən biri iqtisadiyyatın daimi yüksələn templə inkişafıdır.

Aptek təşkilatının da fəaliyyəti iqtisadiyyatın bir sahəsi olduğundan iqtisadi cəhətdən dayanıqlı inkişaf konsepsiyası ilə bağlılığı vardır [3].

Odur ki, aptek təşkilatlarında dayanıqlı inkişafın məqsədlərini müəyyənləşdirmək aptekin fəaliyyətində yüksək keyfiyyətə, genişlənməyə, gəlirin artmasına səbəb ola bilər.

Tədqiqatın məqsədi. Aptek təşkilatlarında dayanıqlı inkişaf məqsədlərini aşkar etməkdir.

Tədqiqatın material və metodları. Tədqiqatı yerinə yetirmək üçün şifahi sorğu üsulundan istifadə edilmişdir. Tədqiqata 16 aptek müdiri cəlb edilmişdir. Şifahi sorğu - "Siz aptek təşkilatının dayanıqlı inkiçaf məqsədlərini və onlarla bağlı fikirlərinizi söyləyə bilərsiniz?" sualından ibarət oldu.

Tədqiqatın nəticələri və müzakirələr. 16 aptek müdirindən alınmış cavabları fikirləri ilə birlikdə aşağıda verməyə çalışdıq. (Hər məqsədin sonunda qeyd edilən faizlər aptek müdirlərinin say nisbətidir).

1)Alıcılara qarşı diqqətli olmaq, onların aptek çeşidi mallarına olan ehtiyaclarının tam ödənilməsi – 87,5%.

Burada alıcını diqqətlə dinləmək, onun verdiyi resepti yoxlamaq, ekspertizadan keçirmək (əgər alıcı reseptsiz müraciət edibsə və onun alacağı dərman vasitəsi reseptsiz buraxılırsa, onda onun tələbi tamlıqda yerini yetirilməlidir). Sonra reseptdə olan dərman preparatlarını toplayıb alıcıya təqdim etməzdən əvvəl onların istifadə qaydası haqqında məlumat verilməlidir.

2)Kadrların rifahının yaxşılaşdırılması - 93.8%.

Əlbəttə kadrların əhval-ruhiyyəsinin yüksək olması,rifahlarının yaxşılaşdırılması işin keyfiyyətinə müsbət təsir göstərən mühüm cəhətlərdəndir. Kadrların işinin stimullaşdırılması işçilərin rifahının yaxşılaşmasına səbəb olur.Bayram günlərində hədiyyələrin,hər rüb mükafatların verilməsi də rifahın yüksəlməsinə təkan verir.

3)Əczaçının işinin qiymətləndirilməsi - 81.3%.

Bu məqsədin aptek təşkilatının fəaliyyətində çox əhəmiyyəti vardır.İşin sonunda fərqlənən işçiləri mütləq tərifləmək lazımdır.Əgər işçinin növbəsində satışın həcmi yüksəkdirsə, hətta onun üçün rübün axırında mükafatlandırılmalıdır.Əlbəttə əczaçı aptek təşkilatının daha gəlirli işləməsinə çalışırsa yüksək qiymətə layiq olmalıdır.

4)Kadrlar arasında əmək bölgüsünün düzgün aparılması - 75%.

Aptek təşkilatının işçiləri arasında əmək bölgüsünün düzgün bölüşdürülməsi müəyyən əhəmiyyətə malikdir.Aptek təcrübəsində fəaliyyət istiqamətləri üzrə ixtisaslaşır. Məs: malın alınması, sifarişlərin tərtib edilməsi, reseptlərin qəbulu, mal ehtiyatının formalaşması, malın saxlanmasının təşkili, ticarət zalının mallarla təmin edilməsi və s.

Aptek müdiri və yaxud da şöbənin müdiri bu istiqamətlər üzrə daha peşəkar işçilərə tapşırıqlar verir. Belə vəziyyətdə işçilər tapşırıqların vəzifələrinin öhdəsindən daha yaxşı gələ bilirlər

5)Aptek təşkilatının imicinin qorunması - 68.8%.

Hər bir aptek təşkilatı çalışır ki, əczaçılıq bazarında nüfuz qazansın. Daha çox alıcı cəlb etsin. Mövcud alıcılarının itirməsin. Buna görə də aptek təşkilatı daim fəaliyyətinin keyfiyyətinin yüksəlməsinə çalışır. Apteki tanıyan alıcılar digər apteklərə müraciət etmirlər.

6)Aptek təşkilatının Etibarlı Aptek təcrübəsi beynəlxalq standartın tələblərinə əsaslanan xidmət göstərməsi - 75%.

Burada aptekin təşkili, dərman vasitələrinin və tibbi təyinatlı malların alınması, onların saxlanması və aptekdən buraxılması tələblərə uyğun həyata keçirilməsi nəzərdə tutulur.

7)Aptek təşkilatında alıcıların məmnunluğunun təmin edilməsi – 93,8%.

Hər bir alıcı aptekdə xoş rəftar, tələbatın ödənildiyini gördükdə o aptekdən məmnun ayrılır.

8)Aptek təşkilatlarında normativə uyğun mal ehtiyatlarının yaradılması - 100%.

Over the past decade, the hypothesis of neuroinflammation has become widespread in explaining the degenerative processes of the nervous tissue. Neuroinflammation is considered one of the protective reactions of the central nervous system, however, with its long-term course, it acquires a destructive character. The number of scientific publications that study the relationship between the development of the neuroinflammatory process and depressive and cognitive disorders is growing. For example, such as Alzheimer's disease. Microglia is of great importance in the pathogenesis of such phenomena; at rest, it has a branched form with expanded pseudopodia, but in response to cytokines or other molecules signaling acute inflammation, it passes from an inactivated state to an active "phagocytic" state, releasing potentially neurotoxic proinflammatory mediators. Neuroinflammation is a complex process in which a huge number of pathophysiological specific components are involved. Although age, heredity and other factors are the main factors in the development of Alzheimer's disease, neuroinflammation also plays an important role. Determining markers of neurodegenerative processes can help confirm a clinical diagnosis.

Daxil olub: 02.07.2024

UOT: 618.39-02:618.3-06

Perinatal ağırlaşmaların proqnozlaşdırılması və profilatikasının müasir aspektləri

S.R.Qulamova
Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu, Bakı

Açar sözlər: perinatal ağırlaşmalar, hamiləlik, proqnozlaşdırma, risk faktorları, hipoksiya
Ключевые слова: перинатальные осложнения, беременность, прогноз, факторы риска, гипоксия
Key words: perinatal complications, pregnancy, prediction, risk factors, hypoxia

Perinatal (“peripartum”) dövr insan həyatının ən mühüm mərhələlərindən biri hesab olunur, həm müəyyən ontogenetik intervalda, həm də uzaq gələcəkdə onun həyat qabiliyyətinin və sağlamlığının vəziyyətini müəyyən edir. Perinatal ölüm səviyyəsi perinatal sağlamlığın əsas göstəricisi hesab olunur. Perinatal ölüm, əksər ölkələrdə qəbul edilmiş müasir Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) meyarlarına uyğun olaraq, hamiləliyin 22-ci həftəsindən doğuşdan sonrakı 7 günə qədər olan dövrdə döl və ya yeni doğulmuş ölüm hallarının bütün hallarını əks etdirən statistik göstəricidir, hər 1000 doğulan uşaq üzrə hesablanır. Perinatal ölümün tərkib hissəsi ölü doğuşdur, ölüm vaxtından asılı olaraq antenatal (hamiləliyin 22-ci həftəsindən doğuşun başlanmasına qədər) və intranatal (doğuşun başlanğıcından uşağın doğulmasına qədər), həmçinin erkən neonatal ölüm (ilk 7 gün və ya 168 saat ərzində) bölünür [1]. Perinatal dövrdə baş verən hər bir ölüm insan, əmək, intellektual, müdafiə və reproduktiv potensialın geridönməz itkisidir ki, bu da istənilən ölkənin iqtisadiyyatını sarsıdır, əhalinin doğulma xərclərini artırır. Əhalinin qocalması ilə yanaşı vaxtında əvvəl doğuşlar əmək məhsuldarlığının, ümumi daxili məhsulun azalması, səhiyyə xərclərinin zəmanətli artması və pensiya sisteminin dəstəklənməsi üçün təhlükə yaradır [2].

Buna görə də, perinatal ölümün azalması son illərdə bir çox yerli və xarici nəşrlərin həsr olunduğu milli miqyasda aktual tibbi problemdi [3,4]. Perinatal sağlamlığın optimallaşdırılmasının yeni mərhələsində mamalıq və ginekoloji yardımın bütün səviyyələrində mənfi perinatal nəticələri minimuma endirə bilən əhaliyə əsaslanan resursların cəlb edilməsi və modernləşdirilməsi zərurəti qarşıda durur [5].

Bu resursun axtarışında alimlər əvvəlcə vaxtından əvvəl doğuşun etiologiyasını təhlil edirlər. Bir neçə ildir ki, perinatal ölümün səbəblərinin strukturunda aparıcı mövqeləri bətndaxili hipoksiya və doğuş zamanı asfiksiya (müxtəlif müəlliflərə görə 40-dan 56%-ə qədər), tənəffüs pozuntuları və ya tənəffüs pozğunluqları (təxminən 15%), anadangəlmə anomaliyalar (təxminən 10%) tuturdu [6]. PP-nin ana səbəblərini təhlil edən tədqiqatçılar qeyd edirlər ki, 2005-ci ildən onların strukturunda plasentadan, göbək kordonundan və membranlardan gələn ağırlaşmalardan sonra ikinci yeri "səbəb müəyyən edilməmişdir" kateqoriyası tutur. Qalan vəzifələr hamiləliklə əlaqəli olmayan ana şəraitinə, hamiləliyin ağırlaşmasına, doğuş və doğuşa aiddir. Ölü doğuşun ana səbəbləri arasında bu kateqoriyanın mövqeyi oxşardır və erkən neonatal ölüm strukturunda liderdir.

Perinatal ölümün ana tərəfindən səbəblərini təhlilinə əsaslanan tədqiqatlarda qeyd edilir ki, 2005-ci ildən onların strukturunda ciftdən, göbək ciyəsindən və dölyanı qişada ağırlaşmalardan sonra ikinci yeri "səbəb müəyyən edilməmişdir" səbəblər kateqoriyası tutur. Digər pozisiyalar hamiləlik ağırlaşmaları, doğuşla əlaqəli olan ana vəziyyətlərə aiddir [7].

Patogenetik mexanizmlər ciftin hipoperfuziyasına və onun liflərinin işemiyasına səbəb olur. Bu zaman nəinki dölə oksigen və qida daxil olması azalır, həm də metabolik məhsulların xaric edilməsi pozulur, dölün hipoksiyası artır [8]. İşemiyaya uğramış cift, fizioloji ciftdən, damar endotelinə zərər verən daha çox antiangiogen amillər sintez edir [9]. Дисбаланс между вырабатываемыми плацентой про- и антиангиогенными факторами обусловливает нарушение процессов ангиогенеза, меняя его направление с роста сосудов на ингибирование их образования. Выраженность указанного дисбаланса коррелирует со степенью тяжести ПН [10].

Cift tərəfindən angiogenez proseslərinin pozulması baş verir, qan damarlarının istiqamətindən başlamış, inhibirləşməsinə qədər dəyişikliklər baş verir. Bu disbalans cift çatışmazlığına gətirib çıxarır.

Əvvəlcə lokallaşdırılmış cift perfuziyası və endotel disfunksiyası ümumiləşir, orqanlarda hipoksik dəyişikliklərə, reaktiv oksigen növlərinin meydana gəlməsinə, lipid peroksidləşməsinin (LPO)

aktivləşməsinə və oksidləşdirici stressə səbəb olur. Plasentanın hüceyrə membranlarını zədələyən peroksidləşmə proseslərinin aktivləşməsi, onların keçiriciliyinin pozulması, antioksidant müdafiə sisteminin dekompensasiyası cift baryerinin pozulmasına gətirib çıxarır [11].

Perinatal və ana ölümlərinin həyat keyfiyyətinə təsir edən, ana və uşağın həyat keyfiyyətini təyin edən sağlamlıq vəziyyətinin göstəriciləri olduğu məlumdur. Göstəricilərin əhəmiyyətli dərəcədə azalmasına baxmayaraq, perinatal dövrdə hər il 7 milyon uşaq ölür. Perinatal ölüm (PÖ) göstəricisinə təsir edən əsas amillərdən biri də az çəkili uşaqların doğulmasıdır. Erkən doğuş və aşağı çəkili körpələrin doğulmasının yüksək tezliyi perinatal ölümə əhəmiyyətli dərəcədə təsir göstərir. Dölün çəkisi ilə perinatal itkilər arasında birbaşa əlaqə müəyyən edilmişdir. 1000 q-dan az çəki ilə doğulan uşaqlarda erkən doğuşun səbəblərinin araşdırılması zamanı dölün bətndaxili hipoksiyasının və yeni doğulmuşların asfiksiyanın, erkən hamiləlik dövründə az çəkili uşaqların doğulmasının yüksək göstəricilərini aşkarlamağa şərait yaratmışdır. Eyni zamanda, perinatal dövrdə infeksion ağırlaşmaların tezliyində əhəmiyyətli bir artım müşahidə edilmişdir [12].

Perinatal ölümün patogenezini öyrənməklə yanaşı, onun tezliyinin azaldılması və qarşısının alınmasının rasional yollarından biri onun sosial-gigiyenik göstəriciləri, xəstələrin həyat tərzini, ümumi somatik və mamalıq-ginekoloji tarixinin xüsusiyyətlərinin, hamiləlik və doğuşun ağırlaşmalarını əhatə edən risk faktorlarını müəyyən etmək əhəmiyyət kəsb edir. Ağır mamalıq və ginekoloji xəstəlik tarix mənfi perinatal nəticələr üçün əsas risk faktorlarından biridir [13]. Abortlar, spontan düşüklər, ölü doğuşlar və neonatal itkilərin olması sonrakı hamiləliklərdə hamiləlik fəsadları riskini əhəmiyyətli dərəcədə artırır [14]. Uzun illər uşaqlıda baş verən degenerativ proseslərin inkişafı ilə əlaqəli yüksək paritet (4-8 doğuş və ya daha çox) ənənəvi olaraq mamalıqda perinatal ağırlaşmalar üçün risk faktoru hesab olunur [15].

Mədə-bağırsaq traktının (GİT) və sidik sisteminin xəstəlikləri, xüsusən pielonefrit də mənfi perinatal nəticələrdə daha çox rast gəlinir [8].

Perinatal ölüm üçün risk faktorlarının öyrənilməsi zamanı tədqiqatçılar onların perinatal nəticəyə mənfi təsirini həm birbaşa, həm də dolayı yolla həyata keçirmək qabiliyyətini qeyd edirlər ki, bu da patoloji şəraitin əlaqəsi ilə bağlıdır [16]. Bir neçə amil eyni vaxtda mövcuddur və onların birgə təsiri nəticəsində dölün və ya yeni doğulmuş uşağın ölümü baş verə bilər. Tədqiqatçılar vurğulayırlar ki, müxtəlif patoloji faktorlar dölün vəziyyətinə eyni dərəcədə təsir etmir. Bu baxımdan, hər bir amilin ətraflı qiymətləndirilməsinə və mənfi perinatal nəticələrin həyata keçirilməsinə təsirinin müəyyən edilməsi zəruridir.

Qeyd etmək lazımdır ki, fizioloji doğuş yeni doğulmuş körpəyə bir sıra üstünlüklər verir: somatik sağlamlıq, psixo-emosional reaksiyaların ardıcıllığı və sosial uyğunlaşma imkanları. Müvafiq olaraq, abdominal doğuş (əgər buna ehtiyac yoxdursa) təmin etdiyi müsbət təsirlərin sayı baxımından təbii doğuşu əvəz edə bilməz. Abdominal doğuşa göstəriş olan qadınların 15%-də perinatal ağırlaşmaların riski düzgün qiymətləndirilməlidir. Mövcud vəziyyətdə həyata keçirilən təxirə salınmış təcili əməliyyatlar perinatal nəticələrin keyfiyyətinə görə planlaşdırılmış əməliyyatlardan nəzərəçarpacaq dərəcədə aşağıdır.

Hesab edilir ki, döl üçün hamiləliyin və doğuşun nəticəsini proqnozlaşdırmaq meyarları, yeni doğulmuş körpə üçün erkən neonatal adaptasiya dövrünə diqqət yetirilməli, daha rasional mamalıq taktikasını, optimal vaxt və doğuş üsulunu seçməyə imkan verir.

Bu meyarların axtarışında tədqiqatçılar mövcud olanları təkmilləşdirir və dölün vəziyyətini qiymətləndirmək üçün yeni üsullar işləyib hazırlayırlar. Müasir mamalıqda bir çox metodlar vardır: fetometriya ilə ultrasəs, plasentoqrafiya, amniotik maye indeksinin təyini, uteroplasental-cift damarların doppleroqrafiyası, dölün KTQ müayinəsi, kardiointervaloqrafiya. Fetoplasentar çatışmazlığın fəaliyyətinin və dölün vəziyyətinin obyektiv göstəricisi stress hormonu kortizol ola bilər, onun sintezinin azalma olunmuş perinatal ölüm üçün böyürəküstü vəzi və hipotalamus-hipofiz sisteminin funksiyalarının zəiflədiyini. Bu, döl üçün hamiləliyin nəticəsini və erkən neonatal dövrdə yeni doğulmuş uşaqların adaptasiyasını proqnozlaşdırmağa imkan verir.

Lakin hormonal vəziyyət yalnız stresli vəziyyətlərdən deyil, həm də dərmanların təsirindən təsirlənir və uşağın və plasentanın çəkisindən asılıdır [15].

Etiopatogenezinin öyrənilməsində müasir elmin əldə etdiyi nailiyyətlər və perinatal ağırlaşmaların patoloji amillərinin müəyyən edilməsində əhəmiyyətli nailiyyətıə əldə edilmiş, dölün və yeni doğulmuş körpənin vəziyyətinə təsirinin xarakterilə bağlı ziddiyyətli məlumatlar mövcuddur. Mövcud laborator-instrumental müayinə üsulları ya həkimlər tərəfindən aparılan effektiv profilaktik tədbirlərin spektrini azaldaraq artıq baş vermiş funksional və ya morfoloji dəyişiklikləri aşkar edir, ya da mənfi perinatal nəticələrə səbəb ola biləcək fəsadların inkişaf riskini müəyyənləşdirir.

Multifaktorial proqnoz sahəsində müəyyən nailiyyətlərə baxmayaraq, hər bir faktorun proqnostik əhəmiyyətini göstərən əlverişsiz perinatal nəticənin təbiətinə əsaslanan risk qrupları üçün proqnoz meyarları hələ də müəyyən edilməmişdir. Perinatal ağırlaşmaların proqnozlaşdırılması üçün aydın, yüksək differensiallaşdırılmış, elmi əsaslı multifaktorial sistem işlənib hazırlanmamış, müvafiq profilaktika təklif edilməmişdir. Bu istiqamətdə tədqiqatın nəticələri hər bir xəstədə antenatal, intrapartum fetal ölüm, yeni doğulmuş körpənin erkən neonatal ölüm ehtimalını əvvəlcədən mühakimə etməyə və ən rasional fərdi mamalıq taktikasının seçilməsi ilə bağlı vaxtında qərar verməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Аюбова Т.К., Шамаро Т.А. Анализ динамики перинатальной смертнос ти в России в аспекте критериев ВОЗ [Текст] // Клинический опыт «Двадцатки», 2015, № 2 (26), с. 6-10
2. Бектемир кызы З., Рыскельдиева В.Т. Перинатальная смертность, возможности ее прогнозирования и выявление резервов улучшения перинатальных исходов // Наука, новые технологии и инновации Кыргызстана, 2015, № 4, с. 107-111.
3. Третьякова О.С., Махкамова З.Р., Голубова Т.Н. Перинатальная смертность как основная составляющая фетоинфантильных потерь в Республике Крым // Таврический медико-биологический вестник, 2016, № 1, с. 77-81
4. Стрижаков А.Н., Игнатко И.В., Карданова М.А Критическое состояние плода: определение, диагностические критерии, акушерская тактика, перинатальные исходы // Вопросы гинекологии, акушерства и перинатологии, 2015, № 4, с. 5-14
5. Байбарина Е.Н., Сорокина З.Х., Рябинкина И.Н. Анализ причин региональной дифференциации патологических состояний, определяющих показатели перинатальных потерь в Российской Федерации // Российский педиатрический журнал, 2012, № 5, с. 4-9
6. Суханова, Л. П. Родовспоможение в России в условиях реализации национального проекта «Здоровье» // Здравоохранение Российской Федерации, 2012, № 5, с. 32-36
7. Каращук Е.В., Стрельцова В.Л. К вопросу о перинатальной заболеваемости и смертности и путях их снижения в условиях акушерского стационара и женской консультации // Тихоокеанский медицинский журнал, 2015, № 1, с. 74-75.
8. Сюндюкова Е.Г., Медведев А.В., Сашенков С.И и др. Показатели системы гемостаза и маркеры системного воспаления у беременных с преэклампсией // Человек. Спорт. Медицина, 2014, № 1 с. 88-95.
9. Волкова Е.В., Лысюк Е.Ю., Джохадзе Л.С. и др. Сосудистые факторы роста в прогнозе осложнений у беременных с хронической артериальной гипертензией // Вестник Российского государственного медицинского университета, 2012, № 5, с. 45-48.
10. Лысяк Д.С., Волкова Н.Н. Патофизиологические механизмы формирования плацентарной недостаточности // Дальневосточный медицинский журнал, 2012, № 4, с. 134-137.
11. Меньщикова Е.Б., Ланкин В.З., Зенков Н.К. и др. Окислительный стресс. Прооксиданты и анти-оксиданты. М. : Слово, 2006, 556 с.
12. Məmmədova S.N. Müasir diridoğulma meyarlarina keçid şəraitində perinatal itkilərin klinikopatogenetik xüsusiyyətləri: t.e.d .... diss. ... avtoreferat. Bakı, 2021, 52 s.
13. Каращук Е.В., Стрельцова В.Л. К вопросу о перинатальной заболеваемости и смертности и путях их снижения в условиях акушерского стационара и женской консультации // Тихоокеанский медицинский журнал, 2015, № 1, с. 74–75.
14. Радзинский, В. Е. Акушерский риск. Максимум информации – минимум опасности для матери и младенца [Текст] / В. Е. Радзинский, С. А. Князев, И. Н. Костин. – М. : Эксмо, 2009. – 290 с].
15. Новикова С.В., Туманова В.В., Логутова Л.С. и др. Компенсаторные механизмы развития плода в условиях плацентарной недостаточности. М.: Медкнига, 2008, 298 с.

Резюме
К проблеме оптимизации прогнозирования и профилактики перинатальных осложнений
С.Р.Гуламова

При значительном прогрессе современной науки в изучении этиопатогенеза и выявлении патологических факторов ПС имеются противоречивые данные о значимости ряда из них и характере влияния на состояние плода и новорожденного. Существующие лабораторно-инструментальные методы исследования либо констатируют уже наступившие функциональные или морфологические изменения, сокращая диапазон продуктивных мероприятий, предпринимаемых врачами, либо определяют риск развития осложнений, способных привести к неблагоприятным перинатальным исходам. Несмотря на определенные успехи в области многофакторного прогнозирования, все еще не установлены прогностические критерии групп риска по характеру неблагоприятного перинатального исхода с указанием прогностического веса каждого фактора. Не разработана четкая, высокодифферен-цированная научно-обоснованная многофакторная система прогнозирования ПП, не предложена соответствующая их профилактика. Результаты исследования в данном направлении позволят заблаговременно судить о возможности наступления антенатальной, интранатальной гибели плода, ранней неонатальной смерти новорожденного у каждой пациентки и своевременно принимать решение о выборе наиболее рациональной индивидуальной акушерской тактики.

Summary
To the problem of optimization of prognosis and prevention of perinatal complications
S. R. Gulamova

With the significant progress of modern science in the study of etiopathogenesis and the identification of pathological factors of PS, there are conflicting data on the significance of some of them and the nature of the influence on the state of the fetus and the newborn. Existing laboratory-instrumental methods of research either detect functional or morphological changes that have already occurred, reducing the range of productive measures taken by doctors, or determine the risk of developing complications that can lead to adverse perinatal outcomes. Despite certain successes in the field of multifactorial forecasting, prognostic criteria for risk groups have not yet been established by the nature of adverse perinatal outcome with the indication of the prognostic weight of each factor. A clear, highly differentiated, scientifically substantiated multifactorial system for predicting PP has not been developed, and corresponding prevention has not been proposed. The results of research in this direction allow to prejudge the possibility of antenatal, intranatal death of the fetus, early neonatal death of the newborn in each patient and make a timely decision on the choice of the most rational individual obstetric tactics.

Daxil olub: 18.07.2024

UOT: 616.993.161

Dəri leyşmoniozunun və helikobakteriozun mikrobioloji diaqnostikasının müasir aspektləri

H.M. Əliyeva, G.N. Kərimbəyova, R.S. Bayramova, T.S. Tağıyeva
Azərbaycan Tibb Universitetinin Dermatovenerologiya kafedrası və Tibbi mikrobiologiya və immunologiya kafedrası, "Referans" Klinik Laboratoriya Mərkəzi, Bakı

Müəllifin elektron poçt ünvanı: kombc@mail.ru

Açar sözlər: leyşmanioz, H.pylori, promastiqot, mikrokultivasiya, kapillyar, mikrobioloji müayinə, dəri yarası
Ключевые слова: лейшманиоз, H.pylori, промастигота, микрокультивация, капилляр, микробиологическое исследование, кожные раны
Key words: leishmaniasis, H.pylori, promastigote, microcultivation, capillary, microbiological examination, skin injure

Ümumdünya Səhiyyə Təşkilatının sənədlərinə əsasən, leyşmanioz yeni və köhnə dünyanın 88 ölkəsində qeydə alınmışdır (66 yeni dünya, 22 köhnə dünya ölkəsi). Təkcə visseral leyşmanioz 65 ölkədə qeydə alınmışdır [1]. Visseral leyşmanioz ilə yoluxma hallarının 90%-i 6 ölkədə (Nepal, Sudan, Hindistan, Banqladeş, Efiopiya, Braziliya) baş vermişdir [2,3]. 2010-cu ildə 52000 nəfər visseral leyşmaniozdan dünyasını dəyişmişdir [4]. Dünyada hər il 2 milyon insan leyşmaniozlarla xəstələnir ki, bunların da təqribən 1,5 milyonu dəri, 500 mini isə visseral leyşmaniozun payına düşür. Bu ərazilərdə yaşayan 350 milyon insan leyşmaniozlarla xəstələnmə riski altında yaşayır [5]. Son illərdə visseral leyşmaniozla 1,3 milyon xəstələnmə halının 20000-30000-i ölümlə nəticələnmişdir [2].

Azərbaycanda hər il leyşmanioza 50-100 yoluxma hadisəsi qeydə alınır [6]. Azərbaycan ərazisində leyşmaniozun yayılması üçün əlverişli tropik və subtropik iqlim mövcuddur. Xəstəliyin həm dəri, həm də visseral forması ölkəmizin endemik olmayan ərazilərində də sporadik olaraq qeyd edilir. 2009-2013-cü illər ərzində 256 leyşmaniozlu xəstə aşkar edilmişdir. Azərbaycanın Göyçay, Ağdaş, Ucar, İsmayıllı və digər rayonlarda dəri leyşmaniozunun endemik ocaqları mövcuddur [6]. Müasir dövürdə effektiv müalicə üsulları tətbiq edilməsinə baxmayaraq, bu istiqamətdə rezistentliyin artması səbəbindən [7] hələ də problemlər yaşanılır, və leyşmanioz xəstəliyinin müalicəsi kimi diaqnostikası da dünya və Azərbaycan səhiyyəsi üçün çox vacibdir.

Eyni zamanda ölkəmizdə helikobakteriozun yayılması da aktual problemlərdən biridir. *H. pylori* (HP) insanın MBT-da xüsusilə mədə və 12 barmaq bağırsağı zədələyərək, xroniki qastrit, mədə və onikibarmaq bağırsaq xorası, mədə adenokarsinoması və mədənin selikli qişası ilə əlaqəli limfoid toxuma (MALT) limfomasına səbəb olur. Son zamanlar hematoloji, metabolik, ürək-damar, neyrodegenerativ və allergik pozğunluqlar da daxil olmaqla, HP infeksiyasının ekstra-qastroduodenal xəstəlikləri haqqında da maraqlı və mübahisəli bir çox elmi tədqiqatların nəticələri dərc edilmişdir. Helikobakteriozun geniş yayılmasının əsas səbəblərindən biri diaqnostik laboratoriyalarda *H. pylori*-nin təmiz kulturasının alınmaması, antibiotikə rezistent ştammların artması, mövcüd diaqnostik metodların istifadəsinin özünü tam doğrultmaması [8,9], *H.pylori*-yə qarşı vaksininin olmamasıdır. Bundan başqa helikobakteriozun müalicəsində həmişə istənilən nəticənin əldə edilməməsi xəstəliyin davamlı olaraq təkrarlanması ilə nəticələnir [10,11].

Tədqiqatın məqsədi. Hazırda nadir xəstəliklərin artan bir dövrdə rutin laboratoriyalarda onların aşkar edilə bilməməsi səbəblərindən biri də, onların çətin və uzun müddətli kultivasiyasıdır. Məhz bu səbəbdən də rutin laboratoriyalarda qısa müddətə və səmərəli yeni diaqnostik üsulun istifadəsi tədqiqatın əsas **vəzifələrindən** biri olmuşdur.

Tədqiqatın material və metodları. Tədqiqatlar Azərbaycan Tibb Universitetinin Dəri-zöhrəv xəstəlikləri kafedrasında, "Referans" Kliniki-Laboratoriya Mərkəzində və Azərbaycan Tibb Universitetinin Tibbi Mikrobiologiya və İmmunologiya kafedrasında aparılmış və nəticələr təhlil edilmişdir.

Mikrokultivasiya üsulu ilk dəfə Türkiyə Cümhuriyyətinin Yıldız Texnik universitetinin professoru Adil Allahverdiyev tərəfindən leişmaniozlu xəstənin yarasından alınan materialda istifadə edilərək Leişmaniyanın promostiqot forması əldə edilmişdir. Sonra isə 25 Helikobakteriozlu xəstənin mədə bioptatından bu üsulu modifikasiya edərək *H. pylori* – nin təmiz kulturasını əldə etdik.

Müxtəlif mədə-bağırsaq problemi olan xəstələrdən mikrokultivasiya üsulu ilə brusella bulyonu (50%) +RPMİ (50%) olan mühitdə HP kulturası əldə edilmişdir, sonra isə Liofilchem-in bərk qidalı mühitində *H.pylori* koloniyaları identifikasiya olunmuşdur. Öncə Helikobakteriozlu xəstələrin qan zərdabında HP *IgG* və HP tənəffüs testi yoxlanılmış, pozitiv olan xəstələrdən bioptatlar götürülmüş və diaqnoz təsdiqlənmişdir. 25 dəri leyşmaniozlu xəstələrdən alınan patoloji materialın (dəridəki yaralardan) mikrobioloji müayinəsi aparılmışdır. Materialın götürülməsi ən mühüm mərhələlərdən biri olub, diaqnozun qoyulmasında böyük əhəmiyyət kəsb edir. Belə ki, material düzgün götürülmədikdə diaqnozun qoyulmasında da problemlər yaranır. İlkin olaraq dəridə olan yara səthi spirtlə təmizlənib işləndikdən sonra yaranın içərisinə insulin şprisi vasitəsilə tərkibində 40 mq/ml gentamisin olan 0,1-0,2 ml fizioloji məhlul yeridib, eyni şprisə yenidən çəkilməsi ilə əldə edilmişdir. Belə ki, əvvəlcə məhlul dəri altına yeridilib, sonra isə həmin şprislə yerini dəyişdirməməklə maye geri çəkilmişdir. Əldə edilmiş material mikroskopik, kultural və ya digər üsullarla analiz olunmuşdur. Tədqiqat materialı olaraq bəzi hallarda yaradan qaşıntı skalpel vasitəsilə skarifikasiya edilir və buradan alınan toxuma mayesindən istifadə edilir. Yara irinli olduğu təqdirdə onun dibindən küt skalpel vasitəsilə alınmış qaşıntı materialından istifadə edilir. Dəri leyşmaniozunun diaqnostikasında laboratoriyalarda ən çox mikroskopik üsuldan istifadə edilir. Patoloji material Gimza üsulu ilə boyanır və işıq mikroskopunda, 90° obyektivdə bu preparatın amastiqot formasına baxılır.

Kultivasiya üçün isə 30% RPMI (With L-glutamine, without sodium bicarbonate) + FBS (Fetal Bovine Serum) götürülmüşdür. İlkin olaraq alınan materiallar 2 ml-lik ependorfda olan mühitdə ehtiyatla yaxşıca qarışdırılıb termostatda 1-2 saat saxlanılmışdır, sonra insulin şprisi vasitəsilə 50-100 µl miqdarında götürülüb steril hematokrit mikrokapilyarlara köçürülmüşdür. Kapilyarların hər iki ucu parafinlə bağlandıqdan inkubasiya edilmişdir. Kapillyar borular hər 2-3 gündən bir invert mikroskopda 20 dəfə böyüdülməklə mikroskopiya edilmişdir.

Tədqiqatın nəticələri və onların müzakirəsi. Mikrokultivasiya üsulunda həm HP, həm də leyşmaniyanın təmiz kulturalarını əldə etmək üçün eyni ölçülü steril kapilyar borulardan istifadə edilmişdir. Boruların kiçik ölçüsü orada mikroaerofil şəraitin yaranması, kontaminasiyanın qarşısının alınması üçün çox münasibdir. Mikroorqanizmlərin daha qısa və daha az qidalı mühit istifadə etməklə təmiz kultura əldə edilir. Parazitlərin hərəkətli promastiqot formaları və HP-nin də hərəkətli formaları invert mikroskopda aşkar edildikdə nəticə müsbət qiymətləndirilmişdir. Mikrokapillyarda hərəkətlilik aşkar olunmamış nümunələr neqativ dəyərləndirilmişdir.

ƏDƏBİYYAT

1. Report at the meeting of the WHO Expert Committee on Leishmaniasis Control. Geneva, 2010. p.32
2. Eiras D. et al. Cutaneous leishmaniasis: current treatment practices in the USA for returning travelers // Curr Treat. Options Infect Dis., 2015, 7, p.52-62.
3. Lozano R. Global and regional mortality from 235 causes of death for 20 age groups in 1990 and 2010: a systematic analysis for the Global Burden of Disease Study 2010 // Lancet., 2012, 380 (9859), p.2105
4. Leishmaniasis. Geneva: World Health Organization, 2014, p.22
5. Джалилов В.Ч. Эпидемиологический мониторинг кожного лейшманиоза на территории Азербайджанской Республики в 2000-2016 годах // Медицинские новости, 2019, № 4, с. 63-65.
7. CDC. Resources for health professionals /Electronic resource/ March,16 2022 https://www.cdc.gov/parasites/leishmaniasis/health_professionals/index.html Science News, Dirt-dwelling microbe produces potential anti-melanoma weapon, January 4, 2018,
8. Wang Y.K., Kuo F.C., Liu C.J. et al. Diagnosis of *Helicobacter pylori* infection: Current options and developments // World J Gastroenterol. 2015, 21(40), p.11221-11235.
9.Miftahussurur M., Yamaoka Y. Diagnostic Methods of Helicobacter pylori Infection for Epidemiological Studies: Critical Importance of Indirect Test Validation // BioMed Research International, 2016, 4819423, p.14
10.Hyasinta J., Rhee J.A., Östlundh L. et al. The magnitude of antibiotic resistance to *Helicobacter pylori* in Africa and identified mutations which confer resistance to antibiotics: systematic review and meta-analysis // BMC Infectious Diseases, 2018, 18**,** 193

11. Homan M., Orel R. Are probiotics useful in *Helicobacter pylori* eradication? // World J Gastroenterol., 2015, 21(37), p.10644-10653.

Резюме
Современные аспекты микробиологической диагностики кожного лейшманиоза и хеликобактериоза
Г.М. Алиева, Г.Н. Керимбекова, Р.С. Байрамова, Т.С. Тагиева

В современном мире кожный лейшманиоз и хеликобактериоз относятся к трудно диагностируемым заболеваниям особенно в рутинных лабораториях. Это проблема непосредственно влияет на лечение и профилактику. С этой целью метод микрокультивации является самой экономичной и удобной в плане получения чистой культуры возбудителей.

Summary
Modern aspects of microbiological diagnostics of cutaneous leishmaniasis and helicobacteriosis
G.M. Aliyeva, G.N. Kerimbekova, R.S. Bayramova, T.S. Tagiyeva

Now, more difficult the diagnosis of cutaneous leishmaniasis and helicobacteriosis, especially in routine laboratories. This problem directly affects to treatment and prevention of them. For this purpose, the microcultivation method is the most economical and convenient in terms of obtaining a pure culture of pathogens.

Daxil olub: 23.07.2024

UOT: 616.432-006

Hipofizin xoşxassəli şişlərinin klinik-histoloji xüsusiyyətləri

Z.F.Yusifli
Mərkəzi Gömrük Hospitalı, Patomorfoloji Diaqnostika şöbəsi, Bakı

Açar sözlər: hipofiz, adenoma, immunhistokimya, hormon ekspessiyası
Ключевые слова: гипофиз, аденома, иммуногистохимия, экспрессия гормона
Key words: pituitary gland, adenoma, immunohistochemistry, hormone expression

Hipofiz törəmələrinin böyük qismi xoşxassəli və yavaş gedişatlıdır (99,9%). Çox sayda törəmə klinik olaraq simptomsuz olur və otopsiyalarda aşkar olunur [1]. Yaşam dönəmində aşkar olunan hipofiz adenomalarının klinik əhəmiyyəti 1:1000-dir və əməliyyat olunmuş adenomaların sadəcə 10%-i atipik adenoma olaraq dəyərləndirilir. Residiv riski 17,8%, apopleksiya riski 8,2%-dir.

Hipofiz adenomaları hormonal aktiv və hormonal qeyri-aktiv ola bilərlər [2]. Hipofizin hormonal aktiv şişləri bu hüceyrələrin hansı hormon ifraz etməsindən asılı olaraq müvafiq klinika ilə müşaiyət olunurlar. Hormonal qeyri-aktiv şişlər zamanı da funksional pozğunluqlar baş verə bilər [3]. Lakin bu şişlərin əksəriyyəti klinikada "lal" gedişə malik olurlar. Bəzən isə törəmələr birdən çox hormon ekspresiyyası göstərə bilər. Plurihormonal adenomalar PIT-1 pozitiv, ortalama yaş 40,2 (±12,5), əsasən qadın cinsi pasientlərdə izlənir [4].

Adenomalar 1 sm-dən kiçik (mikroadenoma) və 1 sm-dən böyük (makroadenoma) ola bilirlər. Hipofizin ön payının hansı hüceyrələrindən (somatotrop, mammotrop, melanokortikotrop, tireotrop və qonadotrop) inkişaf etməsindən asılı olaraq hipofiz adenomalarının aşağıdakı növləri ayırd edilir (Cədvəl 1).

Somatotrop adenoma. Hipofiz adenomalarının 25-30% ni təşkil edir. Klinikada xəstənin yaşından asılı olaraq qiqantizm və akromeqaliya ilə müşaiyət olunur. Böyük qismi invaziv makroadenoma xarakterindədir.

Böyümə hormonu ekspressiya edən törəmələr sıx və seyrək qranullu ola bilirlər. Sıx qranullu adenomalar yuvarlaq girdə asidofillik hüceyrələrdən əmələ gəlir, diffuz böyümə paterni göstərir [5]. İmmunhistokimyəvi olaraq böyümə hormonu ilə yayqın qüvvətli sitoplazmik müsbət boyanma əldə edilir. Sitokeratin 8 (CK8) ilə perinuklear müsbət reaksiya izlənir. Pit-1 ilə qüvvətli nuklear immunreaktivitə mövcuddur. Elektron mikroskopla baxıldığında isə çox sayda sekratuar qranul diqqəti çəkir.

Cədvəl 1
Hipofiz adenomalarının növləri

Adenoma növləri	**İmmunhistokimyəvi ekspressiya**
Pit-1 ailəsi	Pit-1
GH hüceyrə adenoması	GH, α-subunit, keratin
Mammosomatotrop adenoma	GH, PRL, α-subunit, ER
PRL hüceyrə adenoması	PRL, ER
TSH hüceyrə adenoması	β – TSH, α-subunit
GH, PRL və TSH sintez edən adenoma	GH, PRL, TSH
ACTH ailəsi	ACTH, Tpit, NeuroD1
Gonadotropin ailəsi	β – FSH, β – LH, SF-1, ER
Plurinormonal adenomalar	Dəyişkən
Hormon neqativ adenomalar	-

Seyrək qranullu somatotrop adenomalar isə kiçik düzənsiz görünümdə hüceyrələrdən ibarət olur. Paranuklear soluq asidofillik inklüzyon bənzəri fibroz cisimlər bu törəmə üçün diaqnostikdir. Bu fibroz cisimciklər immunhistokimyəvi olaraq aşağı molekul ağırlıqlı sitokeratin olan CK8 ilə müsbət boyanır. Bəzən törəmə içində böyük ölçülü, çox nüvəli pleomorfik hüceyrələr də qeyd edilir [6].

Prolaktinoma. Hipofiz adenomalarının 25-30% ni təşkil etməkdə olub, klinik olaraq hiperprolaktinemiya və laktorreya ilə təzahür edir. Adətən serumda mövcud prolaktin səviyyəsi ilə törəmənin ölçüsü arasında düz mütanasiblik mövcud olur. Qadınlarda mikroadenoma, kişilərdə isə makroadenoma olaraq izlənir. Mikroadenomalar adenohipofizin lateral və posterior hissəsində yer alır. Əsasən diffuz papillar toxuma paterni görülür. Amiloid depolanması və kalsifikasiya izlənə bilər [7].

Bu törəmələr də sıx və seyrək qranullu ola bilirlər. Böyük qismini seyrək qranullu adenomalar təşkil etməkdədir. Seyrək qranullu adenomalar xromofob vəya yüngül asidofillik olur. Prolaktin (PRL) hormonal immunhistokimyəvi boyaması ilə tipik paranuklear (Qolci paternində) və Pit-1 ilə qüvvətli nuklear boyanma izlənir.

Sıx qranullu adenomalar isə asidofillik olub, prolaktin immunhistokimyəvi boyaması ilə yayqın və qüvvətli boyanma qeyd edilir.

Prolaktinomaların medikal müalicəsində dopamin aqonistləri istifadə edilir [8]. Bu zaman histoloji müayinədə hüceyrə ölçülərində kiçilmə, sitoplazmada büzüşmə, nüvə/sitoplazma nisbətində artış, eləcə də interstisyal və perivaskular fibrozis diqqəti çəkir.

Tireotrop adenoma. Xəstələrdə miksedemanın, bəzən isə hipertireotoksikozun inkişafına səbəb olur. Olduqca nadir rastlanır [9]. Əsasən invaziv patern göstərirlər. Stromal fibrozis, nuklear pleomorfizm və psammom cisimləri izlənə bilir. Mikroskopik olaraq qeyri-düzgün sərhədlərə sahib xromofob adenoma morfologiyasına sahibdirlər. İmmunhistokimyəvi boyamalarda α-subunit, β – TSH və Pit-1 ilə müsbət nuklear boyanma qeyd edilir. PAS histokimyəvi boyaması ilə isə sitoplazmik qranullarda boyanma izlənir.

Kortikotrop adenoma. Adrenokortikotrop hormon (ACTH) sintez edən adenomalar bütün hipofizin bütün adenomalarının 10-15%-ni təşkil edir [10]. Makroskopik olaraq qırmızı rəngdə, yumşaq konsistensiyada izlənirlər. Ən çox İtsenko-Kuşinq vəya Nelson sindromu zamanı görülürlər [11]. Kavernoz sinus invaziyası qeyd edilə bilər. PAS histokimyəvi boyamasında qüvvətli sitoplazmik müsbət boyanma olub, immunhistokimyəvi olaraq ACTH, β – LPH vəya β – endorfin ilə ekspressiya görülür. Bu adenomalarda Crooke hiyalin dəyişikliyi spesifik xüsusiyyətdir.

Qonadotrop adenoma. Follikul stimulə edici və lüteinləşdirici hormon ifraz edən hüceyrələrdən inkişaf edir. Funksiyonal adenomalar kişilərdə qadınlara nisbətən daha sıx görülür. Makroadenoma olaraq qarşımıza çıxırlar və əsasən "lal" adenoma qrupunda dəyərləndirilirlər. Suprasellar və parasellar invaziya görülə bilər. Histoloji müayinədə psevdorozetlər əmələ gətirən sinuzoidal toxuma paterni göstərən kolumnar hüceyrələrdən formalaşdığı izlənir. Qanama sahələri və nekroz qeyd edilir. İmmunhistokimyəvi boyamalarda qlikoprotein hormon α-subuniti, β – FSH və β – LH ilə qüvvətli müsbət reaksiya görülür [12].

Plurihormonal adenomalar. Birdən daha çox hormon sintez edən adenomlara plurihormonal adenomalar deyilir [13]. Plurihornonal adenomaların böyük qismi Pit-1 ailəsi içində yer alır [14]. Bu adenomalara qarışıq somatotrop-laktotrop adenomalar, mammosomatotrop adenomalar, asidofil kök hüceyrə adenomaları, plurihormonal böyümə hormonu (GH) sintez edən adenomaları misal göstərmək olar. Qarışıq somatotrop-laktotrop adenomalar GH ekspressiya edən asidofil və PRL ekspressiya edən xromofob iki fərqli hüceyrə tipindən ibarət ikən, mammosomatotrop adenomalar həm GH, həm də PRL sintez edən tək tip hüceyrədən əmələ gəlirlər.

Hormon neqativ adenomalar. Adətən suprasellar və parasellar invaziya göstərən giqant adenomalar olaraq izlənirlər [15]. Kavitasiya və qanama sıx görülür. Bu törəmələr papillar toxuma paterni göstərən yuvarlaq poliqonal xromofob hüceyrələrdən ibarət olur. Hormonal ekspressiyanı və transkipsiya faktorlarını aşkar edən immunhistokimyəvi boyamaların tətbiqi ilə rastlanma sıxlığı getdikcə azalmaqdadır [16].

ƏDƏBİYYAT

1.Asa S.L., Mete O,. Perry A. et al. Overview of the 2022 WHO Classification of Pituitary Tumors // Endocr Pathol., 2022, 33(1), p.6-26.

2.Inoshita N., Nishioka H. The 2017 WHO classification of pituitary adenoma: overview and comments // Brain Tumor Pathol. 2018, 35(2), p.51-6.

3.Lim C.T., Korbonits M. Update on the Clinicopathology of Pituitary Adenomas // Endocr Pract. 2018, 24(5), p.473-88.

4.Sathyakumar R., Chacko G. Newer Concepts in the Classification of Pituitary Adenomas // Neurol India. 2020, 68(Supplement), p.7-12.

5.Annapurni A., Rathi M. Acidophil stem cell pituitary adenoma: a case report and literature review // Hormones (Athens). 2019, 18(4), p.507-12.

6.Guaraldi F., Ambrosi F., Ricci C. et al. Histopathology of growth hormone-secreting pituitary tumors: State of the art and new perspectives // Best Pract Res Clin Endocrinol Metab. 2024 38(3), p.101894.

7.Wang J., Zhao X., Zhang W. Pituitary Adenoma with Multiple Calcifications in a Child: A Rare Case Presentation // Curr Med Imaging. 2023, 19(14), p.1685-8.

8.Tercan U., Sarban E., Yildiz M. et al. Cabergoline Induced Pathological Gambling in an Adolescent with Prolactinoma // J Clin Res Pediatr Endocrinol. 2025.

9.Ortiz E., Peldoza M., Monnier E. et al. Ectopic pituitary adenoma of the TSH-secreting sphenoidal sinus with excellent response to somatostatin analogs. Theory of the embryogenesis and literature review from a clinical case // Steroids. 2020, 154, p.108535.

10.Karavitaki N., Ansorge O., Wass J.A. Silent corticotroph adenomas // Arq Bras Endocrinol Metabol., 2007, 51(8), p.1314-8.

11.Castinetti F., Morange I., Conte-Devolx B. et al. Cushing's disease // Orphanet J Rare Dis. 2012, 7, 41.

12.Asa S.L., Faiman G.H., Mohamed A. et al. Multilineage Pituitary Neuroendocrine Tumors Expressing TPIT and SF1: A Clinicopathological Series of Six Tumors // Endocr Pathol. 2024, 35(4), p.349-53.

13.Mihajlovic M., Pekic S., Doknic M. et al. Plurihormonal Pituitary Neuroendocrine Tumours - A Single Centre Experience // Int J Surg Pathol. 2024, 32(3), p.470-7.

14.Gonzalez A., Saindane A.M., Neill S.G. The Intriguing Case of a Double Pituitary Adenoma // World Neurosurg. 2019, 126, p.331-5.

15.Manojlovic-Gacic E., Engstrom B.E., Casar-Borota O. Histopathological classification of non-functioning pituitary neuroendocrine tumors // Pituitary. 2018, 21(2), 119-29.

16.Mete O., Lopes M.B.. Overview of the 2017 WHO Classification of Pituitary Tumors // Endocr Pathol., 2017, 28(3), p.228-43.

Резюме

Клинико-гистологические особенности доброкачественных опухолях гипофиза

З.Ф. Юсифли

Производные гипофиза и турецкого седла составляют примерно 15% всех опухолей головного мозга. Большинство опухолей гипофиза имеют доброкачественное течение. Аденомы гипофиза чаще всего встречаются в возрастном диапазоне 30-60 лет. В зависимости от клеток передней доли аденомы гипофиза различают соматотропный, маммотропный, меланокортикотропный, тиреотропный и гонадотропный типы. Существуют также негормональные и плюригормональные аденомы. Аденомы имеют соответствующие клинические проявления в зависимости от гормона, который они экспрессируют. Автор в статьей изучал клинико-гистологическую характеристику на основе анализа научной литературы.

Summary

Clinical and histological features of benign pituitary tumors

Z.F. Yusifli

Pituitary and sella turcica derivatives account for approximately 15% of all brain tumors. Most pituitary tumors are benign. Pituitary adenomas are most often found in the age range of 30-60 years. Depending on the cells of the anterior lobe of the pituitary adenoma, somatotropic, mammotropic, melanocorticotropic, thyrotropic and gonadotropic types are distinguished. There are also non-hormonal and plurihormonal adenomas. Adenomas have corresponding clinical manifestations depending on the hormone they express. The author in the article studied the clinical and histological characteristics based on the analysis of scientific literature.

Daxil olub: 08.07.2024

MÜNDƏRİCAT

İCMALLAR – ОБЗОРЫ

Поэтапная медицинская профилактика онкологических заболеваний как рациональная альтернатива международной программы противораковой борьбы
М.К.Мамедов, Ф.А.Марданлы, Р.С.Зейналов.....3

Kalsiferolların dərman formalarının analiz xüsusiyyətləri
T.A.Süleymanov, V.H.İsgəndərov, K.A.Ağamirzəyeva, S.S.Əsədzadə.....12

Эпидемиологические аспекты персистирующих герпесвирусных инфекций
Е.Б. Касымова, О.А. Башкина, Б.И. Кантемирова, Р.О. Байларов.....18

ORİJİNAL MƏQALƏLƏR -ОРИГИНАЛЬНЫЕ СТАТЬИ

Qadın daxili cinsiyyət orqanlarının xronik iltihabi xəstəliklərində molekulyar diaqnostika metodunun diaqnostik dəyərinin müqayisəli xarakteristikası
Ü.H.Əliyeva.....24

Arterial hipertoniya, ürəyin işemik xəstəliyi və şəkərli diabeti olan pasiyentlərdə antropometrik, exokardioqrafik və biokimyəvi göstəricilərin ürək ritminin variabelliyinin zaman və spektral sahələri ilə korrelyasiyası
A.V.Mustafayeva 28

Vaxtından əvvəl doğulanlarda nekrotik enterokolit:diaqnostik və proqnostik prediktorlar
İ.İ. Hüseynova, R.O.Bəylərov.....33

Xroniki mieloid leykoz: BCR/ABL1 Füzyon Gen Sayı Mutasiyalarının və 8-ci xromosomun hiperdiploidiyasinin xəstəliyin patogenezinə və imatinib müalicəsinə qarşı yaranan rezistentliyə təsiri
A.B.Həsənova.....37

Взаимосвязь между остеопорозом и хроническим генерализованным пародонтитом у пациентов с хронической болезнью почек
Ш.Р. Юсубова 42

Topdansatış əczaçılıq sektorunun vəziyyətinin təhlili və risklərin öyrənilməsi
B.Ə.Şirəliyev.....48

Oftalmoxlamidiozun diskriptiv metodlarla epidemioloji təhlili
G.İ.Ağayeva …….....……52

Уровень гомоцистеина, как фактор риска ишемической болезни сердца
М.Ф.Исаева, Р.Ф.Абдуллаев, И.А.Абдуллаева, С.А.Мурадова….....…….56

Новые подходы разработки прогностических маркеров в диагностике перипартальной кардиомиопатии
Н.М. Камилова, Ж.С.Ибрагимова…….....……61

Anemiya və hipoeritropoetinemiya ilə xronik ürək çatışmazlığı olan xəstələrdə iltihabönü sitokinlərlə eritropoetin səviyyələri arasında əlaqə
K.X.Zahidova, S.S.Ələsgərzadə…….....……66

Нейромоторные особенности при гипоксически-ишемической энцефалопатии у младенцев в течение первого года жизни

Л.Р. Рагимова, С.З. Гараева, А.К. Маммедбейли…….……74

Tip 2 şəkərli diabet patogenezində bəzi makro-və mikro-elementlərin rolu
N.İ.Ömərli, A.R.Dadaşova…….78

Respirator bakterial xəstəliklərin törədiciləri və onların antibiotik rezistentliyi
R.M. İmanova, H.Ə. Qədirova…….……82

Usaqlığın xərcəngönü xəstəlikləri, risk amilləri, profilaktikası
S.İ.Səfərova, Y.M.Hətəmov, N.C. Sadıqzadə 85

Qadınlarda urogenital kandidoz xəstəliklərinin xüsusiyyətləri
S.H.Həsənova, G.M.Seyidova…….……88

Müxtəlif mənşəli osteoporozlar zamanı adipokinlər və apoptoz faktorlarının rolu
H.E. Həsənova, N.A. Həsənova, Ü.R. Hacıyeva, M.Y. Əlizadə, Ş.Ş.Əmiraslan.....91

Ətraf mühitin mühafizəsi və ekologiyaya dair elmi ədəbiyyatın biblioqrafiyasının qısa xarakteristikası
İ.Z.Əliyeva.....95

Levotiroksinin müxtəlif dərman formalarının bioloji mayelərdə analizi
T.A. Süleymanov, E.Z. Balayeva,T.V. İsmayılbəyli, G.R.Zeynalova.....99

Модуль упругости и стабильность титановых дентальных имплантов
Э.Р. Мусаев, Р.Р. Шахмурадов, Н.Н.Бабаева.....105

Zahılıq dövrünün depressiyası olan qadınlarda doğuşun gedişat xüsusiyyətləri
G.K. Atamoğlanova.....109

Ruta graveolens bitkisinin xammalında flavonoidlərin miqdarının təyini
S.Ş. Əliyeva, V.V. Məmmədova, N.T.Babayeva.....113

Antidepressantların istifadəsinin muasir tendensiyaları və Azərbaycanda perspektivləri
R.R.Məmmədova, L.N. Mansurova.....116

Случай туберкулезного менингоэнцефалита у больной с ревматоидным артритом
А.А. Алекперова С.А.Фараджева, Ш.М.Велиева.....121

Neonatal sepsisin klinik və immunopatogenetik xüsusiyyətləri
N.T. Kərimova.....124

Erkən və məktəbəqədər yaşlı uşaqlarda bronxial astmanın inkişaf riskinin proqnozlaşdırılmasına dair müasir baxışlar
T.T.Pənahova…….……..129

Azərbaycanda oftalmoloji dərman vasitələri bazarının təhlili
K.İ.Cəlilova, D.F.Yusifova…….…133

Процесс жевания у людей с различными ортопедическими конструкциями и зубо-челюстными аномалиями
Ю.Г. Ахундов, Г.М. Архмамедова, О.М.Садыгов.....138

Aptek təşkilatlarında dayanıqlı inkişaf məqsədləri

N.M.Naibov, V.A.Qulizadə.....142

PRAKTİK HƏKİMƏ KÖMƏK-ПОМОЩЬ ПРАКТИЧЕСКОМУ ВРАЧУ

Erkən yaşlı uşaqlarda həzmin funksional pozulmalarının xüsusiyyətləri
A.M. Həsənov, Z.S. Talışlı, B.A. Namazova, S.L.Zeynalova.....146

Гормональный статус при миоме матки и возможности гормональной терапии
М.И.Исмаилова.....150

Роль нейровоспаления в развитии болезни альцгеймера
А.С. Рахимова, И.В.Гребенникова.....154

Perinatal ağırlaşmaların proqnozlaşdırılması və profilatikasının müasir aspektləri
S.R.Qulamova.....157

Dəri leyşmoniozunun və helikobakteriozun mikrobioloji diaqnostikasının müasir aspektləri
H.M. Əliyeva, G.N. Kərimbəyova, R.S. Bayramova, T.S. Tağıyeva.....161

Hipofizin xoşxassəli şişlərinin klinik-histoloji xüsusiyyətləri
Z.F.Yusifli.....164

Nəşriyyatın direktoru:
Ş.M.Şəfiyev "Müəllim" nəşriyyatıdna çap olunmuşdur.
Tel.: (+99470) 213 10 61 (+99410) 213 10 61 E-mail: muallim.mmac@gmail.com
Çapa imzalanmışdır: 27.12.2024. Sifarış:
Kağız formatı: 60X841/8. Şərti ç.v. 34,25. Sayı